Xalqın qəzeti!

# Xalq qəzeti

№ 17 (30986) 29 yanvar 2026-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Tarixi-mədəni dəyərlər müstəqil dövlətin mənəvi özülüdür



**Milli-mənəvi dəyərlər dövlətimizin əsasını təşkil edir və mən dəfələrlə demişəm ki, müasir müstəqil Azərbaycan dövləti milli dəyərlər üzərində qurulub. Əminəm ki, biz bu dəyərləri qoruyub saxladıqca, dövlətimiz daha da qüdrətli olacaq, xalqımız da əbədi azad, müstəqil xalq kimi yaşayacaq.**

**Azərbaycanlılar həmişə dünyaya açıq olublar, amma öz mənəvi kodeksini həmişə hər şeydən üstün tutublar. Bir halda ki, azad olmadığımız dövrdə, əsrlər boyu həm müstəmləkə, həm başqa ölkələrin tərkibində yaşadığımız dövrdə əgər biz bu dəyərləri qoruyub saxlamışıqsa, indi, əlbəttə, biz bu dəyərləri qoruyub saxlamalıyıq.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

## Qlobal tranzitin yeni ünvanı: Azərbaycan–Türkiyə tərəfdaşlığı



**Azərbaycan və Türkiyə arasında dəmir yolu və logistika sahəsində əməkdaşlıq bu gün regional çərçivələri aşaraq qlobal strateji əhəmiyyət kəsb edir. Hazırda iki qardaş ölkəni birləşdirən Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolu xətti Asiya və Avropanın nəqliyyat şəbəkələrini qovuşdurmaqla Avrasiya məkanında yeni geosiyasi və geoiqtisadi reallıq formalaşdırıb. Bu dəhliz iki qitə arasında ən qısa və səmərəli quru marşrutu kimi Orta Dəhlizin rəqabət qabiliyyətini artırıb.**

Son statistik göstəricilər tərəfdaşlığın artan dinamikasını aydın şəkildə nümayiş etdirib. 2025-ci ildə Azərbaycanın dəmir yolu ilə beynəlxalq yükdaşımalarının həcmi 7,08 milyon tona çatıb. Bunun əhəmiyyətli hissəsi BTQ-nin payına düşüb.

*(ardı 3-cü səhifədə)*

## Paşinyanın ordu günü etirafı keçmişə ittiham, gələcəyə mesajdır

*İrəvanın hərbi və təhlükəsizlik siyasətində yanaşmaları dəyişir*



**Yanvarın 28-i Ermənistanda ordu günü kimi qeyd olunur. Ölkənin baş naziri Nikol Paşinyan bu münasibətlə təbrik çıxışında növbəti dəfə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını (KTMT) müttəfiqinə kömək etmək istəməməkdə təqsirləndirib.**

Paşinyan 2022-ci il sentyabrın 12-14-də baş vermiş hadisələr zamanı, yəni Azərbaycanın, guya, Ermənistana qarşı "təcavüzü" dövründə KTMT-nin İrəvana dəstək göstərmədiyini iddia edib. Son üç ildə Ermənistan ordusunun gücləndirilməsi və arsenalınının genişləndirilməsi istiqamətində əldə olunan nailiyyətləri sadalayan Paşinyan sual edib ki, niyə bütün bunlar 2018, 2019, 2020 və ya 2022-ci illərdə mümkün olmayıb. Onun sözlərinə görə, bunun iki əsas səbəbi var idi. Birinci səbəb ondan ibarət olub ki, beynəlxalq tərəfdaşlar silah satmaqdan imtina ediblər, çünki satılan silahların Ermənistan hüdudlarından kənarda, yəni Qarabağda yerləşdirilə biləcəyindən ehtiyatlanıblar. İkinci səbəb isə həmin tərəfdaşların silahların "KTMT-nin əlinə keçəcəyindən" narahatlığı olub. Hökumət başçısı daha sonra iddia edib ki, KTMT-dəki müttəfiqlər də öz növbələrində Ermənistanın ərazi bütövlüyünün təmin edilməsinə dair müqavilə öhdəliklərini yerinə yetirməkdən imtina ediblər. Paşinyanın sözlərinə görə, müttəfiqlər, həmçinin İrəvanın əvvəlcədən ödəniş etdiyi yüz milyonlarla dollar dəyərində silah və hərbi texnikanı da tədarük etməyiblər.

*(ardı 4-cü səhifədə)*

## Sülh prosesi regiona iqtisadi dirçəliş gətirir



Səhifə ⇨ 7

## Milli kinofilmlərimiz niyə populyarlığını itirir?



Səhifə ⇨ 14

## Sülh Şurası Azərbaycanı təsisçi üzv kimi salamlayıb




**ABŞ Prezidenti Donald Trampın təşəbbüsü ilə təşkil edilmiş Sülh Şurasının X sosial mediasında səhifəsi yaradılıb.**

Səhifədə Sülh Şurası təsisçi üzv kimi Azərbaycanı salamlayıb. Azərbaycanla yanaşı səhifədə Sülh Şurasına üzv olan digər ölkələrə dair salamlama posterləri də yerləşdirilib.

Xatırladaq ki, Ümumdünya İqtisadi Forumu çərçivəsində yanvarın 22-də Davosda "Sülh Şurasının Nizamnaməsi" sənədinin imzalanma mərasimi keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, tədbirdə iştirak edən digər dövlət və hökumət başçıları "Sülh Şurasının Nizamnaməsi" sənədini imzalayıblar. Bununla da Azərbaycan Sülh Şurasının təsisçi üzvlərindən biri olub.

## ABŞ vitse-prezidentinin Qafqaz səfərinin gözləntiləri



Səhifə ⇨ 3

## "TDT+" tarixi zərurətə çevrilir



Səhifə ⇨ 4

## Yaxın Şərqə açılan yeni əməkdaşlıq qapısı



Səhifə ⇨ 5

## Fransada impiçment "serialı" davam edir



Səhifə ⇨ 5

## Avropa Komissiyasının qərarı və qaçılmaz sonluq



Səhifə ⇨ 6

# Böyük Azərbaycan şairi Xaqani Şirvaninin 900 illik yubileyinin qeyd edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

2026-cı ildə böyük Azərbaycan şairi Əfzələddin Xaqani Şirvaninin 900 illiyi tamam olur.

Xaqani Şirvani Azərbaycan ədəbiyyatı və mədəniyyətinin qızıl dövrünün ümumbəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi nəhəng simalardandır. Zəmanəsinin ən müxtəlif elmlərini dərindən bilən və Şərqin çoxəsrlik mədəni ənənələri zəminində əzəmətlə yüksələn qüdrətli söz ustası şeiriyyətin zirvəsində dayanan sənət nümunələrindən ibarət zəngin bir irs qoyub getmişdir. Ədalətə çağırış, mübarizə ruhu və şəxsiyyət azadlığı, mənəvi ucalıq, insan ləyaqəti və idrakın gücünə inam bu nadir irsin səciyyəvi cəhətləridir. Mütəfəkkir sənətkar ictimai-fəlsəfi və didaktik-əxlaqi düşüncələrdən yoğrulan, yüksək estetik dəyərə malik humanist məzmunlu əsərlərində sosial-tarixi hadisələri özünəməxsus bədiiliklə mənalandırmış və bunlardan ibrət almağı tövsiyə etmişdir. Xaqani yaradıcılığında parlaq lirik lövhələrlə ifadəsini tapan vətənpərvərlik motivləri şairin doğma yurda və onun gözəlliklərinə sonsuz sevgisinin dolğun poetik təzahürüdür. Əsrinin mədəni həyatı ilə heyrətamiz dərəcədə sıx bağlı olan Xaqani Şirvani klassik ədəbiyyata qazandırdığı yeniliklərlə bütövlükdə Yaxın və Orta Şərq xalqlarının ədəbi-fəlsəfi fikrinin inkişafına qüvvətli təsir göstərmişdir. Sonrakı yüzilliklərin ustad şairləri Xaqani dühasına həmişə ehtiramla yanaşmış, məktəb kimi ondan bəhrələnmişlər.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan ədəbiyyatının qüdrətli nümayəndəsi Xaqani Şirvaninin 900 illik yubileyinin qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

**1** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə böyük Azərbaycan şairi Xaqani Şirvaninin 900 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 yanvar 2026-cı il**

# “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Gürcüstanın Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş”in təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2025-ci il noyabrın 21-də Tbilisi şəhərində imzalanmış “Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Gürcüstanın Daxili İşlər Nazirliyi arasında əməkdaşlıq haqqında Saziş” təsdiq edilsin.

**2** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Gürcüstan Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 yanvar 2026-cı il**

# Baş Prokurorluğun illik hesabatı




**Yanvarın 28-də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikasının Prokurorluğu orqanları tərəfindən 2025-ci ildə qanunla prokurorluq orqanlarının səlahiyyətinə aid bütün fəaliyyət istiqamətləri üzrə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.**



Giriş nitqi ilə çıxış edən Kamran Əliyev 2025-ci ilin dövlətimiz və xalqımız üçün bir neçə mənada rəmzi əhəmiyyət kəsb etməsi ilə yanaşı, eyni zamanda, mühüm tarixi, siyasi və iqtisadi əhəmiyyətə malik hadisələrlə zəngin bir il olduğunu qeyd edib.

Baş prokuror prokurorluğun əsas fəaliyyət istiqamətləri üzrə görülən işlərə və statistik göstəricilərə istinad etməklə hesabat dövründə respublikada kriminogen durumun nəzarətdə saxlanıldığını, daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunduğunu, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində zəruri tədbirlərin görüldüyünü qeyd edib.

Bildirilib ki, ötən ildə ölkə ərazisində 31 min 852 cinayət qeydə alınmaqla onların 90,5 faizinin açılması təmin edilib, ümumilikdə ölkə üzrə cəmi 15 min 766 cinayət işinin istintaqı tamamlanıb ki, bunlardan 1063-ü prokurorluq orqanlarında istintaq olunub.

Bu müddət ərzində prokurorluq orqanları tərəfindən 700, ümumilikdə isə digər istintaq qurumları ilə birgə 11 min 934 cinayət işinin ibtidai istintaqı yekunlaşdırılaraq baxılması üçün məhkəmələrə göndərilib. İbtidai istintaqı tamamlanmış cinayət işləri və bəraətverici əsaslar olmadan rədd edilmiş materiallar üzrə ümumilikdə 435 milyon 191 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək istintaq tədbirləri ilə onun 59,5 faizinin, yəni 259 milyon 95 min manat hissəsinin ödənilməsinə nail olunub.

Prokurorluq orqanlarında ibtidai istintaqı aparılaraq yekunlaşmış cinayət işləri üzrə ümumilikdə 94 milyon 817 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək istintaq tədbirləri ilə onun 32 milyon 635 min manat hissəsinin ödənilməsinə nail olunub, 82 milyon 400 min manatdan artıq məbləğdə əmlak üzərinə həbs qoyulub.

Məlumat verilib ki, 2023-cü ildən prokurorluq orqanlarında tətbiq edilən “Elektron prokurorluq” informasiya sistemi ötən müddət ərzində daha da inkişaf etdirilib, prokurorluğun bütün qurumları üzrə istifadəsinə şərait yaradılmaqla digər informasiya sistemlərinə inteqrasiyası təmin olunub, xidməti fəaliyyətin icrası məqsədilə 47 modul yaradılmaqla istifadəyə verilib.

Hesabat dövründə Baş Prokurorluğun İstintaq idarəsi tərəfindən 83 şəxs barəsində 61 cinayət işinin ibtidai istintaqı aparılmaqla baxılması üçün məhkəmələrə göndərilib, bunlardan 6 şəxs barəsində 5 iş qəsdən adamöldürmə faktları ilə bağlı olub.

Kollegiya iclasında daxili işlər orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə ötən illərdən bağlı qalmış qeyri-aşkar şəraitdə törədilmiş 4 qəsdən adamöldürmə cinayətlərinin açılması təmin edilməklə həmin işlər üzrə ibtidai istintaqın davam etdirildiyi xüsusi vurğulanıb.

Hesabat dövründə prokurorluq orqanları tərəfindən 1389 apellyasiya və 406 kassasiya protestləri verilib, 766 apellyasiya protesti və 74 kassasiya protestləri təmin olunmaqla nəticədə yol verilmiş qanun pozuntularının aradan qaldırılması təmin olunub.

Ötən il ərzində istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarətin səmərəliliyinin artırılması məqsədilə prosessual rəhbərlik və effektiv nəzarətin həyata keçirilməsini təmin edəcək mexanizmin təkmilləşdirilməsi üçün zəruri tədbirlər görülməklə cinayət işləri üzrə icraata xitam verilməsinə dair 953 qərar əsassız və qanunsuz hesab edilərək ləğv olunub.

2025-ci ildə prokurorluq orqanlarında cinayət təqibindən kənar icraatlarla əlaqədar inzibati xəta haqqında protokol tərtib etmək səlahiyyətinə malik qurumlarla işgüzar əlaqələrin qurulması təmin olunmaqla 3066 inzibati xəta haqqında iş üzrə icraatın başlanması haqqında qərar qəbul edilib.

Qeyd edilib ki, hesabat dövründə Baş Prokurorluğun “Çağrı Mərkəzi”nə daxil olmuş müraciətlərdən 28 min 183 müraciət üzrə vətəndaşlara onları maraqlandıran müvafiq hüquqi izahlar verilib, 4488 məlumat isə cinayət xarakterli olduğu üçün qeydə alınaraq araşdırılması aidiyyəti struktur qurumlara tapşırılıb və həmin məlumatlar üzrə cinayət işləri başlanıb, habelə müvafiq prokuror təsir aktları qəbul edilməklə zəruri tədbirlər görülüb.

Kollegiya iclasında qeyd olunub ki, ötən ildə xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi, fəaliyyətlərində qanunsuzluq hallarına və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol verən işçilərə münasibətdə tələbkarlıq artırılıb, aparılmış xidməti yoxlamalar nəticəsində müxtəlif xətalar törətdiklərinə görə 25 prokurorluq işçisi intizam məsuliyyətinə cəlb edilib ki, onlardan 1-nə irad tutulub, 13-nə töhmət və ya şiddətli töhmət elan edilib, 5 nəfər vəzifədən azad edilib, 6-sı isə prokurorluq orqanlarından xaric edilib.

Baş prokuror bildirib ki, 2025-ci ildə prokurorluq orqanları tərəfindən ölkəmizdə bir sıra beynəlxalq tədbirlərin keçirilməsi təşkil edilib. Belə ki, 2025-ci ilin mayın 20-23-də Birləşmiş Millətlər Təşkilatının Korrupsiyaya qarşı mübarizə aparan hüquq-mühafizə orqanlarının Qlobal Əməliyyatlar Şəbəkəsi (GlobE Network) çərçivəsində Altıncı Plenar İclasın Bakı şəhərində yüksək səviyyədə təşkil olunması həm ölkəmizin beynəlxalq arenada artan nüfuzuna, həm də Azərbaycan Prokurorluğunun beynəlxalq əməkdaşlıq sahəsində əldə etmiş olduğu müsbət nailiyyətlərə bariz nümunə hesab oluna bilər.

Vurğulanıb ki, 2025-ci ildə də vətəndaş müraciətlərinə baxılması və onların qəbulu işinin düzgün təşkili daim diqqətdə saxlanılıb.

Bu müddətdə Baş prokuror tərəfindən 26 şəhər və rayonlarda, o cümlədən Bakının rayonlarında 950-dən artıq vətəndaş qəbul edilməklə müraciətlərdə qaldırılan və bilavasitə prokurorluq orqanlarının səlahiyyətlərinə aid olan məsələlərin qanunauyğun həlli barədə əlaqədar struktur qurumların rəhbərlərinə və tabe prokurorlara müvafiq göstərişlər verilib,

2025-ci il ərzində Baş prokuror yanında Elmi-Məsləhət Şurasının fəaliyyəti yüksək qiymətləndirilməklə qanunvericiliyin inkişafı, hüquqi təcrübədə rast gəlinən ziddiyyətlərin həlli, eləcə də bu kimi digər əhəmiyyət kəsb edən sahələrdə Şura üzvləri tərəfindən göstərilmiş təşəbbüskarlıq xüsusi olaraq qeyd edilib.

Daha sonra Baş prokurorun birinci müavini Elçin Məmmədov, Baş prokurorun müavinləri Elmar Camalov və Heydər Məmmədov tərəfindən edilmiş çıxışlar zamanı hesabat dövründə cavabdeh olduğu sahələr üzrə görülmüş işlər, əldə olunmuş uğurlar və yol verilmiş nöqsanlar diqqətə çatdırılıb.

Kollegiya iclasına yekun vuran Kamran Əliyev qanunun aliliyinin təminatçısı qismində hər zaman əzmlə xidmət aparan prokurorluq əməkdaşlarının Prezident İlham Əliyevin rəhbərliyi altında icra edilən dövlət siyasətinin uğurla davam etdirilməsinin əsas təminatçılarından olmaqla, ölkədaxili ictimai-siyasi sabitliyə, ərazi bütövlüyü və suverenliyimizə qarşı yönələn istənilən cinayətkar ünsürə qarşı qətiyyətlə mübarizə aparacaqlarına, bu məqsədlə qanunla üzərlərinə qoyulmuş vəzifələrin layiqli icrası üçün bütün bilik və peşə bacarıqlarını səfərbər edəcəklərinə, cari ildə yeni uğur və nailiyyətlərə imza atacaqlarına əminliyini ifadə edib.

***XQ***

# Azərbaycan–Çin hərtərəfli əməkdaşlığı genişləndirilir



**Yanvarın 28-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Çin Xalq Respublikasına rəsmi səfəri çərçivəsində xarici işlər naziri Van İ ilə görüşüb.**

Görüşdə Azərbaycan ilə Çin arasında ikitərəfli və çoxtərəfli münasibətlərin cari vəziyyəti ilə inkişaf perspektivləri, eləcə də regional və beynəlxalq məsələlər müzakirə olunub. Nazirlər siyasi dialoqun yüksək səviyyədə olduğunu, 2025-ci ildə iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin qurulmasının əlaqələrin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinə töhfə verdiyini məmnunluqla qeyd ediblər. Azərbaycan Prezidentinin ötən ilin aprel ayında Çinə dövlət səfəri zamanı imzalanmış çoxsaylı müqavilələrin bir sıra istiqamətlərdə əməkdaşlığa əlavə təkan verdiyi vurğulanıb.

Tərəflər qarşılıqlı etimad və hörmətə əsaslanan əməkdaşlığın ticarət-iqtisadi, nəqliyyat-logistika, enerji, bərpaolunan enerji, sənaye, rəqəmsal transformasiya, kənd təsərrüfatı, humanitar və təhsil sahələrində daha da genişləndirilməsinin əhəmiyyətini vurğulayıblar. Orta Dəhliz, Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə görülən işlərdə birgə əməkdaşlıq təqdir olunub.

Görüşdə daha sonra qlobal və regional təhlükəsizlik məsələləri, Mərkəzi Asiya formatı çərçivəsində əməkdaşlıq planları nəzərdən keçirilib. Görüşdə, həmçinin postmünaqişə dövründə bərpa-quruculuq işləri və mina təhdidi barədə qarşı tərəfə məlumat verilib, minasızlaşdırma fəaliyyətində ANAMA-ya dəstəyə görə Çin tərəfinə təşəkkür ifadə olunub.

***XQ***

# Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası

**Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.**

İclasda Konstitusiyanın 80-ci maddəsi baxımından Cinayət Məcəlləsinin 14.2-ci maddəsi (az əhəmiyyətli əməllər) ilə 228.1-ci maddəsinin (qanunsuz silah və döyüş sursatı dövriyyəsi) birgə şərh edilməsinə dair Baş Prokurorluğun sorğusu üzrə qərar qəbul edilib.

Qərarda qeyd olunur ki, Cinayət Məcəlləsinin 14.2-ci maddəsinə əsasən, hansısa əməldə cinayətin formal əlamətləri olsa belə, əgər həmin əməl az əhəmiyyətlidirsə və cəmiyyət üçün real təhlükə yaratmırsa, həmin əməl cinayət hesab edilmir. Yəni şəxsiyyətə, cəmiyyətə və ya dövlətə zərər yetirməyən və ya belə zərər təhlükəsi olmayan əməllər cinayət məsuliyyəti yaratmır. Məhkəmə Qərarında vurğulayır ki, “az əhəmiyyətli əməl” dedikdə, ictimai təhlükəlilik xüsusiyyəti olmayan davranışlar nəzərdə tutulur və belə əməllər mahiyyətinə görə cinayət anlayışına daxil edilmir. Eyni zamanda, qeyd olunur ki, “az əhəmiyyətlilik” anlayışı qiymətləndirici xarakter daşıyır. Yəni hər bir konkret halda əməlin az əhəmiyyətli olub-olmamasını müəyyən etmək hüquq tətbiq edən orqanların – istintaq, prokurorluq və məhkəmələrin səlahiyyətindədir. Qiymətləndirmə apararkən işin bütün faktiki halları hərtərəfli araşdırılmalı, əməlin kimə, hansı obyektə yönəldiyi, hansı şəraitdə törədildiyi və şəxsin niyyəti nəzərə alınmalıdır.

Qərarda Cinayət Məcəlləsinin 228.1-ci maddəsinə də xüsusi diqqət yetirilir. Həmin maddəyə əsasən, qanunsuz olaraq odlu silahın, onun hissələrinin, döyüş sursatının, partlayıcı maddələrin və qurğuların əldə edilməsi, saxlanması, daşınması, başqasına verilməsi və ya gəzdirmə (yivsiz ov silahları və onların sursatları istisna olmaqla) cinayət məsuliyyətinə səbəb olur.

Konstitusiya Məhkəməsi qeyd edir ki, həmin maddə üzrə cinayət məsuliyyətinin yaranması üçün döyüş sursatının konkret sayına dair qanunda hər hansı minimum hədd müəyyən edilməyib. Bunun səbəbi ondan ibarətdir ki, döyüş sursatları müxtəlif təhlükəlilik dərəcəsinə malikdir və istifadəyə yararlı bir ədəd patronun belə insan həyatı və sağlamlığı üçün ciddi təhlükə yaratmaq potensialı mövcuddur. Məhkəmənin Plenumu belə hesab edir ki, “az əhəmiyyətlilik” xüsusiyyəti qiymətləndirici xarakter daşıdığından, Cinayət Məcəlləsinin 228.1-ci maddəsində göstərilən əməlin az əhəmiyyətli olub-olmaması hər bir işin faktiki hallarına əsasən hüquq tətbiqedən orqanlar tərəfindən müəyyən edilir. Bu zaman döyüş sursatının kəmiyyət göstəricisi (patronun sayı) yalnız hüquq pozuntusunun ictimai təhlükəliliyini müəyyənləşdirməyə imkan verən digər göstəricilərlə (motiv, məqsəd, əməlin törədildiyi məkan, zaman, şərait və s.) birlikdə qiymətləndirilməlidir.

***XQ***

# Dövlət Agentliyinin sədri vətəndaşlarla görüşüb



**Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin sədri Elnur Bağırov vətəndaşlarla növbəti görüş keçirib.**

Aidiyyəti struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilən görüşdə vətəndaşların dövlət satınalmalarının təşkili və satınalma müsabiqələrində iştirakla bağlı müraciətləri, o cümlədən müvafiq sahədə qanunvericiliyin təkmilləşdirilməsinə dair təklifləri dinlənilib. Qaldırılan məsələlərin operativ və qanunvericiliyin tələblərinə uyğun şəkildə həlli məqsədilə agentliyin müvafiq struktur bölmələrinə tapşırıqlar verilib.

Qeyd edək ki, vətəndaş müraciətlərinə baxılması işinin səmərəli təşkili məqsədilə agentliyin rəhbər vəzifəli şəxslərinin qəbul qrafiki rəsmi internet səhifəsində yerləşdirilib. Görüş qrafiki ilə tanış olmaq və görüşə yazılmaq üçün müvafiq keçiddən (https://competition.gov.az/az/page/muraciet/vetendaslarin-qebulu) istifadə edə bilərsiniz.

***XQ***

# ABŞ vitse-prezidentinin Qafqaz səfərinin gözləntiləri

**Birləşmiş Ştatların vitse-prezidenti Ceyms Devid Vensin Cənubi Qafqaza planlaşdırılan səfəri regionun geosiyasi statusunun Vaşinqton tərəfindən yenidən qiymətləndirildiyini göstərən strateji siqnaldır. Prezident Donald Trampın vasitəçiliyi ilə Azərbaycanla Ermənistan arasında sülh sazişinin paraflanmasından sonrakı mərhələdə bu region artıq "donmuş münaqişələr zonası" kimi deyil, logistika, enerji təhlükəsizliyi, normativ tranzit və böyük güclərarası rəqabətin kəsişmə məkanı kimi qəbul edilir. Məhz bu kontekstdə səfərin əsas məqsədi yeni regional nizamın formalaşmasına institusional təsir göstərməkdir.**



ABŞ-ın vitse-prezidenti Vens Vaşinqtonun yeni nəsil strateji düşüncə xəttini təmsil edən fiqurlardan biridir. Onun siyasi profili milli maraqların prioritetləşdirilməsi, resursların selektiv istifadəsi və regional risklərin idarəolunan çərçivədə saxlanılması yanaşmasına əsaslanır. Vensin siyasi baxışı ABŞ-ın qlobal rolunu universal normativ missiyadan daha çox funksional güc balansı və iqtisadi üstünlüklərin qorunması prizmasından şərh edir. Onun daxili siyasi platforması iqtisadi təhlükəsizlik, sənaye suverenliyi, texnoloji rəqabət və strateji infrastrukturun qorunması kimi mövzular üzərində formalaşmışdır. Qafqaza gözlənilən səfər Vensin siyasi portretinə tam uyğun gəlir. Region onun üçün qlobal iqtisadi rəqabətin kritik tranzit düyünüdür.

Ümumiyyətlə, qeyd etməliyik ki, sülh sazişindən sonrakı mərhələ Cənubi Qafqaz üçün bütövlükdə regional sistemin funksional məntiqinin dəyişməsidir. Uzun müddət regionun təhlükəsizlik arxitekturası eskalasiya riski, güc balansının kövrəkliyi və xarici aktorların müdaxilələri üzərində qurulmuşdu. Öncəki modeldə əsas prioritet müharibənin qarşısını almaq, status-kvonun qorunması və minimum sabitliyin saxlanılması idi. Lakin post-sülh konfiqurasiyasında təhlükəsizlik iqtisadi davamlılıq, siyasi legitimlik, institusional qarşılıqlı asılılıq və hüquqi normallaşma ilə ölçülən dinamik kateqoriyaya çevrilir.

Yeni mərhələdə regional gündəmin mərkəzində sabitliyin institusional əsaslar üzərində möhkəmləndirilməsi durur. Əsas məsələ dövlətlərarası münasibətlərin konfliktoloji məntiqdən çıxarılaraq müqavilə əsaslı davranış modellərinə keçirilməsidir. Kommunikasiya xətlərinin açılması bu baxımdan qarşılıqlı asılılıq mexanizmi kimi çıxış edir. Tranzit infrastrukturu nə qədər dərin institusional bağlar yaradırsa, münaqişəyə qayıdışın siyasi qiyməti bir o qədər yüksəlir.

Eyni zamanda, investisiya təhlükəsizliyi anlayışı regionun yeni siyasi kodunu müəyyənləşdirir. Postmünaqişə mərhələsində kapital axını siyasi etimad indikatorudur. Xarici investor üçün əsas risk artıq hərbi eskalasiya deyil, hüquqi mühitin proqnozlaşdırıla bilməsi, idarəetmənin şəffaflığı və uzunmüddətli öhdəliklərin qorunmasıdır. Suverenliklərin qarşılıqlı tanınmasının praktiki mexanizmləri isə post-sülh sistemin legitimlik sütununu təşkil edir.

Məhz bu transformasiya fonunda ABŞ üçün Cənubi Qafqaz Avrasiya geosisteminin funksional düyün nöqtəsinə çevrilir. Birinci strateji ölçü tranzit dəhlizlərinin təhlükəsizliyidir. Qlobal ticarət marşrutlarının fraqmentasiyası, dəniz yollarının geosiyasi risklərinin artması və enerji təchizat zəncirlərinin yenidən dizayn edilməsi fonunda Orta Dəhliz Qərb üçün alternativ strateji arteriya rolunu oynayır. ABŞ üçün burada əsas məsələ logistika təhlükəsizliyinin regional siyasi risklərdən izolyasiya olunmasıdır.

İkinci strateji ölçü Rusiya və İran təsirinin balanslaşdırılmasıdır. Post-sülh reallığında Moskvanın ənənəvi təhlükəsizlik monopoliyası zəifləyir, Tehran isə regionda tranzit və kommunikasiya layihələri üzərindən geoiqtisadi təsir imkanlarını genişləndirməyə çalışır. ABŞ-ın məqsədi birbaşa qarşıdurma yaratmaq deyil, regional aktorların manevr imkanlarını artırmaqla çoxqütblü balans mexanizmi formalaşdırmaqdır.

Üçüncü ölçü Qərb normativlərinin regional idarəetmə modellərinə inteqrasiyasıdır. Burada söhbət iqtisadi və inzibati standartların uyğunlaşdırılmasından gedir: investisiya mühiti, hüquqi təminatlar, tranzit qaydaları, rəqəmsal idarəetmə mexanizmləri. ABŞ vitse-prezidenti Vensin səfəri məhz bu üç vektorun eyni anda sinxronlaşdırılması cəhdi kimi qiymətləndirilə bilər.

Postmünaqişə mərhələsində Azərbaycanın strateji üstünlüyü beynəlxalq sistemdə davranış modelinin dəyişməsi və proqnozlaşdırıla bilən aktor statusunun möhkəmlənməsi ilə bağlıdır. Müasir beynəlxalq münasibətlərdə; davranışın ardıcıllığı, öhdəliklərin icrasında etibarlılıq və qərarvermə mexanizmlərinin rasional olması strateji çəkini müəyyən edən əsas amillərə çevrilib. Nəqliyyat və logistika layihələrinin ardıcıl və vaxtında icrası etimad kapitalının institusional ölçüsünü formalaşdırır. İnfrastruktur layihələrinin gecikməsi və ya siyasi manipulyasiyası regional tranzit sistemlərinin etibarlılığını sarsıdır.

Balanslaşdırılmış xarici siyasət xətti isə etimad faktorunun strateji ölçüsünü tamamlayır. Azərbaycan böyük güclər arasında kəskin bloklaşmaya qoşulmayan, lakin hər bir aktorla funksional əməkdaşlıq qurmağı bacaran davranış modeli formalaşdırmışdır. Bütün bu reallıqlar Vaşinqtonun regiona baxışında da keyfiyyət dəyişikliyi yaradıb.

Vaşinqtonun Cənubi Qafqaza yanaşmasının mərkəzində idarə olunan balans mexanizminin qurulması dayanır. Müasir beynəlxalq sistemdə birbaşa hegemonluq modeli həm iqtisadi baxımdan bahalı, həm də siyasi baxımdan yüksək risklidir. Xüsusilə geosiyasi həssas zonalarda sərt nəzarət strategiyası lokal müqaviməti gücləndirir və rəqib güclərin reaktiv davranışlarını stimullaşdırır.

Belə bir yanaşma ABŞ-ın Rusiya ilə açıq konfrontasiyadan şüurlu şəkildə yayınmasını izah edir. Moskva hələ də regionda tarixi təsir imkanlarını qoruyur və təhlükəsizlik arxitekturasında müəyyən institusional izlər saxlayır. Birbaşa qarşıdurma həm regional sabitliyi poza, həm də Qafqazı böyük güclər arasında toqquşma zonasına çevirə bilər. Vaşinqton üçün əsas məqsəd Rusiyanı regiondan sıxışdırmaq deyil, onun təsir imkanlarını struktur baxımından məhdudlaşdırmaqdır.

İran faktoruna münasibətdə ABŞ daha açıq balanslaşdırma xətti yürüdür. Tehran regionu sanksiya mühitindən çıxış kanalı və tranzit leverage məkanı kimi dəyərləndirir. ABŞ üçün əsas risk İranın regional logistika və enerji axınları üzərində normativ təsir imkanlarının genişlənməsidir. Bu səbəbdən Vaşinqton alternativ marşrutların funksionallığını artırmaqla İranın geoiqtisadi çəkisini dolayı yolla məhdudlaşdırmağa çalışır.

Türkiyə ilə koordinasiyanın dərinləşdirilməsi ABŞ-ın regional dizaynında mərkəzi elementlərdən biridir. Ankara həm NATO üzvü kimi institusional tərəfdaşdır, həm də Qafqaz, Orta Asiya və Yaxın Şərq arasında funksional körpü rolunu oynayır. ABŞ üçün Türkiyə ilə koordinasiya regional təşəbbüslərin legitimliyini artırır, eyni zamanda onların təhlükəsizlik risklərini amortizasiya edir.

Azərbaycanın etibarlı dayaq nöqtəsi kimi möhkəmləndirilməsi isə ABŞ-ın şəbəkə əsaslı strategiyasının praktiki dayağını təşkil edir. Bakı həm coğrafi mövqeyi, həm enerji və tranzit infrastrukturu, həm də balanslaşdırılmış diplomatiyası ilə regional sabitliyin əməliyyat təminatçısı rolunu oynayır. ABŞ üçün Azərbaycanla tərəfdaşlıq funksional əməkdaşlıq modelinə əsaslanır.

Ənənəvi hegemon modeldə güc mərkəzi qərarları özü verir, periferik aktorlar isə icraçı rolunda çıxış edir. Şəbəkə əsaslı regional idarəetmə modelində isə güc paylanmış şəkildə təşkil olunur. Qafqazda sabitlik təmin olunduqca, Vaşinqton resurslarını daha geniş geosiyasi prioritetlərə yönəldə bilir.

Son olaraq qeyd edək ki, ABŞ-ın vitse-prezidenti Vensin Qafqaza gözlənilən səfəri post-sülh Qafqazının beynəlxalq sistemdə hansı funksional rola malik olacağını müəyyənləşdirən strateji siyasi akt kimi qiymətləndirilə bilər. Səfər regionun artıq qlobal tranzit, enerji və normativ inteqrasiya platforması kimi "kodlaşdırılması" prosesinin institusional mərhələyə keçdiyini göstərir. Əgər TRIPP təşəbbüsünün mərhələləri koordinasiyalı şəkildə irəliləsə, Qafqaz post-münaqişə sabitliyi zonası olmaqdan çıxaraq, Avrasiya geosiyasətinin struktur dayaqlarından birinə çevrilə bilər. Azərbaycanın bu prosesdə tutduğu mövqe isə onun uzunmüddətli strateji çəkisini keyfiyyətcə yeni mərhələyə daşıyacaq.



*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Qlobal tranzitin yeni ünvanı: Azərbaycan–Türkiyə tərəfdaşlığı

**(əvvəli 1-ci səhifədə)**




İki qardaş ölkə arasındakı sıx əməkdaşlıq 2026-cı il yanvarın 27-də imzalanan yeni sənədlə növbəti inkişaf mərhələsinə qədəm qoyub. "Azərbaycan Dəmir Yolları" QSC və Türkiyə Dövlət Dəmir Yolları arasında imzalanmış Anlaşma Memorandumu dəmir yolu nəqliyyatı sahəsində köklü dəyişikliklərə səbəb olacaq. Yeni saziş təkcə mövcud xətlərin istismarını deyil, həm də infrastrukturun ən müasir texnoloji standartlara uyğun yenidən qurulmasını hədəfləyib.



Hədəflərin mərkəzində həm də Zəngəzur dəhlizi var. Bu dəhliz, sadəcə, logistik xətt deyil, Türkiyə ilə birbaşa dəmir yolu əlaqəsi yaratmaqla regionun geosiyasi simasını dəyişəcək güc mərkəzidir. Artıq Azərbaycan tərəfi Horadiz–Ağbənd xəttində işləri yekunlaşdırmaq üzrədir. Bu fəaliyyət həm də beynəlxalq aləmin, xüsusən də Avropa İttifaqının (Aİ) diqqət mərkəzində düşüb. Qərb Zəngəzur dəhlizinə önəm verir. Aİ-nin Ali komissarı Marta Kos 2025-ci ilin dekabrında Zəngəzur dəhlizi ilə bağlı Azərbaycanla danışıqların aparıldığını və layihənin TRİPP çərçivəsində nəzərdən keçirildiyini bildirib. Kosun sözlərinə görə, layihə tək bir dəmir yolu xəttindən kənara çıxır və daha geniş geosiyasi məkanı əhatə edir.

Aİ rəsmilərinə görə, TRIPP layihəsi Avropaya yeni tədarük yolları açan çoxşaxəli infrastrukturdur. Bu, həm də enerji və ticarət marşrutlarının şaxələndirilməsi baxımından Brüsselin prioritetlərinə uyğundur. Bundan başqa, Zəngəzur dəhlizi və TRIPP marşrutunun beynəlxalq maliyyə institutları tərəfindən dəstəklənməsi, layihəni regional çərçivədən çıxararaq qlobal ticarət qovşağı səviyyəsinə yüksəldib. Bu dəstək həm də "iqtisadi qalxan" rolunu oynayaraq dəhlizin təhlükəsizliyini qlobal təchizat zəncirinin etibarlılığı ilə birbaşa bağlayır.

Şübhəsiz ki, bu strateji əməkdaşlıq modeli Bakı–Ankara oxunun hərbi və diplomatik gücünü iqtisadi müstəvidə daha da möhkəmləndirir. İqtisadi maraqların Azərbaycanın suveren hüquqları ilə uzlaşdırılması regionda qarşılıqlı etimad mühiti yaradır və bütün aktorları əməkdaşlığa təşviq edir. Uzunmüddətli sabitlik və dayanıqlı inkişaf üçün sarsılmaz zəmin hazırlayır. Bu isə Azərbaycan və Türkiyə logistika infrastrukturunun inkişafı istiqamətində sıx əməkdaşlıq edərək limanların, logistika mərkəzlərinin və dəmir yolu terminallarının modernləşdirilməsini gündəmə gətirir. Azərbaycan və Türkiyənin dəmir yolları qurumlarının arasında imzalanmış Anlaşma Memorandumu da bu məqsədə xidmət edir. İkitərəfli əməkdaşlıqda Qars–İğdır–Naxçıvan dəmir yolu layihəsi də var. O, Zəngəzur dəhlizinin bir hissəsidir. Dəhliz təkcə Azərbaycanın iqtisadi strategiyasının deyil, həm də Cənubi Qafqazın gələcək inkişafında mühüm element kimi çıxış edir. Regional iqtisadiyyatların birləşdirici platformasına çevrilir.

Beləliklə, yaxın gələcəkdə infrastrukturun ən müasir texnoloji standartlara uyğun yenidən qurulması ilə yük və sərnişin qatarlarının Bakıdan birbaşa İstanbula yola düşməsi artıq sadəcə arzu deyil, reallaşmaqda olan dövlət strategiyasının bir hissəsidir. Bu möhtəşəm layihələr zənciri göstərir ki, Azərbaycan və Türkiyənin sarsılmaz birliyi təkcə iki ölkənin deyil, bütün Avrasiya qitəsinin iqtisadi gələcəyini polad relslər üzərində yenidən inşa edir.

Mövzu ilə bağlı **iqtisadçı alim Mahir Zeynalov** XQ-yə bildirdi ki, Azərbaycan



və Türkiyə arasında dəmir yolu əlaqələrinin inkişafı yalnız iki qardaş ölkənin logistik imkanlarını genişləndirmir, həm də Avrasiya məkanında sabitliyin və rifahın yeni modelini yaradır: "Bakı–Tbilisi–Qars xəttinin uğurlu istismarı, Zəngəzur dəhlizinin açılması istiqamətində atılan qətiyyətli addımlar və beynəlxalq maliyyə institutlarının bu prosesə cəlb edilməsi regionun iqtisadi təhlükəsizlik arxitekturasını yenidən qurur. Ticarət maneələrini aradan qaldıraraq Avropadan Çinə qədər uzanan nəhəng bir coğrafiyada dayanıqlı inkişaf üçün zəmin yaradır. Reallaşdırılan hər bir infrastruktur layihəsi Azərbaycan və Türkiyənin strateji müttəfiqliyini polad relslərlə daha da möhkəmləndirir, bölgəni qlobal iqtisadiyyatın keçilməz və mühüm qovşağına çevirir".

Ekspert qeyd etdi ki, əməkdaşlıq çərçivəsində Azərbaycanın ixrac potensialı genişlənəcək, məhsullar daha çevik və az xərclə Avropaya və Mərkəzi Asiya bazarlarına çatdırılacaq: "Bunun nəticəsində Azərbaycanın ixracda rəqabət qabiliyyəti artacaq. Türkiyənin isə Zəngəzur dəhlizi vasitəsilə Mərkəzi Asiya və Azərbaycanla daha sıx inteqrasiyası, eyni zamanda, Avropa və Asiya bazarlarına daha sürətli çıxış əldə etməsi mümkün olacaq. Bu da Türkiyənin qlobal logistika və ticarət xəritəsində güclü mövqe tutmasına şərait yaradır.

Bundan əlavə, layihə regional sabitliyi və iqtisadi əməkdaşlığı da təşviq edir, enerji və yükdaşımalarında rəqabət qabiliyyətini artıraraq bütün region üçün iqtisadi səmərəliliyi yüksəldəcək".

M.Zeynalovun sözlərinə görə, Azərbaycan və Türkiyə arasında dəmir yolu əlaqələrinin inkişafı yalnız iki qardaş ölkənin logistik imkanlarını genişləndirmir, həm də bütün Avrasiya məkanında sabitliyin və rifahın yeni modelini yaradır: "Qazaxıstan, Özbəkistan və Türkmənistan üçün bu xətt Avropa bazarlarına daha sabit və qısa marşrut deməkdir. Xüsusilə son illər qlobal geoiqtisadi mühitdə baş verən dəyişikliklər, Rusiya–Ukrayna müharibəsi və tədarük zəncirindəki qırılmalar fonunda Zəngəzur dəhlizi alternativ və etibarlı marşrut kimi logistik risklərin diversifikasiyasını təmin edəcək. Mövcud marşrutlara alternativ yaratmaqla logistik inhisarları zəiflədəcək, regional nəqliyyat sisteminin davamlılığını artıran strateji infrastruktur elementi olacaq.

Bu ölkələr öz məhsullarını daha sərfəli qiymətlərlə Avropa bazarlarına çıxara biləcəklər. Bəli, bu yol, sadəcə, fiziki yol deyil, iqtisadi dəyərlər, etibar və sabitliyin özülüdür. Ümumiyyətlə, bu layihələrin həyata keçirilməsi Azərbaycan, Türkiyə, eləcə də region ölkələrinin iqtisadiyyatını gücləndirəcək".

Beləliklə, reallaşdırılan hər bir infrastruktur layihəsi Azərbaycan və Türkiyənin strateji müttəfiqliyini polad relslərlə daha da möhkəmləndirir, bölgəni qlobal iqtisadiyyatın keçilməz və mühüm qovşağına çevirir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# "TDT+" tarixi zərurətə çevrilir

## *Bu strategiya özündə yeni infrastrukturun özəl xüsusiyyətlərini ehtiva edir*

**Dünən utopiya kimi görünən ideyanın bu gün reallaşması heç də təsadüf sayıla bilməz. Zaman və dəyişən reallıq ən ağlasığmaz layihələrin həyata keçməsini şərtləndirən amillərdir.**



"Atlantika Şurası Ermənistanın Türk dünyasına inteqrasiya olması üçün çalışır. 2025-ci ilin noyabrında Ermənistanın Türk Dövlətləri Təşkilatına (TDT) daxil olmasını təklif edən Qərb analitiklərinin "işıqlı zehnində" yaranan "parlaq fikirlər"dən danışmaq heç də yersiz görünməməlidir". Amerikalı tanınmış ekspert Brianna Todd məqaləsində yer alan bu fikirlər maraqlı mühakimələrə yol açır. Todd daha sonra yazır: "Ermənistan da türkdilli dünyaya daxil olmalıdır". Onu bu qənaətə gəlməyə sövq edən əsas amil ondan ibarətdir ki, rəsmi Ankara Ermənistana TDT-yə qoşulmağı təklif etməlidir. Müəllifin bu mülahizəsinə erməni jurnalist Sevak Akopyan sosial platformadakı paylaşımında qarşı çıxsa da, bu ideyaya pessimist yanaşsa da, sonda o da bu planın gerçəkləşəcəyinə şübhə etmədiyini yazıb: "Ermənistan hökumətinin Qərbyönümlü siyasəti onu gec-tez Türkiyə istiqamətinə aparacaq. Aydındır ki, Qərbin qurduğu pantürklük siyasəti (?) həm də Rusiyaya qarşı yönəlib. Buna görə də hələ də kiminsə sualları və şübhələri qalırsa, baş verənləri və səbəblərini anlamağa çalışmalıdır".

Akopyanın düzgün vurğuladığı kimi, burada söhbət ilk növbədə səbəb(lər)in törətdiyi nəticələrdən gedir. Brianna Todd Atlantika Şurasında Ermənistanın etnik amil üzərində birləşmiş təşkilat olaraq TDT-yə inteqrasiyasını "itkin element" kimi konseptual olaraq əsaslandırır. Müəllib hesab edir ki, indi Atlantika Şurasının məqsədi TRIPP (Zəngəzur dəhlizi) vasitəsilə bu yeni mexanizmi gündəmə gətirməkdir.

Bəs, Atlantika Şurası yeni inteqrasiyanın mənzərəsini necə görür və bura konkret nələri əlavə edir? Toddinin məqaləsində oxuyuruq: "Əhalinin iqtisadi rifahı". Məqalə müəllifi açıq şəkildə etiraf edir ki, TDT-yə inteqrasiya artıq başlayıb: "Azərbaycan öz ərazisindən Ermənistana taxıl və yanacaq daşınmasına şərait yaratmağa başlayıb. Bu isə daxili bazarda qiymətlərin 15 faiz aşağı salıb".

Amerikalı ekspertin yazdıqlarına onu əlavə etməyi zəruri sayırıq ki, bölgədə və qlobal miqyasda yaranmış reallıq fonunda Türk Dövlətləri Təşkilatı yalnız ortaq etnik və mədəni köklərə əsaslanan birlik modeli kimi qəbul olunmamalıdır. TDT həm də siyasi suverenliklərin sinxronlaşdırıldığı, iqtisadi sinerji yaradıldığı və ortaq təhlükəsizlik müstəvisində strateji koordinasiyanın qurulduğu çoxölçülü platforma kimi ön plana çıxır. Toddinin yazdığı kimi, burada diqqət yalnız Ermənistana, onun TDT-yə üzv olub-olmayacağı məsələsinə fokuslanmamalıdır. Çünki bu təşkilat özündə artıq yalnız etnik-mədəni birliyi deyil, həm də qlobal geosiyasi aktor kimi formalaşmaqda olan strateji müttəfiqlik modelini ehtiva edir.

Oxuculara xatırladaq ki, Türk Dövlətləri Təşkilatının Qəbələdə keçirilən 12-ci Zirvə Görüşündə "TDT+" formatının təsis edilməsi haqqında qərar imzalanıb. Yəni bu o deməkdir ki, "TDT+" formatı sayəsində türkdilli olmayan başqa dövlətlərin də təşkilata qoşulması gözlənilədir. Əlbəttə, bu zaman konkret olaraq hansı ölkələrin bu strukturda yer ala biləcəyi maraq doğurur. Bu barədə rəylərini və proqnozlarını bölüşən bəzi ekspertlər hətta Rusiyanın bu təşkilatda müşahidəçi statusu almaq istəyini vurğulayırlar. "TDT+" strukturunun yaradılması digər dövlətlərin bu prosesə daha rahat qoşulmasına imkan yaradacaq. Belə olan halda həm əməkdaşlığın coğrafiyası genişlənəcək, həm də iqtisadi bazarı böyüyəcək. Nəticədə, təşkilatın bütün üzvləri üçün qarşılıqlı mənfəət formalaşacaq. Avropa İttifaqının Cənubi Qafqaz və Mərkəzi Asiyada fəallığını artırması danılmaz həqiqətdir. Bu amilin özü TDT-yə olan marağın daha da güclənəcəyini və onun coğrafiyasının genişlənəcəyini proqnozlaşdırmağa əsas verir.

Bəli, TDT hələlik yalnız türkdilli dövlətləri birləşdirsə də, mahiyyət etibarilə Türk dünyasına yaxın, onunla eyni strateji istiqaməti izləyən ölkələrin də bu formata daxil olması istisna olunmur. Bu kontekstdən yanaşıldıqda Tacikistan və Pakistan kimi dövlətlərin Türk dünyasına yaxınlığını qeyd etməliyik. Yaxın gələcəkdə bu ölkələrin "TDT+" formatına daxil olmaları ehtimalı həqiqət payından heç də xali deyil. Əslində, "TDT+" ideyası məhz bu məqsədlə irəli sürülüb. Aydın məsələdir ki, ilkin olaraq TDT regional əməkdaşlıq təşkilatı kimi düşünülmüşdü. Burada iştirak edən dövlətlərin müəyyənləşməsi etnik və etnoqrafik xüsusiyyətlərə görə aparılmışdı. Amma yazımızın əvvəlində qeyd etdiyimiz kimi, zaman və dəyişən reallıq yeni, müasir narrativləri gündəmə gətirir. Məhz bu kontekstdən çıxış edərək birmənalı şəkildə və əminliklə deyə bilərik ki, "TDT+" ideyası zamanın və reallığın tələbi ilə zərurətə çevriləcək.

***İ.HƏSƏNQALA***
***XQ***

# Paşinyanın ordu günü etirafı keçmişə ittiham, gələcəyə mesajdır

*(əvvəli 1-ci səhifədə)*

Baş nazir hesab edir ki, yaranmış kritik vəziyyəti aradan qaldırmağa iki "qətiyyətli hadisə" kömək edib. Bunlardan birincisi 2022-ci il oktyabrın 6-da imzalanmış Praqa Bəyannaməsi olub. Həmin sənəddə Ermənistan Qarabağın separatçı xuntanın hələ də nəzarətində olan hissəsi də daxil olmaqla Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan edib. İkinci hadisə isə Ermənistanın KTMT-də üzvlüyünün dondurulması olub. Paşinyan vurğulayıb ki, İrəvan bu strategiyanı davam etdirəcək: Ermənistan silahlı qüvvələrinin ölkə hüdudlarından kənarda heç bir vəzifəsi yoxdur və olmayacaq. Yeganə istisna beynəlxalq müqavilələrə uyğun olaraq sülhməramlı missiyalarda iştirakdır.

Azərbaycan tərəfindən "işğal edildiyi" iddia olunan Ermənistan əraziləri mövzusuna toxunan Paşinyan əvvəllər dəfələrlə səsləndirdiyi fikri təkrarlayaraq bildirib ki, bu məsələ sərhədlərin delimitasiyası və demarkasiyası nəticəsində həll olunacaq. O, həmçinin bəyan edib ki, Ermənistan müharibəyə hazırlaşmır, çünki müharibə olmayacaq: "İrəvanla Bakı arasında sülh artıq bərqərar olub və bu sülh təhlükəsizliyin ən etibarlı təminatıdır".

Qeyd etmək lazımdır ki, N.Paşinyan ənənəvi olaraq ordu günündən siyasi mesajlar vermək üçün istifadə edir və bu il də istisna olmadı. Onun yenidən KTMT-ni hədəfə alması və 2022-ci ilin sentyabr hadisələri zamanı təşkilatın Ermənistana dəstək göstərmədiyini iddia etməsi həm faktlar, həm də onun son illərdə səsləndirdiyi bəyanatlarla müqayisədə müəyyən qədər ziddiyyətli görünür. Çünki Ermənistan tərəfi 2022-ci il sentyabrın 12–14-də baş vermiş toqquşmaları "Azərbaycanın Ermənistana qarşı hücumu" kimi təqdim etməyə çalışsa da, reallıq tamamilə fərqli idi. İkinci Qarabağ müharibəsinin başa çatmasını rəsmiləşdirən 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatdan sonra qeydə alınmış ən böyük silahlı qarşıdurma Ermənistan silahlı qüvvələrinin Daşkəsən, Kəlbəcər və Laçın rayonları istiqamətində genişmiqyaslı təxribatları fonunda baş vermişdi. Ermənistan bölmələri Azərbaycan Ordusunun mövqeləri ilə təchizat yolları arasındakı əraziləri minalamış, bu isə birbaşa hərbi təhlükə yaratmışdı. Azərbaycan Ordusu bu hərəkətlərin qarşısını almaq üçün tədbirlər görməyə məcbur qaldı və nəticədə qarşıdurma yaşandı.

Ən vacib məqam ondan ibarətdir ki, həmin döyüşlər Azərbaycanın dünya birliyi tərəfindən tanınmış suveren ərazilərində baş verib. Bu halda KTMT-nin prosesə cəlb olunması nə hüquqi, nə də siyasi baxımdan əsaslı idi. Əgər Paşinyanın iddia etdiyi kimi, Azərbaycan Ordusu Ermənistanın suveren ərazilərinə hücum etsəydi, o zaman



KTMT çərçivəsində müzakirələr aparılması mümkün olardı. Lakin faktiki vəziyyət bunu təsdiqləmir. Buna baxmayaraq, Paşinyan hələ də KTMT-ni təqsirləndirməklə baş vermiş hadisənin məsuliyyəti üzərindən atmağa çalışır. Baş nazirin çıxışında diqqət çəkən digər ziddiyyət onun silahlanma ilə bağlı söylədikləridir. Paşinyan etiraf edir ki, uzun illər Ermənistan silah ala bilməyib, çünki tərəfdaşlar bu silahların Qarabağda yerləşdiriləcəyindən və ya KTMT-nin nəzarətinə keçəcəyindən ehtiyat ediblər. Bu etiraf əslində onu göstərir ki, rəsmi İrəvan illər boyu öz üzərinə götürdüyü öhdəliklərə sadiq olmayıb və tərəfdaşların etimadını itirib. Belə bir vəziyyətdə KTMT-ni birtərəfli qaydada təqsirləndirmək də məntiqli görünmür.

Paşinyan Praqa Bəyannaməsini və KTMT-də üzvlüyün dondurulmasını böhrandan çıxış yolu kimi təqdim edir. Maraqlıdır ki, məhz Azərbaycanın ərazi bütövlüyünün tanınmasından sonra bölgədə vəziyyət mərhələli şəkildə sabitləşməyə başladı. Bu isə onu göstərir ki, Paşinyanın sülh gündəmini qəbul etməsi könüllü siyasi seçimdən çox, Azərbaycan Ordusunun İkinci Qarabağ müharibəsindən ta antiterror tədbirləri də daxil olmaqla 2023-ci ilin sentyabrınadək apardığı əməliyyatların yaratdığı reallıqların nəticəsi idi. Onun "Ermənistan silahlı qüvvələrinin ölkə hüdudlarından kənarda heç bir vəzifəsi yoxdur və olmayacaq" fikri isə İrəvanın təhlükəsizlik siyasətində yanaşma dəyişikliyini əks etdirir. Baş nazir faktiki olaraq etiraf edir ki, ölkə uzun illər regional reallıqlara uyğun olan hərbi doktrina formalaşdıra bilməyib. Silahlı qüvvələrin yalnız ölkə hüdudları daxilində fəaliyyət göstərəcəyi barədə bəyanat əvvəlki illərdə aparılan avantürist siyasətdən geri çəkilmə kimi görünür. Bu yanaşma, eyni zamanda, hərbi ritorikadan tam imtina edildiyini də dolayısı ilə təsdiqləyir. Paşinyan bununla beynəlxalq tərəfdaşlara Ermənistanın gələcəkdə bölgədə gərginlik yaratmaq niyyətində olmadığını göstərməyə çalışır. Digər tərəfdən, sülhməramlı missiyalarla bağlı istisna İrəvanın Qərb strukturları ilə əməkdaşlıq kanallarını açıq saxlamaq istəyindən xəbər verir.

Bu gün Paşinyan bir tərəfdən müharibə olmayacağını, sülhün ən etibarlı təhlükəsizlik zəmanəti olduğunu deyir, digər tərəfdən isə hələ də keçmiş müttəfiqləri ilə açıq qarşıdurma ritorikasını davam etdirir. Halbuki sülhə gedən yol ziddiyyətli açıqlamalarla deyil, faktların qəbul edilməsi və məsuliyyətli siyasətlə mümkündür. Ermənistanın təhlükəsizliyi üçün real təminat xarici havadarlara ümid bağlamaq yox, qonşularla normal münasibətlər qurmaqdır. Paşinyanın əsas problemi isə ondan ibarətdir ki, o, bu həqiqəti çox gec qəbul etsə də, hələ də bunu açıq şəkildə etiraf etməkdən çəkinir.

Mövzu ilə bağlı **politoloq Ramiyə Məmmədova** XQ-yə açıqlamasında Paşinyanın ordu günü münasibətilə səsləndirdiyi fikirlərin birmənalı olmadığını bildirdi. Onun sözlərinə görə baş nazir KTMT-ni hədəfə almaqla həm daxili narazılığı yumşaltmağa, həm də keçmiş hərbi uğursuzluqlara görə məsuliyyəti üzərindən atmağa çalışır: "2022-ci ilin sentyabr toqquşmaları Ermənistan rəhbərliyinin yanlış hesablamalarının nəticəsi idi və bu hadisələri hansısa xarici təşkilatın üzərinə yıxmaq reallığı dəyişmir. Digər tərəfdən İrəvan uzun müddət təhlükəsizlik məsələlərində müttəfiqlərindən fərqli gözləntilər formalaşdırıb".

Ekspert onu da bildirdi ki, Paşinyanın çıxışı bir qədər ziddiyyətlidir: "O, bir tərəfdən sülhün bərqərar olduğunu deyir, digər tərəfdən hələ də qarşıdurma ritorikası saxlanılır. Ümumən, Paşinyanın siyasəti hələ də axtarış mərhələsindədir və aydın strateji çərçivə formalaşmayıb".

***Səxavət HƏMİD***
***XQ***

**"İt motaldan əl çəkdi, motal itdən əl çəkmədi". Bu deyim Fransanın "Qarabağ sevdalılarının", sanki, əyinlərinə biçilib. Onlar "fəallıqlarını" qoruyurlar. Amma məsələ yalnız bunda deyil. Yazımızda daha vacib məqamın üzərinə gələcəyik. Hələlik isə mövzuya keçək.**

# Erməni "səslərinin xatırlanması" – sənət sülhü nişan alır

## *Yaxud fransız ermənipərəstliyinin növbəti saxtakarlığı*

Deməli, Fransadakı "Voices of Hope" fondu və ABŞ-ın "All Prime Group" şirkəti "Səsini xatırlayıram" adlı sənədli filmi ərsəyə gətiriblər. Film "Qarabağ ermənilərinin zorla deportasiyası" barədədir. Fransanın müxtəlif bölgələrində filmin təqdimatı keçirilib. Üstəlik, Parisdəki təqdimatdan sonra şəhərin vitse-meri Arno Nqaça bildirib ki, təmsil olunduğu qurumun divarlarına "Bakıda saxlanılan erməni məhbusların" fotoları vurulacaq.

Şübhəsiz, "Səsini xatırlayıram" kimi ekran əsərlərinin istehsalı Azərbaycan–Ermənistan sülh prosesinə zərbə vurmaqdan başqa bir şey deyil. Onu da deyək ki, sülhə maneçilik törədənlər Bakı–İrəvan münasibətlərindəki hazırkı müsbət dinamikanı, o cümlədən, Azərbaycan dövlətinin humanizm qarşılanmamalıdır. Hərçənd, Dardelenin Azərbaycan və Türkiyə ilə yanaşı, ABŞ-ın bostanına daş atacaq qədər azğınlaşdığını da deməliyik. Hər halda, onun dilə gətirdiklərindən gəlinən qənaət bunu söyləməyə əsas verir. Sən demə, Bakı və Ankara tətbiq etdiyi siyasətlə Ermənistanı kiçiltməyə çalışırmış və TRIPP layihəsi də buna xidmətdir. Təsəvvür edin, bir yanda rəsmi İrəvanın təmsilçiləri, o cümlədən, baş nazir Nikol Paşinyan, az qala, bütün yerli və beynəlxalq platformalarda TRIPP-in ölkələri üçün faydalarından söz açır, Fransada bir vitse-mer bildirir ki, layihə Ermənistandan ərazi qoparmağa hesablanıb. Göründüyü kimi, ortada absurd teatrı var və bu teatrın "Qarabağdakı etnik təmizləməyə görə" dünyanı ittiham motivi Dardelenin dili




nümayiş etdirirərək bəzi erməni əsilli şəxsləri Ermənistana təhvil verdiyini görürlər. Beləleri "Bakıda saxlanılan erməni məhbuslar" oyununun başa çatma ehtimalından duyuq düşürlər. Ona görə tələsik şəkildə film çəkib təmtəraqlı təqdimatlar düzənləyirlər. Mümkündür ki, öz aləmlərində Azərbaycan tərəfində qıcıq yaradacaqlarını, barış yolundakı müsbət dinamikanı pozacaqlarını və təsəvvürlərindəki gərgin ab-havanı qoruyacaqlarını düşünürlər.

Baxın, rəsmi İrəvanın təmsilçiləri çıxışlarında Qarabağı Azərbaycan ərazisi adlandırır, saxta erməni sevdalıları isə hələ də köhnə sərsəmləmələrində qalıblar. Dediyimiz kimi, motal itdən əl çəkmir. Amma bir halda ki söhbət sənət, konkret olaraq, kinematoqrafiya müstəvisində anti-Azərbaycan təbliğatının aparılmasından, əsl həqiqətlərin həyasızcasına inkarından, reallıqların izinin-tozunun itirilməsindən, beynəlxalq ictimaiyyəti tamamilə yanlış yönə sürükləmək cəhdlərindən gedir, burada bizim üçün ibrət payının olduğunu bildirməliyik. Girişdə vurğuladığımız vacib məqam budur və onun barəsində sonda söz açacağıq.

Əlqərəz, "Səsini xatırlayıram" sənədli filminin təqdimatdan sonra Parisin vitse-meri A.Nqaça deyib ki, "Bakıda saxlanılan erməni məhbusların" fotoları şəhər meriyasının divarlarına vurulanda çoxlu insanın həmin mərasimdə iştirakına və bu yolla "əsirlərin" səslərinin dünyaya çatdırılacağına ümid bəsləyir. Sanki onun təmsil olunduğu qurumun binası dünyanın mərkəzi imiş. Amma Nqaçanın sərsəmləmələri bununla məhdudlaşmayıb. O, özünün saxta sentimentalizminə güc verərək, həmçinin, Fransadakı erməni lobbi və diaspor təşkilatlarından aldığı rüşvətdən "ilhamlanaraq" dünyanı ittiham etməyə qalxıb. Guya, Azərbaycan neftinə görə beynəlxalq ictimaiyyət Qarabağda yaşanan etnik təmizləməyə göz yumubmuş. Necə deyərlər, köhnə hamam, köhnə tas.

Qeyd edək ki, "Səsini xatırlayıram" sənədli filmini ərsəyə gətirən qurumlardan biri – ABŞ-ın "All Prime Group" şirkətinin həmtəsisçisi Arşak Karapetyan adlı ermənidir. Bu şəxs təqdimat mərasimində iştirakla kifayətlənməyib, eyni zamanda, mer Nqaça kimi, sentimental yüklü bəyanat səsləndirib. Onun həyasızcasına nələri dilə gətirdiyini bir kənara qoyaraq deyək ki, "Səsini xatırlayıram" paytaxtla yanaşı, Fransanın digər şəhəri Tuluzada da nümayiş etdirilib. Nümayişin təşəbbüskarı isə Tuluza Erməni Assosiasiyası olub. Deməli, Tuluza meriyası təmsilçisinin, yəni, mer müavini Jan-Klod Dardelenin də Paris meriyasının nümayəndəsi kimi çərənləməsi təəccüblü ilə də ifadə olunub. Yəni, o, həyasızlıq baxımından parisli həmkarından heç nə ilə fərqlənməyib. Görünür, Dardelenin Fransadakı erməni lobbisi tərəfindən aldığı rüşvət məbləği Nqaçanın aldığından heç də az deyil.

Sonda onu da bildirək ki, bu gün Azərbaycanla sülhdən danışan Ermənistan rəsmiləri dövlət səviyyəsində ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə etinasız yanaşmanın erməni seqmentinə aid məsələlərə ciddi reaksiya verməlidirlər. Yəni yalnız sülh və barış zəngulələri vurmaq yetərli deyil. Fransa Ermənistanla çox yaxın münasibətlərə malik ölkədir və Paşinyan administrasiyası bu ölkədə anti-Azərbaycan libasına bürünmüş bütün haqsız yanaşmalara qarşı kəskin mövqe bildirməlidir. Amma bunu görmürük.

İndiki halda Ermənistan hakimiyyəti Fransadakı anti-Azərbaycan yönümlü təbliğata həm də o səbəbdən kəskin mövqe bildirməlidir ki, sənət, o cümlədən filmoqrafiya milyonlara xitab edən müstəvidir. Mövcud müstəvidə saxtakarlıq yayılırsa, çoxlu sayda insanın yanlış istiqamətə yönləndirilməsi kimi xoşagəlməzlik var. Gerisi isə məlumdur.

İndi isə ən sonda açıqlayacağımızı dediyimiz ibrət məqamına keçid alaq. Bəli, Azərbaycan dövləti diplomatik platformalarda Ermənistanın yaydığı yalanları, habelə, Qarabağ ermənilərinə qarşı etnik təmizləmə cəfəngiyyatını, "Bakıda saxlanılan erməni məhbuslar" nağılını ifşa edib, ölkəmizlə, Qarabağ həqiqətləri ilə bağlı obyektiv ictimai rəy formalaşdırmağa müvəffəq olub. Xüsusən, 44 günlük müharibə müddətində və 2023-cü ilin lokal xarakterli antiterror tədbirləri zamanı dünyanı başına götürmüş anti-Azərbaycan yönümlü təbliğatların miqyasının böyüklüyü fonunda indiki durum müstəsna uğur sayılmalıdır. Hərb meydanındakı zəfərimizi diplomatik yollarla heçə endirməyə çalışanların "canfəşanlıqlarını" az görməmişik.

Bununla belə, sənət müstəvisinin ayrıca dünya olduğunu vurğulamalıyıq. Həm də deyirik ki, hər günü bir filmə bərabər 44 günlük Vətən müharibəsinin ayrı-ayrı məqamlarına dair beynəlxalq auditoriyalara çıxara biləcəyimiz, dünyanın və Avropanın sadə insanlarının düşüncələrinə təsir göstərmək potensialını daşıyan tutarlı ekran və efir işimiz hələ yoxdur. Səslərinin xatırlanması bəşəri cinayət olan şəxslər barədə sənədli film məhz bu yoxluq şəraitində meydana çıxır. Özü də təkcə meydana çıxmır, eyni zamanda, boşluğu doldurur. Ən pisi də budur…

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Yaxın Şərqə açılan yeni əməkdaşlıq qapısı

## *Azərbaycan – İordaniya münasibətləri yeni mərhələyə qədəm qoyub*



**Yanvarın 27-də Azərbaycanın İordaniyadakı səfiri Şahin Abdullayev bu ölkənin Baş nazirinin müavini və xarici işlər naziri Ayman əs-Səfadi ilə ikitərəfli əlaqələrin gələcək perspektivlərini müzakirə edib. Onu da qeyd edək ki, Prezident İlham Əliyev 6 yanvar tarixli fərmanı ilə 2025–2027-ci illər üçün Azərbaycan–İordaniya İcraedici Əməkdaşlıq Proqramını təsdiqləyib.**

Sənəd ötən ilin noyabrında Bakıda keçirilən 4-cü Hökumətlərarası Komissiyanın iclasında imzalanmış və elm, təhsil, mədəniyyət, gənclər, idman, arxeologiya, səhiyyə və media sahələrini əhatə edir. İclasda, həmçinin gömrük sahəsində qarşılıqlı inzibati yardım haqqında saziş, eləcə də turizm və sahibkarlığın inkişafına yönəlik bir sıra sənədlər imzalanıb. Bu razılaşmalar iki ölkə arasında iqtisadi əlaqələrin institusional əsaslarını möhkəmləndirməklə yanaşı, praktiki əməkdaşlıq üçün yeni mexanizmlər formalaşdırır.

İki ölkə arasında enerji sektoru üzrə əməkdaşlığının genişləndirilməsi də gündəmdədir. Yanvarın əvvəlində İordaniyanın energetika və faydalı qazıntılar naziri Saleh Ali əl-Xarabşeh və səfir Şahin Abdullayev bu sahəyə dair layihələri müzakirə ediblər. Eyni zamanda, rəqəmsal iqtisadiyyat və innovasiya sahəsində əməkdaşlıq imkanları da müzakirə olunub.

Hərbi-siyasi istiqamətdə də əlaqələr möhkəmlənməkdədir. 2024-cü ilin aprelində Azərbaycanın Müdafiə naziri Zakir Həsənov ilə İordaniya Silahlı Qüvvələrinin Birləşmiş Qərargah Rəisləri Komitəsinin sədri general-mayor Yusif Əhməd Al-Hnaiti arasında Ammanda keçirilən görüşdə hərbi əlaqələr müzakirə edilib. Görüşdə vurğulanıb ki, Azərbaycan–İordaniya hərbi əməkdaşlığı nümunəvidir və bu sahədə bir-birinin təcrübəsindən geniş istifadə edilir. Tərəflər terrorizmə qarşı mübarizədə məsləhətləşmələrin davam etdirilməsi, birgə təlimlər keçirmək və hərbi konseptlərin uyğunlaşdırılması barədə razılığa gəliblər.

Azərbaycan–İordaniya əməkdaşlığının genişlənməsi ölkəmizə bir sıra strateji üstünlüklər vəd edir: yeni sazişlər ticarət və investisiya əlaqələrinin artmasına şərait yaradır, enerji, informasiya texnologiyaları və turizm sahələrində sahibkarlıq imkanlarını genişləndirərək qeyri-neft ixracının şaxələndirilməsinə töhfə verir. İordaniya Haşimilər Krallığının Kralı II Abdullah ibn Al Hüseynin mənsub olduğu Haşimilər sülaləsi İslam dünyasında xüsusi çəkiyə malikdir. Bu nüfuz Azərbaycan üçün beynəlxalq arenada (BMT, İslam Əməkdaşlıq Təşkilatı) mühüm dəstək deməkdir. Həmçinin Prezident İlham Əliyev və Kral II Abdullah arasındakı illərə dayanan şəxsi dostluq və qarşılıqlı etimad əməkdaşlığı strateji səviyyəyə qaldıran əsas amildir. İordaniyanın Azərbaycanın ərazi bütövlüyünü hər zaman qətiyyətlə müdafiə etməsi bu dostluğun real təcəssümüdür.

Beləliklə, rəsmi İordaniya ilə strateji əməkdaşlığın genişləndirilməsi Azərbaycana həm iqtisadi, həm siyasi, həm də təhlükəsizlik sahələrində faydalar gətirə bilər. Rəsmi Bakının Yaxın Şərqdəki müstəqil və balanslaşdırılmış siyasəti bu cür əməkdaşlığı daha da əlverişli edir. Yeni imzalanan proqramlar və sənədlər göstərir ki, tərəflər qarşılıqlı maraqları birgə həyata keçirmək niyyətindədirlər. Gələcəkdə bu əməkdaşlıq regional sabitliyi gücləndirə, iqtisadi inteqrasiyanı dərinləşdirə və hər iki ölkənin inkişafına töhfə verə bilər.

***Tacir SADIQOV***
***XQ***

### *Ekspert rəyi*



**Ceyhun MƏMMƏDOV,**
**Milli Məclisin deputatı, Azərbaycan–İordaniya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü**

Öncə qeyd etmək lazımdır ki, qarşılıqlı görüşlərin keçirilməsi olduqca əhəmiyyətlidir. Çünki belə təmaslar ölkələrimiz arasında münasibətlərin daha da möhkəmlənməsinə töhfə verir. Bildiyiniz kimi, bu gün Azərbaycanla İordaniya arasında müxtəlif sahələr üzrə əməkdaşlıq və davamlı təmaslar mövcuddur. İki ölkənin liderləri arasında da qarşılıqlı dostluq münasibətləri formalaşıb. Müxtəlif illərdə İordaniya prezidentinin Azərbaycana rəsmi səfərləri həyata keçirilib. Parlament sədrləri və digər yüksəksəviyyəli nümayəndə heyətləri qarşılıqlı səfərlərdə olublar.

Ümumilikdə, Azərbaycanın xarici siyasətində ərəb ölkələri ilə münasibətlərin inkişafı prioritet istiqamətlərdən biridir və bu əlaqələrin dərinləşdirilməsi bizim üçün xüsusi əhəmiyyət daşıyır. Azərbaycan müsəlman ölkəsi olaraq müstəqilliyinin ilk illərindən etibarən İslam və ərəb dünyası ilə əlaqələrin inkişafında maraqlı olub və bu istiqamətdə hər zaman ardıcıl siyasət yürüdüb. Bu münasibətlərin gücləndirilməsi dövlətlərarası əlaqələrə müsbət yön və ciddi töhfələr verir.

Hesab edirəm ki, mövcud təmaslar və keçirilən görüşlər nəticəsində əlaqələrimiz daha da inkişaf edəcək, möhkəmlənəcək və qarşıdakı illərdə yeni keyfiyyət mərhələsinə qədəm qoyacaq. İordaniya ərəb dünyasında özünəməxsus mövqeyi və rolu olan ölkələrdən biridir, daxili inkişaf proseslərini ardıcıl şəkildə davam etdirir. Bu baxımdan, diplomatik görüşlərin Azərbaycan–İordaniya münasibətlərinin daha da irəli aparılmasına, əməkdaşlığın genişlənməsinə töhfə verəcəyinə əminəm.

### *Ekspert rəyi*



**Elçin MİRZƏBƏYLİ,**
**Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü**

2025-ci il noyabrın 27-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə İordaniya Haşimilər Krallığı Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş" iqtisadi münasibətlərin hüquqi bazasını gücləndirən sənəd hesab oluna bilər. Bu saziş təkcə ticarət dövriyyəsinin asanlaşdırılmasını deyil, həm də transmilli cinayətkarlığa qarşı birgə mübarizəni hədəfləyir. Sazişin əsas iqtisadi qayəsi malların idxalı və ixracı zamanı gömrük rüsumlarının və digər vergilərin düzgün qiymətləndirilməsini təmin etməkdir.

Sənəddə təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetirilir. Bu xüsusda gömrük orqanları "həssas malların" qanunsuz dövriyyəsi barədə bir-birini operativ məlumatlandırmalıdırlar. Bu sıraya odlu silahlar, hərbi texnika və kütləvi qırğın silahlarının hazırlanmasında istifadə oluna bilən materiallar, narkotik, psixotrop maddələr və onların istehsalında istifadə olunan prekursorlar, strateji əhəmiyyətli xammallar və tarixi-arxeoloji dəyəri olan predmetlər, ətraf mühit və əhalinin sağlamlığı üçün təhlükəli maddələr, habelə nəsli kəsilməkdə olan flora və fauna növləri daxildir.

Sazişdə hüquqpozmalara qarşı mübarizədə müasir və səmərəli metodların tətbiqi nəzərdə tutulur. Xüsusilə "Nəzarətli göndəriş" metodundan istifadə edilməsi cinayətkar şəbəkələrin tam ifşası üçün geniş imkanlar yaradır. Həmçinin mallar və nəqliyyat vasitələri gömrük sərhədinə çatmazdan əvvəl onlar barədə elektron üsulla ilkin məlumat mübadiləsinin aparılması nəzərdə tutulur ki, bu da gömrük rəsmiləşdirilməsini sürətləndirir. Əməkdaşlıq zamanı ötürülən məlumatların məxfiliyi sazişin ayrılmaz hissəsidir. Fərdi məlumatlar yalnız milli qanunvericiliyə uyğun olaraq və ekvivalent mühafizə səviyyəsi təmin edildiyi halda ötürülə bilər.

Bütövlükdə bu saziş Azərbaycan və İordaniyanın gömrük orqanları arasında birbaşa əlaqələrin qurulmasını, texniki yardımın göstərilməsini və qabaqcıl təcrübənin mübadiləsini təmin edir. Sənədin icrası hər iki ölkənin gömrük ərazisində iqtisadi təhlükəsizliyin güclənməsinə və ticarət mühitinin saflaşmasına xidmət edəcək. "Azərbaycan Respublikası Hökuməti ilə lordaniya Haşimilər Krallığı Hökuməti arasında gömrük işi sahəsində əməkdaşlıq və qarşılıqlı yardım haqqında Saziş"in təsdiqi barədə qanun layihəsinin Milli Məclisin yaz sessiyasının ilk iclasında müzakirəyə çıxarılması gözlənilir.

# Fransada impiçment "serialı" davam edir

## *Büdcə məsələsi hökumətin əsas problemi olaraq qalmaqdadır*

**Son günlər Fransada siyasi gərginlik daha da artıb. Ölkədə baş verənlər nə müvəqqəti hökumət böhranı, nə də növbəti parlament qarşıdurması kimi izah oluna bilər. Dövlət institutlarının bir-birinə etimadının itməsi və real qərarvermənin dar bir mərkəzdə cəmləşməsi ilə xarakterizə olunan institusional böhran kulminasiya həddinə çatıb. Bu isə özünü həyati əhəmiyyət kəsb edən proseslərin təxirə salınmasında açıq şəkildə göstərir. Kulminasiyanın aydın təzahürünü Fransa Milli Assambleyasında keçirilən son səsvermədə görmək mümkündür.**



2 gün öncə parlamentin aşağı palatasının deputatları baş nazir Sebastyen Lekornunun rəhbərlik etdiyi hökumətə qarşı təqdim edilən etimadsızlıq haqqında qətnaməni növbəti dəfə rədd ediblər. Hadisə zahirən texniki prosedur təsiri bağışlasa da, mahiyyət etibarilə Fransa siyasi sisteminin üzləşdiyi dərin böhranı üzə çıxarır. Əslində səsvermə hökumətin gücünü yox, parlamentin acizliyini nümayiş etdirir. Parlamentin rəsmi saytında yayımlanan iclasın səsvermə nəticələrinə görə, qətnaməni 267 deputat dəstəkləyib. Onun qəbul olunması üçün isə 577 deputatdan azı 289-unun səsi tələb olunurdu. Prosesi daha dərindən analiz etdikdə, parlament iradəsinin sistemli şəkildə neytrallaşdırılması reallığı özünü təsdiqləyir. Çünki hadisə artıq üçüncü dəfə eyni ssenari üzrə təkrarlanır. Məhz bu təkrarlanma onu sübut edir ki, Fransa hazırda dərin struktur böhranı yaşayır. Hökumət parlamentlə toqquşur, müxalifət etiraz edir, etimadsızlıq mexanizmi işə salınır, amma nəticədə heç nə dəyişmir. Çünki qərar artıq verilib, səsvermə isə sadəcə, gecikmiş formal prosedura çevrilib.

Yeri gəlmişkən, qətnamənin irəli sürülməsinə səbəb Sebastyen Lekornunun 2026-cı il dövlət büdcəsi haqqında qanunun üçüncü və son hissəsini parlamentdə səsvermə olmadan, Konstitusiyanın 49-cu maddəsinin 3-cü bəndinə əsasən qəbul etməsi idi. Hüquqi baxımdan bu addım konstitusion çərçivəyə sığır. Siyasi baxımdan isə parlamentin açıq şəkildə prosesdən kənarda saxlanması, demokratik müzakirənin faktiki olaraq ləğvi deməkdir. Halbuki, 49.3 maddəsi fövqəladə vəziyyətlər üçün nəzərdə tutulmuş mexanizmdir. Makron dövründə isə bu mexanizm siyasi alətə çevrilib. Əgər hökumət hər dəfə sosial və iqtisadi baxımdan ağır qərar qarşısında parlamenti kənara qoyursa, artıq effektiv idarəetmədən söz gedə bilməz. Büdcə kimi dövlətin ideoloji və sosial kursunu müəyyən edən sənədin səsverməsiz qəbul edilməsi parlamentin öz funksiyasını itirdiyini açıq şəkildə göstərir.

Əvvəldə də qeyd etdik ki, büdcə məsələsi böhranın sosial ölçüsünü daha da kəskinləşdirir. Bu səbəbdən, müdafiə sahəsi istisna olmaqla, demək olar ki, bütün istiqamətlər üzrə xərclərin azaldılması planlaşdırılır. Belə olan halda səhiyyə, təhsil, regional inkişaf və mədəniyyət sahələri ixtisarlarla üz-üzə qalır. Eyni zamanda, müdafiə xərclərinin 6,7 milyard avro artırılması nəzərdə tutulur. Bu balans Makron administrasiyasının prioritetlərini açıq şəkildə üzə çıxarır və sosial dövlət modelinin mərhələli şəkildə zəiflədildiyini göstərir.

Ən problemli məqam ondan ibarətdir ki, büdcə parlamentdə real siyasi razılaşma əsasında qəbul edilməyib. Sadəcə, faktiki olaraq parlament üzərindən "keçirilib". Bu isə Fransa hökumətinin siyasi eyibi kimi qiymətləndirilməlidir. Nəzərə alınmalıdır ki, büdcə dövlətlə vətəndaş arasında bağlanan sosial müqavilədir. Bu müqavilə müzakirəsiz qəbul edilərsə, onun legitimliyi şübhə altına düşər. Etimadsızlıq qətnaməsini təqdim edən "İtaətsiz Fransa" Partiyasının parlament fraksiyasının lideri Matilda Panonun açıqlaması məhz sözügedən narahatlığı ifadə edir. Onun sözlərinə görə, təşəbbüs fransızları misilsiz dərəcədə sərt büdcə qanunundan qorumaq məqsədi daşıyırdı. Panonun mövqeyi cəmiyyətdə yığılan sosial narazılığın siyasi formaya salınmış ifadəsi kimi xarakterizə edilə bilər.

Şübhəsiz, bütün proseslərin mərkəzində Emmanuel Makronun formalaşdırdığı prezident mərkəzli idarəetmə modeli dayanır. Həmin modeldə parlament qərarların icrasını ləngidən maneə kimi qəbul olunur. Sebastyen Lekornu isə bu modelin texniki icraçısı rolunda çıxış edir. Onun siyasi çəkisi daha çox prezidentin iradəsini mübahisəsiz icra etməklə ölçülür. Nəticədə Fransa paradoksal vəziyyətə düşüb. Parlament mövcudluğunu itirmir, lakin təsir imkanları getdikcə daralır. Səsvermələr keçirilsə də, qərarlar əvvəlcədən verilir. Etimadsızlıq mexanizmi işə düşür, lakin siyasi nəticə doğurmur. Bu isə demokratiyanın formal olaraq qorunduğu, mahiyyət etibarilə zəiflədildiyi bir sistem yaradır.

Sonda qeyd edək ki, üçüncü dəfə təkrarlanan eyni ssenari onu deməyə əsas verir ki, Fransada problem bütöv idarəetmə məntiqindədir. Parlamentin səsi var, amma iradəsi yoxdur. Hökumət prosedur baxımından qalib gəlir, lakin ictimai etimadı sürətlə itirir. Əgər bu kurs dəyişməzsə, yaxın perspektivdə vəziyyəti xilas edəcək heç bir siyasi manevr qalmayacaq. İmpiçment "serialı"nın orosedur fəndləri, konstitusion boşluqlardan istifadə bir müddət nəticə verə bilər. Lakin bu gedişlə nə çevik koalisiyalar, nə taktiki kompromislər, nə də növbəti parlament oyunları ölkəni impiçment girdabından xilas etməyə qadir deyil. Çünki etimad itirildikdən sonra sistemin davamlılığı məsələsi iflasa uğrayır.

***Nəzrin ELDARQIZI***
***XQ***

### *Ekspert rəyi*

**Xəyal BƏŞİROV,**
**Siyasi və Hüquqi Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq**



Fransada baş nazirlərin tez-tez dəyişməsi, hökumətlərin istefaya getməsi, ictimaiyyətin qanunvericilikdə edilən sosial dəyişikliklərə və yeni qanunlara qarşı etirazları, həmçinin "Sarı jiletlilər" hərəkatı ölkədə ciddi idarəetmə çatışmazlığının açıq göstəricisidir. Bu etirazlar yalnız daxildə deyil, Avropa səviyyəsində də Fransa hökumətinə qarşı narazılıqların olduğunu göstərir. Hesab edirəm ki, hökumətin parlamenti ələ keçirməsi problemin yeganə izahı deyil. Əsl səbəb Emmanuel Makron administrasiyasının uğursuz daxili və xarici siyasətidir. Paralel olaraq, Sebastyen Lekornunun siyasi təcrübəsinin məhdud olması da prosesdə rol oynayır. O, gəncdir və yüksək siyasi postlarda geniş təcrübəyə malik deyil.

Bununla yanaşı, Makron administrasiyasının parlamentin aşağı palatasından layihələri keçirməkdə çətinlik çəkməsi hökumətin idarəetmə qabiliyyətinin zəifliyini açıq göstərir. Xatırlatmaq lazımdır ki, kabinet məhz Makronun təşəbbüsü ilə formalaşıb. Avropa parlamentində hakim partiyanın uğursuzluğa düçar olması və xarici siyasətdə edilən səhvlər göstərir ki, proses Makron administrasiyasının ümumi siyasətinin nəticəsidir.

Problemi yalnız Fransaya aid etmək də düzgün olmaz. Avropa İttifaqına üzv bir sıra dövlətlərdə idarəetmə uğursuzluqlarına şahid oluruq ki, bu da ənənəvi siyasətin Avropada zəiflədiyini göstərir. Ona görə də Makron növbəti cəhdlərini ciddi şəkildə nəzərdən keçirməli və hökumətin daxili siyasətini gücləndirməlidir. Gələcəkdə də Fransada növbəti dəfə kabinetə etimadsızlıqla bağlı addımlar atılacaq və bu, təbii ki, ölkənin həm Avropada, həm də beynəlxalq aləmdə nüfuzuna ciddi zərbə vuracaq.

# Azərbaycan humanitar elmi və azərbaycanşünaslıq: konseptual kontekst

**III MƏQALƏ**

## Epistemologiya: sadə izah

Bu termin latıncadan tərcümədə "elmi bilik", "elm", "həqiqi bilik" və "təlim" sözlərinin mənaca sintezini ifafə edir. Yəni epistemologiya sadə dillə, biliyin yaranması, quruluşu, strukturu, funksiyası və inkişafı haqqında xüsusi təlimdir (nəzəri konstruktdur). O həm də metodoloji funksiya, yəni biliyi əldə etməyin elmi xüsusiyyətlərinin yaradılması, təşkili və tətbiqi özəlliklərini ifadə edir. Buna paralel olaraq "qnoseologiya" (idrak nəzəriyyəsi) termini də işlədilir.

Qərb fəlsəfəsində adətən epistemologiya və qnoseologiya eyniləşdirilir. Lakin epistemologiya ilə idrak nəzəriyyəsini fərqləndirən yanaşmalar da vardır. Bu zaman qnoseologiyanın əsas olaraq subyekt-obyekt münasibətlərini, epistemologiyanın isə "obyekt-bilik" münasibətlərini öyrəndiyini vurğulayırlar.

Bütün hallarda epistemologiya və idrak nəzəriyyəsi fəlsəfi-elmi səviyyədə biliyin alınması, nəzəriyyələrin yaranması, biliklərin münasibətləri və onların "həqiqət" anlayışı vasitəsi ilə bizim "dünya" adlandırdığımız və əsasən "bizdən asılı olmadan mövcud olduğunu" düşündüyümüz məfhuma münasibətini öyrənir. Burada adi şüurun standart anlayış hesab etdiyi "öyrənir", "ifadə edir" kimi ifadələr də fərqli fəlsəfi yanaşmalar prizmasında müxtəlif anlamlara malikdirlər ki, bu da onlar haqqında birmənalı danışmağı da nisbi edir.

Hətta J.Delyoz Platon və Aristoteli, ümumiyyətlə, "anlayış"ın izahı məsələsində böyük yanlışlıqlara yol verməkdə kəskin tənqid edirdi. Yəni bu məsələ bir sıra hallarda təqdim edildiyi kimi sadə deyildir. Bu tezisin, xüsusilə, bizim Azərbaycan elmi humanitariyasının adekvat antropoloji universallaşmasının epistemoloji əsaslandırılmasına birbaşa aidiyyatı vardır.

Lakin bizim üçün əsas olanı detallı nəzəri və metodoloji incə fərqliliklər deyil, ümumi halda epistemologiyanın biliyin təbiəti, mənbəyi, strukturu, əsaslandırılması, alınması, yeniləşməsi, yeni mənaların yaranmasının idrakı (koqnitiv) özəllikləri, nəzəri-konseptual və məntiqi bazası, tətbiqi xüsusiyyətləri, biliyin hüdudları, həqiqiliyinin müəyyən edilməsi ilə bağlı fəlsəfi konsepsiya olmasıdır. Yəni əsas sual belədir: hansı fəlsəfi-epistemoloji yanaşma çərçivəsində Azərbaycan humanitar elmini adekvat şəkildə azərbaycanşünaslıq kontekstində antropoloji universallıq kimi konseptuallaşdırmaq mümkündür?

## Yeni epistemologiya: ümumi koqnitiv cizgiləri

Azərbaycanın baş elmi təşkilatının yeniləşmə kursu çərçivəsində formalaşma mərhələsinə qədəm qoyan azərbaycanşünaslığın "AMEA məktəbi" daxilində üzərində işlədiyimiz və şərti olaraq "yeni epistemologiya" (bu, ilkin və mücərrəd addır, çünki artıq onu Yuk Hui öz anlamında işlətmişdir və bizim ona alternativ olmaq niyyətimiz yoxdur) adlandırdığımız tədqiqatın ümumi cizgilərini qəzet formatının imkanları hüdudlarında izah etməyə çalışaq. Azərbaycanşünaslıq kontekstində onu "Azərbaycanşünaslıq epistemologiyası" adlandırmaq olar. Ona görə, "yeni epistemologiya" hansısa fərqli idrak nəzəriyyəsinin hazır sisteminin semantik ifadəsi deyil, yanaşmamızın ümumi halda təqdimatı üçün işlədilən termindir. Bir məqamı da vurğulayaq.

Biz M.Fuko, J.Delyoz və F.Qvattari mənasında, lakin iki idrakı və praqmatik məhdudlaşdırıcı şərtlər daxilində "epistema" anlayışından istifadə edirik.

Birincisi, burada söhbət M.Fukonun nəzərdə tutduğu bütövlükdə tarixi epoxa miqyasında epistema olmaq iddiasından getmir. Bizim üçün əsas olanı Azərbaycan və bütövlükdə türk dünyası miqyasında işləyə biləcək epistemoloji sistem yaratmaqdır.

İkincisi, J.Delyoz və F.Qvattarinin epistemasında "rizoma" (vahid idrakı mərkəzi olmayan qeyri-xətti koqnitiv dərketməni ifadə edən metafora) daha ümumi anlam ehtiva edir. Bizim üçün "yeni epistemologiya" sistem kimi konkret nəzəri-konseptual hüdudlara və məntiqi struktura malikdir, lakin funksional olaraq "rizomatik"dir (bu mücərrəd fəlsəfi tezisi burada izah etmək imkanı yoxdur). Ümumi onu qeyd edək ki, epistemoloji sistemin funksionallığında "rizomatiklik" başlıca olaraq bifurkasiyalılığı ("bifurkasiya" burada konkret elmi süjetdə məzmun və məntiqi ikiləşmənin, "haçalanmanın" ideya obrazıdır) və qeyri-xəttiliyi ifadə edir.

## Yanaşmanın fəlsəfəsi

İlk addım psixoloji artefaktların yaranmasının izahı ilə bağlıdır. Onun nəzəri əsası kimi "fəaliyyət nəzəriyyəsi" götürülür (S.L.Rubinşteyn, A.N.Leontyev, L.S.Vıqotskiy, L.Qrehem, Y.Engeström). Bu psixoloji nəzəriyyəyə görə, artefaktlar daxili idraki faktorlarla sosial fəaliyyətin sintezində formalaşırlar. Bundan başqa, fəaliyyət məqsədə çatmağa istiqamətlənmiş davranışlar sistemidir. Ancaq psixoloji artefakt tam dayanıqlı məna ala bilməyən və bu anlamda qeyri-müəyyən olan vahiddir. Bunlara görə, artefaktlar müxtəlif anlamlarda izah edilirlər. Bu keyfiyyətdə onlar fəlsəfi və elmi idrakın parametri ola bilmirlər. Təhtəlşüurdan qaynaqlanan bu qeyri-müəyyənlik bütövlükdə elmi obrazlaşmaya ciddi əngəllər törədir. Onun aradan qaldırılması üçün artefaktların başqa idrakı sahəyə transformasiyası lazım gəlir. Buradan yanaşmamızın ikinci addımı məntiqi olaraq alınır.



İkinci addım psixoloji artefaktların intellektual fakta çevrilməsi prosesidir. İntellektual fakt artıq dayanıqlı "kod" ola bilir. Artefaktdan intellektual fakta çevrilmə idrakı prosesdir və sosial-mədəni mühitlə (praktiki aspektdə) şüurun dinamik təmasları sayəsində iki aspektin vəhdəti kimi "obyektləşir" və ya "faktlaşır".

İntellektual fakt artıq təfəkkürün rasional-məntiqi fəaliyyəti sayəsində sosial-mədəni mühitlə daimi qarşılıqlı əlaqədə formalaşır. Burada başlıca prinsip həmin əlaqələrin nəticəsi olaraq fərdi və kollektvi miqyaslarda idrakı təcrübənin toplanması ilə bağlıdır. Bu təcrübə hər bir topluma özünəxas intellektual faktlar sahəsi formalaşdırmaq şansı yaradır.

Üçüncü addımda "intellektual faktlar sahəsi"ndə formalaşan informasiyaların məntiqi seçim əsasında iki istiqamətdə mənalandırılması aparılır. Birinci istiqamət "inanclar sahəsi"nə informasiyaların kod formasında transformasiyasıdır ki, onu "Doksa intellektual sahəsi" adlandırırıq, ikinci istiqamət rasional-məntiqi kriteriyaların üstünlük təşkil etdiyi "Epistema intellektual sahəsi"dir.

"İnanclar sahəsi" din və folklor yaradır, "epistema" isə elmi nəzəriyyələrin formalaşmasının potensial "koqnitiv məkanı"dır. Folklorun nümunəsində "potensial elmi nəzəriyyə"nin real nəzəri sistemə çevrilməsinin idraki mexanizminə baxaq.

"Doksa"da (doksa sübut tələb etməyən faktlar və ya kodlar sahəsidir) inanclar kodlar formasında mövcud olur. On görədir ki, doksa üçün fəlsəfi aspektdə "inandırma gücü" və "inandırma etikası" kimi anlayışlar xüsusi aktuallıq kəsb edir. Əlbəttə, bu prosesdə "xalq yaradıcılığı" və "xalq müdrikliyi" kimi anlayışların da semantik anlamı və funksional xüsusiyyətləri yeni prizmada daha aktual görünür. Onlar ayrıca araşdırılmalıdır.

Məsələ onunla bağlıdır ki, sübutsuz və əsasən dəyişməz kod kimi götürülən inanclarla elmi inam arasında bağlılıq məsələsi tədqiq edilir. Bu aspektdə M.Polaninin "aşkar edilməyən bilik" anlayışı ciddi epistemoloji əhəmiyyət kəsb edir. Belə alınır ki, elm üçün həmişə aşkar oluna bilməyən biliklərin folklorun idrakı sahəsindən qaynaqlanması məsələsi xüsusi tədqiq edilməlidir.

Bu keyfiyyətdə folklor epistemik sahədə olan rasional-məntiqi faktorlarla qarşılıqlı koqnitiv münasibətlərə daxil olur – hər iki sahədəki biliklər bir-birinə "aralıq məna sahəsində" təsir edirlər. Həmin aralıq sahədə folklorşünaslığın nəzəri bazası formalaşır. Lakin hələlik tam nəzəriyyə halına gəlmir (bu yalnız folklorşünaslığa aid deyildir, bütün elmi təlimləri əhatə edir). Buradan dördüncü addım üçün məntiqi əsas yaranır.

Dördüncü addımda "doksa-epistema" (inanc-rasional-məntiqi sübutluluq) qarşılıqlı münasibətlərinin ortaq kommunikativ sahəsində meydana gələn yeni mənaların aktuallaşması üçün "koqnitiv ölçüsü" daha yüksək olan yeni idrakı sahəyə transformasiya baş verir. Bununla elmlər meydana gəlir ki, özlərində "gizli idrakı" formada inancla rasionallığın sintezini ehtiva edirlər.

Deməli, "Gizli Dədə Qorqud"un nəzəri-konseptual dərkində "gizli məna"lardan bəhs etmək uğurlu bir dərketmə addımıdır. Bu əsasda konseptual olaraq bütövlükdə humanitar elmlərin konseptuallaşmasına azərbaycanşünaslıq çərçivəsində epistemoloji keçidetmənin rasional-məntiqi mümkünlüyü barədə düşünmək olar.

Bizim yanaşmada bu keçidin iki məntiqi bazası mövcuddur. Birincisi Lütfüzadənin qeyri-səlis məntiqidir, ikincisi C.S.Braunun "forma" məntiqidir (onların fəlsəfi izahı başqa mövzudur). Bu iki güclü məntiq təliminin sintezində Azərbaycan elmi humanitariyasının universal konseptuallaşdırılması imkanları və hüdudlarına baxmaq olar.

Həmin məntiq təlimləri bizim yanaşmanın nəzəri təməli olan mürəkkəblik paradiqması (Edqar Moren), dövrləşdirmə konsepsiyası (İsa Həbibbəyli anlamında), fəaliyyət nəzəriyyəsi (S.L.Rubinşteyn, A.N.Leontyev, L.S.Vıqotskiy, L.Qrehem, Y.Engeström) və aktor-şəbəkə nəzəriyyəsi (Bruno Latur) üçün çox səmərəli izahedici idraki gücə malikdirlər. Onlar yekun olaraq "yeni epistemologiya"da "sinergetik sintez" məntiqində ehtiva olunurlar.

## Azərbaycan elmi humanitariyasının perspektivi

Əlbəttə, bütövlükdə götürdükdə azərbaycanşünaslığın "AMEA məktəbi"nin formalaşması çoxaspektli açıq prosesdir və bir fəlsəfi-epistemoloji yanaşma yetərli deyildir, müxtəlif variantların hazırlanması vacibdir. Şübhəsiz, araşdırmalar da məhz bu istiqamətdə aparılmaqda davam edəcəkdir. Burada əsas məqsəd müəyyən edilmiş prinsipial baza nəzəri-konseptual, metodoloji və dərketmə məqamları üzərində elmi humanitariyanı universal antropoloji səviyyəyə yüksəltmədən ibarətdir. "AMEA məktəbi"nin yaranması prosesi həmin kriteriyalar prizmasında davamlı inkişaf edən xarakterə malikdir.

Azərbaycanşünaslığın bütövlükdə humanitar elmlər miqyasında mənalandırılması, təbii ki, maraqlı və əhəmiyyətli istiqamətdir. Onun dövlətçiliyə və ümumiyyətlə, Azərbaycan elminə böyük faydaları olacaqdır. Bu baxımdan ölkənin elmlə əlaqəli hər bir qurumunun da "AMEA məktəbi"nin formalaşma dinamikasına maraq göstərməsi əhəmiyyətli olardı.

Başqa məqamlarla yanaşı, burada hər bir elmi təşkilat üçün indi çox əhəmiyyətli olan fənlərarası yaradıcı komandaların formalaşdırılmasının həyata keçməsi xüsusi aktuallıq kəsb edir. Azərbaycanşünaslığın inkişafında həmin yaradıcı platformanın çox uğurlu ola biləcəyinə inam vardır.

Hazırda Qərbdə, Çində, Yaponiyada və elmi inkişaf etmiş başqa yerlərdə fənlərarası yaradıcı komandalar aparıcı yer tuturlar. AMEA-da yaradılmış elmi fəaliyyət mühiti və onun təşkili fəlsəfəsi vurğulanan istiqamətdə səmərəli əməkdaşlığa və müsbət nəticəverici proqramlar tərtib etməyə geniş imkanlar meydana çıxarır. O cümlədən, Azərbaycan elmi humanitariyasının antropoloji konseptual universallaşdırılması bu prosesdə ciddi rol oynaya bilər. "AMEA məktəbi"nin fəaliyyət əhatəsi və təsir dairəsi baxımından bu məqamın vacibliyi aydındır.

Nəhayət, Azərbaycan elmi humanitariyasının konseptual universallaşdırılmasında fəlsəfənin aparıcı yerlərdən birini tutmalı olduğuna şübhə yeri qalmır. Xüsusilə, məsələnin ümumi nəzəri, konseptual və metodoloji istiqamətlərinin formalaşmasında fəlsəfi-epistemoloji sistem əsas yeri tutmalıdır.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Avropa Komissiyasının enerji məsələləri üzrə rəsmi nümayəndəsi Anna-Kaysa İtkonenin dilə gətirdiyi fikirlər İkinci Dünya müharibəsindən sonra formalaşmış geostrateji nizamın tamamilə dəyişdiyini sübut edən tarixi çağırışdır. Rusiyadan daxil olan bütün növ enerji resurslarından imtina edilməsi ilə bağlı siyasi iradənin artıq hüquqi müstəviyə keçməsi və "REpower EU" planının icrasının dönməz xarakter alması Avrasiya materikində yeni reallıqların formalaşdığını göstərir. Sözügedən bəyanatda yer alan "tarixi məqam" ifadəsi təsadüfi seçilməyib. Söhbət onilliklər ərzində Avropa sənayesini ucuz xammalla təmin edən, lakin bunun müqabilində siyasi asılılıq yaradan nəhəng bir sistemin çöküşündən gedir.**

# Avropa Komissiyasının qərarı və qaçılmaz sonluq

## *Azərbaycanın praqmatik siyasəti qlobal böhranı dəf edir*

Avropa İttifaqı tərəfindən atılan addımlar illərdir üzərində işlənilən, detallı şəkildə hesablanmış və alternativləri öncədən hazırlanmış strateji gedişlərdir. Rusiya qazının bazardakı dominantlığına son qoyulması, Kremlin ən güclü təzyiq vasitəsini zərərsizləşdirməklə yanaşı, qlobal bazarlarda yeni nümayəndələrin, yeni marşrutların və yeni tranzit hablarının yaranmasına şərait yaradır. İtkonenin neft idxalının da dayandırılmasına dair verdiyi anons sanksiyalar siyasətinin real iqtisadi mexanizmlərlə dəstəkləndiyini sübut edir. Cari proseslərin fonunda diqqətçəkən məqam "qoca qitə"nin enerji təhlükəsizliyi xəritəsinin yenidən cızılmasıdır. Həmin xəritədə ənənəvi Şərq–Qərb dəhlizlərinin əhəmiyyəti azalarkən, Cənub Qaz Dəhlizi və Xəzər hövzəsi resurslarının rolu həlledici status qazanır.



**ARAYIŞ:** *"REpower EU" planı Avropa Komissiyası tərəfindən 2022-ci ilin may ayında qəbul edilmiş qlobal əhəmiyyətli yol xəritəsidir. Sənədin əsas məqsədi Aİ-yə üzv dövlətlərin Rusiyadan idxal edilən qaz, neft və daş kömürdən asılılığına 2030-cu ilə qədər tamamilə son qoymaq və qitənin enerji təhlükəsizliyini təmin etməkdir. Plan üç əsas strateji sütun üzərində qurulub: enerji qənaəti, təmiz enerjinin istehsalının sürətləndirilməsi və enerji təchizatının diversifikasiyası.*

Beləliklə, "REpower EU" Rusiyanın enerjidən siyasi təzyiq vasitəsi kimi istifadəsinə qarşı hazırlanmış geosiyasi müdafiə qalxanı funksiyasını yerinə yetirir. Layihə çərçivəsində Azərbaycan qazının Avropaya nəqlini həyata keçirən Cənub Qaz Dəhlizinin genişləndirilməsi, mayeləşdirilmiş təbii qaz terminallarının inşası və hidrogen enerjisinə keçid prioritet istiqamətlər kimi təsbit edilib.

Brüsselin sərgilədiyi qətiyyətli mövqe yalnız enerji təhlükəsizliyi ilə izah edilə bilməz. Ortada daha dərin, sivil seçim və suverenlik məsələsi dayanır. İllərlə davam edən "qarşılıqlı asılılıq" doktrinasının iflasa uğraması Qərb paytaxtlarını başa saldı ki, avtoritar rejimlərdən enerji asılılığı gec-tez milli təhlükəsizliyə təhdidə çevrilir.

* * *

Dünya enerji bazarlarında yaranan mövcud boşluğun doldurulması zərurəti, təbii olaraq, diqqətləri Xəzər regionuna və xüsusilə Azərbaycana yönəldir. Brüsselin Rusiya qazından imtina strategiyası böyük ölçüdə alternativ mənbələrin əlçatan olmasından asılıdır. Məhz burada rəsmi Bakının yürütdüyü uzaqgörən və praqmatik enerji diplomatiyası ön plana çıxır. Cənub Qaz Dəhlizi layihəsinin reallaşdırılması zamanı bəzi Avropa dairələrinin sərgilədiyi skeptik yanaşmaların nə qədər yanlış olduğu indiki tarixi mərhələdə aydınlaşır.

Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə ərsəyə gələn nəhəng infrastruktur layihələri bu gün Avropanın enerji təhlükəsizliyinin real xilaskarı rolunu oynayır. Rəsmi Bakı heç vaxt enerjini siyasi təzyiq vasitəsi kimi istifadə etməyib, əksinə, hər zaman etibarlı tərəfdaş, sözünə sadiq aktor kimi tanınıb. Anna-Kaysa İtkonenin bəyanatındakı qətiyyətin arxasında dayanan əsas amillərdən biri də məhz Azərbaycanla imzalanmış strateji tərəfdaşlıq sənədlərinin yaratdığı inamdır. Ölkəmiz, həmçinin yaşıl enerji keçidində də Avropanın əsas tərəfdaşına çevrilməkdədir. Xəzər dənizinin külək enerjisi potensialının Qara dənizin dibi ilə çəkiləcək kabel vasitəsilə Avropaya nəqli layihəsi "REpower EU" planının fəlsəfəsinə uyğun gəlir.

Avropa Komissiyasının "REpower EU" çərçivəsində atdığı addımların həm də mənəvi-siyasi tərəfi var. Ukraynada davam edən müharibənin maliyyələşdirilməsində Rusiya enerji ixracatının rolu hər kəsə məlumdur. Anna-Kaysa İtkonenin "tarixi məqam" adlandırdığı qərar, əslində, Avropanın vicdan imtahanıdır. Qitə ölkələri uzun müddət rahatlıq və ucuz enerji naminə göz yumduqları təhlükəni artıq dərk ediblər. Rusiya neftindən mərhələli imtina prosesi texniki baxımdan qazdan daha mürəkkəb olsa da, siyasi iradənin mövcudluğu bu maneələrin də aşılacağını göstərir.

Azərbaycan amilinə yenidən qayıdaraq qeyd edək ki, rəsmi Bakı mövcud situasiyada son dərəcə təmkinli, lakin qətiyyətli siyasət yürüdür. Ölkəmiz heç bir halda anti-Rusiya koalisiyasının tərkib hissəsi kimi çıxış etmir, sadəcə, öz milli maraqlarını və kommersiya öhdəliklərini rəhbər tutur. Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Azərbaycanın enerji siyasəti kiməsə qarşı deyil, tərəfdaşların ehtiyaclarını ödəməyə və regional əməkdaşlığı gücləndirməyə yönəlib. Lakin fakt faktlığında qalır: Rusiya qazının Avropa bazarından sıxışdırılıb çıxarılması fonunda yaranan nəhəng boşluğu doldurmaq missiyası böyük ölçüdə Azərbaycanın üzərinə düşür. Cari reallıqlar Bakı ilə Brüssel arasındakı münasibətləri strateji tərəfdaşlıqdan da irəli, həyati müttəfiqlik səviyyəsinə qaldırır.

Avropa Komissiyasının sözçüsünün bəyanatında diqqətçəkən "məhkəməyə çıxarmaq hüququ" ifadəsi isə prosesin hüquqi legitimliyinə verilən önəmi göstərir. Avropa İttifaqı atdığı hər bir addımın beynəlxalq hüquq normalarına və daxili qanunvericiliyə uyğunluğunu təmin etməyə çalışır. Məqsəd Rusiyanın gələcəkdə irəli sürə biləcəyi təzminat tələblərini neytrallaşdırmaq və qərarların hüquqi immunitetini təmin etməkdir. "REpower EU" çərçivəsində qəbul edilən direktivlər üzv dövlətlərə Rusiya qazından imtina etmək üçün hüquqi baza yaradır və onları mümkün cərimələrdən sığortalayır. Eyni zamanda, həmin direktivlər ümumi enerji bazarının bütövlüyünü qorumaq və ayrı-ayrı ölkələrin birtərəfli qaydada Rusiya ilə "gizli anlaşmalar"a getməsinin qarşısını almaq məqsədi daşıyır.

* * *

Aİ daxilində qərarvermə mexanizmi artıq "fövqəladə zərurət" prinsipi əsasında işləyir. Macarıstan və Slovakiya kimi dənizə çıxışı olmayan və tarixən Rusiyanın boru kəmərlərindən asılı qalan ölkələrin ilkin müqavimətinə baxmayaraq, Brüssel diplomatiyası və alternativ tədarük marşrutlarının işə salınması vahid mövqenin formalaşmasına gətirib çıxaracaq. İtkonenin "proses artıq başa çatıb" ifadəsi pərdəarxası danışıqların, güzəştlərin və kompensasiya mexanizmlərinin yekunlaşdığına işarə edir. Artıq heç bir üzv dövlətin veto hüququndan istifadə edərək ümumi strategiyanı bloklamaq imkanı qalmayıb.

Sonda bir daha vurğulamaq yerinə düşər ki, Anna-Kaysa İtkonenin bəyanatı lokal xarakter daşımır, qlobal miqyaslı hadisədir. Avropa Rusiyanın "enerji iynəsindən" xilas olmaqla, öz siyasi suverenliyini bərpa edir. Cənub Qaz Dəhlizi və Azərbaycan amili isə bu xilaskarlıq missiyasının əsas sütununu təşkil edir. Tarix sübut edir ki, böhranlar həm də yeni imkanlar yaradır. Baş verən hadisələr fonunda rəsmi Bakının soyuqqanlı, praqmatik və milli maraqlara söykənən siyasəti gələcək nəsillər üçün daha güclü, daha zəngin və daha təhlükəsiz Azərbaycanın təməlini qoyur.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Paytaxtın yol-nəqliyyat infrastrukturu yeniləşdirilir

*Hərəkətin ahəngdarlığı və təhlükəsizliyi diqqət mərkəzindədir*

**Ölkə Prezidenti İlham Əliyevin 30 yanvar 2025-ci il tarixli sərəncamı ilə qəbul edilmiş "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"nın icraya yönəldilməsindən 1 il ötür. Ötən müddətdə bu mühüm dövlət sənədinin reallaşdırılması ilə bağlı geniş tədbirlər həyata keçirilib. Bu mövzuda dünən keçirilmiş dəyirmi masada görülmüş işlər barədə ətraflı məlumat verilib.**



Toplantıda çıxış edən nəqliyyat nazirinin müavini Rəhman Hümbətov Dövlət Proqramının çox geniş sahələri əhatə etdiyini vurğulayaraq bildirib ki, sözügedən sənəd çərçivəsində avtomobil yollarının genişləndirilməsi, 25 yol-nəqliyyat infrastrukturunun qurulması nəzərdə tutulur. Nazir müavini hazırda Bilgəh–Novxanı–VAZ dairəsi–Xırdalan–M-4, Akademik Həsən Əliyev–"Koroğlu" metrostansiyası, Xaqani Rüstəmov–Ağa Nemətulla, VAZ dairəsi–M4 Şamaxı yolunun tikintisinin sürətlə davam etdirildiyini, daha 4 layihə üzrə (Məhəmməd Xiyabani–Dairəvi-1, M4–Xırdalan (mərkəz) tunel, Xırdalan dairəsi, Əbdülvahab Salamzadə–Ziya Bünyadov) işlərə başlanılacağını, ümumilikdə isə, yaxın 6-7 ay ərzində bütün yolların layihələndirilməsi işlərinin tamamlanacağını diqqətə çatdırıb.

Nazir müavini qeyd edib ki, bu il Bakıda tramvay şəbəkəsinin yaradılması ilə bağlı işçi layihənin hazırlanması planlaşdırılır. Konseptual plandan sonra layihələndirmə mərhələsi həyata keçiriləcək. Layihələndirmə işlərinə isə Avropanın, Çinin, eləcə də digər ölkələrin şirkətləri cəlb oluna bilər: "Məqsəd tam müfəssəl bir layihə hazırlandıqdan sonra şəffaf bir tender vasitəsilə bizim üçün ən uyğun təklif nə olacaqsa, onun seçilməsidir. Burada da istisna deyil ki, layihəni icra edəcək qurum öz maliyyə təminatı, ekspertizaları və sair ilə gələ bilər. Bunların heç biri istisna deyil. Biz hazırda növbəti mərhələ kimi bu işçi layihənin hazırlanması mərhələsinə keçirik və bu il ərzində həmin işi görməyi planlaşdırırıq".

Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"nda "Mehdiabad-28 May" tramvay xəttinin çəkilməsinin nəzərdə tutulduğunu bildirən R.Hümbətov deyib ki, sözügedən layihə Bakının şimalındakı qəsəbələrin mərkəzlə birbaşa bağlantısını təmin etməklə yanaşı, həmin istiqamətdə, təxminən, 20 mindən çox avtomobil səfərinin azalacağına səbəb olacaq.

Bakı və Abşeron ərazisində ictimai nəqliyyatla bağlı "Brutto müqavilə sistemi"nə dair layihənin hazırlanması işlərinin son mərhələdə olduğunu bildirən nazir müavini deyib ki, bu müqavilənin başlıca məqsədi avtobus marşrutlarının müəyyən olunmuş cədvələ uyğun fəaliyyət göstərməsidir. Ölkədə avtobus parkının yenilənməsinin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayan R.Hümbətov bildirib ki, avtobusların sayının artırılması ilə yanaşı, daşıyıcı şirkətlərlə bağlı münasibətlərin tamamilə yeni müstəviyə keçirilməsi istiqamətində işlər görülür. Onun sözlərinə görə, "Brutto müqaviləsi" modelinə keçid həm xidmətin keyfiyyətinin artırılmasına, həm də daşıyıcıların maliyyə dayanıqlılığının təmin olunmasına imkan yaradacaq.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin (AYNA) idarə heyətinin sədri Anar Rzayev "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"na uyğun olaraq Bakıətrafı ərazilərdə dəmiryol nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib. AYNA rəhbəri qeyd ki, 2030-cu ilədək Bakıətrafı ərazilərdə dəmir yolları üzrə əlavə 25 dayanacaq və stansiya istifadəyə veriləcək. 2026–2027-ci illərdə Yeni Suraxanı–Hövsan, 2026–2028-ci illərdə Bakıxanov–Binə–Qala, 2028–2030-cu illərdə isə Zabrat–Maştağa–Bağlar dəmir yolu xətlərinin, eləcə də bu xətlər boyunca mövcud stansiyaların bərpasının və yeni stansiyaların inşasının planlaşdırıldığını bildirən A.Rzayevin sözlərinə görə, ötən il sözügedən dəmiryol xətləri üzrə yol infrastrukturunun təhlili aparılıb, layihələndirmə işlərinə başlanılıb.

Diqqətə çatdırılıb ki, bərpa olunacaq xətlər boyunca stansiya və dayanacaqlar üzrə optimallaşdırma işləri həyata keçirilib, stansiyaların yerləri müəyyən olunub: "Zabrat–Maştağa–Bağlar xəttində Maştağa və Bağlar stansiyaları daxil olmaqla 7, Bakıxanov–Binə–Qala xəttində Binə və Qala stansiyaları daxil olmaqla 7, Yeni Suraxanı–Hövsan xəttində isə ümumilikdə 4 stansiyanın inşası və ya bərpası planlaşdırılır. Bu stansiyalardan 3-ü Hövsan ərazisində yerləşəcək. Eyni zamanda, Baş Keşlə və Nərimanov stansiyalarına dayanacaq verilməsi, Kürdəxanı, Fatmayı, Saray və Binəqədi dayanacaqlarının yaradılması planlaşdırılır".

Bildirilib ki, Bakı və Sumqayıt şəhərlərində, bütövlükdə, Abşeron yarımadasında insanların gediş-gəlişini təmin edən dairəvi dəmir yolu marşrutunun Bakı–Xırdalan–Sumqayıt və Bakı–Pirşağı–Sumqayıt xətlərinin təkmilləşdirilməsi, eləcə də reys sayının artırılması üzrə mühüm işlər görülüb. Dəmir yolu xidmətlərinin keyfiyyətinin yüksəldilməsi məqsədilə rəqəmsallaşma tədbirləri həyata keçirilib, bilet satışı onlayn təşkil edilib, mobil tətbiq istifadəyə verilib, stansiya və dayanacaqlarda modernləşdirmə işləri görülüb. Bunun da nəticəsində, Abşeron dairəvi dəmir yolu üzrə sərnişin sayı həftəiçi gündəlik 36 mindən 43 minə qədər artıb. Bu da xidmət keyfiyyətinin artırılmasının və qatarla təhlükəsiz, rahat və maneəsiz səfərə üstünlük verilməsinin göstəricisidir.

Anar Rzayev onu da bildirib ki, ötən bir il ərzində Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi tərəfindən şəhərdaxili sərnişin daşımaları üzrə avtobus parkında və ödəniş sistemində bir sıra işlər həyata keçirilib. Nəticədə yeni şəbəkənin icrasına başlanılıb və 8 marşrut istifadəyə verilib. Onun sözlərinə görə, Bakı, Sumqayıt və Abşeronda 395 yeni elektrikli və CNG texnologiyası ilə işləyən avtobus istismara buraxılıb.

Qeyd olunub ki, gedişhaqqı ödənişi ilə bağlı da yeniliklər tətbiq edilib, bank kartı ilə ödəmək imkanı yaradılıb. Ümumilikdə, nağdsız ödəniş olan avtobusların sayı 1800-ə çatıb. Gedişhaqqının nağdsız ödənilməsinin xüsusi çəkisi 85 faizə çatıb.

Dəyirmi masada Bakı metrosunda həyata keçirilən tədbirlər barədə də ətraflı məlumat verilib. Bildirilib ki, artıq 9 stansiyanın layihələndirmə işləri yekunlaşıb, 2027-ci ilə qədər inşası nəzərdə tutulan 10 stansiyadan 1-də tikinti gedir, digər 9 stansiyanın isə layihələndirmə işləri yekunlaşıb. Metronun şərti adı B4 olan stansiyada tikinti davam edir və bu ilin sentyabr ayına qədər bitməsi nəzərdə tutulub. Dərnəgül deposunda tikinti işlərinə başlanılıb. Ümumilikdə isə, 2030-cu ildən sonra 24 stansiya, 16 şaxta, 2 depo üçün torpaq sahələri konversiya olunub.

Bakıda piyadaların və mikromobillik istifadəçilərinin hərəkətinin təhlükəsiz və rahat təşkili məqsədilə yeni infrastruktur layihələrinin icrasının planlaşdırıldığını bildirən A.Rzayevin sözlərinə görə, səkilərə və piyada yollarına dair ümumi tələbləri müəyyən edən dövlət standartı artıq təsdiq edilib və paytaxtın piyadalar üçün daha əlçatan şəhərə çevrilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Qeyd olunub ki, bu məqsədlə küçələr piyadalaşdırılır, yeni piyada zonaları yaradılır və ya genişləndirilir.

AYNA idarə heyətinin sədri Azərbaycanda mikromobilliyin təmin edilməsi istiqamətində görülən işlər barədə məlumat verərək deyib ki, ötən müddətdə 60,3 kilometr uzunluğunda mikromobillik zolağı yaradılıb. Yaxın vaxtlarda isə bu rəqəmin 100 kilometrə çatdırılması nəzərdə tutulur. Onun sözlərinə görə, aktiv mobillik tədbirlərinin həyata keçirilməsi üçün mikromobillik və piyada infrastrukturu genişləndirilir ki, bunun da nəticəsində skuter üçün 700, velosiped üçün isə 564 parklanma məntəqəsi təşkil edilib.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Dünya Neft Şurası ilə əməkdaşlıq müzakirəsi

**Energetika naziri Pərviz Şahbazovla Dünya Neft Şurasının prezidenti Pedro Miras arasında görüş keçirilib. Söhbət zamanı qlobal enerji gündəliyində aktual məsələlər, regional enerji layihələri və Azərbaycanın təşkilatla əməkdaşlığının inkişafına dair məsələlər müzakirə olunub.**



Nazir Pərviz Şahbazov bildirib ki, Azərbaycan ənənəvi neft və qaz istehsal edən və ixrac edən ölkə olmasına baxmayaraq, enerji keçidi istiqamətində də irəliləyişlərə nail olub. Son illərdə enerji sektorunda genişmiqyaslı islahatlar həyata keçirilib, bu sahədə çoxsaylı normativ-hüquqi aktlar qəbul edilib, bərpa olunan enerji mənbələrinin inkişafına başlanılıb. Qeyd olunub ki, Azərbaycan 2030-cu il üçün bərpa olunan enerji mənbələrinin quraşdırılmış gücdə payının 30 faizə çatdırılmasını hədəfləsə də, 2027-ci ilə qədər bu göstəricinin 33,7 faiz təşkil edəcəyi gözlənilir. Bu da ölkənin enerji keçidi istiqamətində ciddi irəliləyiş əldə etdiyini göstərir və bu yolun gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

Görüşdə regional və beynəlxalq əhəmiyyət daşıyan enerji layihələrinə də diqqət yönəldilib. Mərkəzi Asiya, Türkiyə və Avropanı əhatə edən enerji bağlantıları vahid konsepsiya çərçivəsində qiymətləndirilib. Bildirilib ki, bu layihələr enerji sistemlərinin birləşdirilməsi baxımından ölkələri daha da yaxınlaşdırır və regional enerji təhlükəsizliyinə töhfə verir. Bu layihələrin enerji və rəqəmsal infrastrukturun, həmçinin məlumat mərkəzlərinin inkişafı baxımından mühüm əhəmiyyət daşıdığı qeyd olunub.

Dünya Neft Şurasının prezidenti Pedro Miras Azərbaycanın Asiya ilə Avropa arasında əsas enerji dəhlizi rolunu xüsusi vurğulayaraq ölkənin müxtəlif enerji baxışları arasında dialoqu təşviq edən nümunəvi model olduğunu bildirib.

Söhbət zamanı 2026-cı ildə Ər-Riyadda (Səudiyyə Ərəbistanı) keçiriləcək "WPC Energy" konqresində iştirak və təşkilatla əməkdaşlığın perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

***XQ***

**İrəvanla Bakı arasında mayeləşdirilmiş qaz və bitumun daşınması barədə razılaşma əldə olunub. Azərbaycan və Ermənistan arasında ticarət əlaqələrinin qurulması artıq beynəlxalq gündəliyin də əsas mövzularından birinə çevrilib.**

# Sülh prosesi regiona iqtisadi dirçəliş gətirir



Bu proses qlobal tədbirlər çərçivəsində, eləcə də Prezident İlham Əliyevin xarici ölkələrin rəhbərləri ilə keçirdiyi görüşlərdə müsbət kontekstdə müzakirə olunur. Xüsusilə bir neçə gün öncə başa çatan Davos Ümumdünya İqtisadi Forumunda bu məsələ öz aktuallığı ilə seçilib. Yanvarın 20-də Davosda "Avrasiyanın iqtisadi özünəməxsusluğunun müəyyənləşdirilməsi" mövzusunda panel iclasında çıxış edən dövlət başçısı paraflanmış sülh sazişinin artıq praktik nəticələr verdiyini vurğulayıb: "Biz sülh şəraitində nəinki cəmi 5–6 aydır yaşayırıq və bu vəziyyətdən yararlanırıq...".

Məhz bu siyasi fonun formalaşması təsadüfi deyil. Məlum olduğu kimi, 8 avqust 2025-ci il tarixində Vaşinqtonda Azərbaycan və Ermənistan arasında paraflanmış sülh sazişi iki ölkə arasında münasibətlərin normallaşması üçün mühüm zəmin yaradıb. Bu prosesin davamı olaraq, həmin ilin oktyabr ayında Prezident İlham Əliyevin Ermənistana yük tranzitinə tətbiq edilən məhdudiyyətlərin aradan qaldırılması barədə qərarı ticarət əlaqələrinin real müstəviyə keçməsinə təkan verib. Nəticədə, Azərbaycan ilə Ermənistan arasında həm birbaşa, həm də tranzit dəmir yolu daşımaları həyata keçirilməyə başlanılıb və bu proses hazırda da davam etdirilir.

Siyasi qərarların iqtisadi mexanizmlərlə tamamlanması isə tərəflər arasında əməkdaşlığın davamlı xarakter almasına yol açıb. Belə ki, Ermənistanın iqtisadiyyat naziri Gevorq Papoyan sosial şəbəkə hesabında İrəvanla Bakı arasında mayeləşdirilmiş qaz və bitumun Azərbaycan ərazisi vasitəsilə dəmir yolu ilə daşınması barədə razılaşmanın əldə olunduğunu açıqlayıb. Nazir qeyd edib ki, yerli sahibkarlar artıq bu imkanlardan yararlana bilərlər.

Bu razılaşmalar fonunda ticarət axınlarının konkret nümunələri də formalaşmağa başlayıb. Xatırladaq ki, ötən ilin dekabr və bu ilin yanvar aylarında Azərbaycanın neft məhsulları Ermənistana ixrac edilib. Bundan əvvəl isə Qazaxıstan və Rusiyadan buğdanın Azərbaycan ərazisindən keçməklə Ermənistana çatdırılması həyata keçirilmişdi. Ekspertlərin fikrincə, rəsmi Bakı ilə İrəvan arasında de-fakto sülhün möhkəmlənməsi və ticarət əlaqələrinin bərpası bütövlükdə regionun iqtisadi kursunu və inkişaf perspektivlərini müsbət istiqamətdə dəyişə bilər.

Digər tərəfdən, bu ticarət əlaqələrinin iqtisadi effekti artıq statistik göstəricilərdə də öz əksini tapır. Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, 2025-ci ilin dekabr ayında Azərbaycandan Ermənistana 788,8 min ABŞ dolları dəyərində məhsul ixrac edilib. Nəzərə alsaq ki, mövcud əməkdaşlıq mexanizmləri gələcəkdə daha da genişlənə bilər, bu halda ticarətdən əldə olunan gəlirlərin də mütənasib şəkildə artacağı proqnozlaşdırılır.

Xüsusilə diqqətçəkən məqamlardan biri enerji məhsulları üzrə əməkdaşlığın bazara təsiridir. Ermənistana ixrac edilən məhsulların əsasını premium benzin təşkil edir ki, bu da həmin ölkənin daxili bazarında qiymətlərin aşağı düşməsinə səbəb olub. 2025-ci ilin dekabr ayının ortalarından etibarən Ermənistan Azərbaycan istehsalı olan benzin idxal etməyə başlayıb.

Nəticədə, premium benzinin qiyməti 15 faiz azalaraq litr üçün 510 dramdan 430 drama düşüb. Baş nazir həmçinin bildirib ki, dizel yanacağının qiyməti 2 faiz, adi benzinin qiyməti isə dekabr ayı ilə müqayisədə təxminən 8 faiz azalıb. Ermənistanın Baş naziri Paşinyanın sözlərinə görə, bu göstəricilər sülh gündəliyinin konkret iqtisadi nəticələridir.

Bununla yanaşı, mövcud logistika marşrutları da diqqət mərkəzindədir. Hazırda Ermənistana göndərilən yüklər əsasən Gürcüstan ərazisindən tranzit keçməklə daşınır. Bu marşrut mövcud geosiyasi və infrastruktur şərtlər fonunda ticarətin ilkin mərhələsində mühüm rol oynayır. Lakin paralel olaraq, yüklərin gələcəkdə birbaşa Azərbaycan–Ermənistan istiqamətində daşınması ehtimalı da gündəmdədir. Bu isə logistika xərclərinin azalmasına, daşımaların sürətlənməsinə və ticarət dövriyyəsinin daha da artmasına imkan yarada bilər.

Təbii ki, bu imkanların reallaşması, ilk növbədə, iki ölkə arasında münasibətlərin sülh və qarşılıqlı etimad şəraitində davam etməsindən asılıdır. Regionda uzunmüddətli sabitliyin təmin olunması nəqliyyat-kommunikasiya xətlərinin açılması və iqtisadi əlaqələrin institusional əsasda inkişafı üçün əsas şərt kimi çıxış edir. Mövcud siyasi siqnallar göstərir ki, artıq rəsmi İrəvanın siyasi rəhbərliyi bu məsələyə əvvəlkindən fərqli olaraq, konstruktiv və müsbət yanaşma nümayiş etdirir. Bu yanaşma qorunub saxlanılarsa, yaxın gələcəkdə regional ticarət və nəqliyyat əməkdaşlığında yeni mərhələnin başlanması mümkündür.

***Musa BAĞIRLI***
***XQ***

### *Ekspert rəyi*



**Emin QƏRİBLİ,**
**iqtisadçı-ekspert**

İqtisadi münasibətlərin bərpası və yenidən aktivləşməsi, ilk növbədə, region iqtisadiyyatına yaxşı təsir göstərəcək. Bu çərçivədə Naxçıvanda istehsal olunan məhsulların ixrac imkanları genişlənəcək, yeni bazarlara çıxış daha real olacaq.

Ermənistanın blokada şəraitindən çıxması regional ticarət axınlarını canlandıra bilər. Bu proses ixrac coğrafiyasını da genişləndirəcək. Türkiyənin şərq bölgələrinə, eləcə də Avropa bazarlarına göndərilən məhsulların qiyməti ucuzlaşacaq. Digər mühüm məqam isə bölgədə iqtisadi münasibətlərin formalaşmasının yaratdığı "sülh effekti"dir. Bu amil investisiya cəlbi baxımından xüsusilə əhəmiyyətlidir. İnvestorlar nəqliyyat dəhlizlərinə və ixracyönümlü layihələrə yatırım edərkən ilk növbədə regional sabitliyə və təhlükəsizlik mühitinə diqqət yetirirlər. Münaqişə riski azaldıqca investisiya marağı da artır.

Bu baxımdan TANAP və TAP kimi strateji enerji layihələrinin ixrac potensialına da müsbət təsir gözlənilir. İnvestorlar bölgədə problemlərin aradan qalxdığını, iqtisadi əlaqələrin bərpa olunduğunu gördükcə Azərbaycan, Ermənistan və ümumilikdə region ölkələri investisiya baxımından daha cəlbedici olacaq. Bu prosesin siyasi dividendləri də mövcuddur, lakin əsas diqqət iqtisadi nəticələr üzərində cəmlənməlidir.

Digər mühüm məsələ ondan ibarətdir ki, indiyədək bir çox beynəlxalq şirkətlər Qafqaz regionunda nümayəndəliklərini əsasən Tiflisdə açmağa üstünlük veriblər. Bunun əsas səbəblərindən biri regiondaxili münasibətlərin zəifliyi olub. Yeni şəraitdə isə bu şirkətlərin mərkəzi ofislərini Azərbaycanda açmaq imkanları genişlənəcək. Hazırda satışlarının əsas hissəsini Azərbaycan bazarında həyata keçirən, lakin mərkəzi ofisi Tbilisidə yerləşən çoxsaylı şirkətlər mövcuddur və bu da ölkə üçün ciddi maliyyə itkisinə səbəb olur. Yeni reallıqlar Azərbaycanın regional biznes mərkəzinə çevrilməsini mümkün edir.

Ən vacib məqamlardan biri də ərazimizdən keçən nəqliyyat dəhlizlərinin işləkliyidir. Zəngəzur dəhlizinin bərpası yalnız bir marşrutun açılması anlamına gəlmir. Gələcəkdə bu dəhliz vasitəsilə dəmir yolu xətləri, Qazax istiqamətindən yük axınları və müxtəlif məhsul daşımaları həyata keçirilə bilər. Bu isə dəhlizlərin şaxələndirilməsinə və regionun logistik imkanlarının genişlənməsinə şərait yaradacaq.

# Sumqayıt – hərtərəfli yeniləşmənin və estetik memarlığın ünvanı

**2025-ci il Sumqayıt şəhəri üçün inkişaf və sabitlik ili kimi yadda qalıb. İnfrastrukturun yenilənməsi, sosial obyektlərin bərpası, təhsil və səhiyyə sahəsində həyata keçirilən tədbirlər, müəyyən ərazilərdə aparılan asfaltlanma prosesləri, yol, su, qaz və elektrik təchizatının yaxşılaşdırılması, yaşıllaşma işlərinin daha geniş vüsət alması şəhərimizə olan diqqət və qayğının bariz nümunəsidir.**



Əlbəttə ki, Sumqayıt son illər ərzində tamamilə yeni bir sima, yeni bir obraz və nəfəs qazanıb. Bu gün şəhərdəki modern quruculuq işləri və estetik arxitektura şəhərin ümumi ruhunu büsbütün dəyişib. Sumqayıt bu gün təkcə sənaye şəhəri deyil, yaşamaq, qurmaq və gələcək nəsillər üçün örnək yaratmaq istədiyimiz bir şəhərdir.

Bütün bu uğurlar möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və məqsədyönlü inkişaf siyasətinin real nəticəsidir. Eyni zamanda, Prezidentin müəyyən etdiyi inkişaf strategiyasının Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov tərəfindən uğurla və məsuliyyətlə icra olunduğunun göstəricisidir.

*

Zənnimcə, istənilən şəhərin inkişafını stimullaşdıran kod mövcuddur. Rus tədqiqatçısı N.Antsiferova görə, şəhərin təkində gizlənmiş və istənilən tarixi proseslərdə dəyişən şəhərin kodunu açmaqla həmin şəhərlə spiritual əlaqəyə girmək olar.



Sumqayıt üçün belə bir kod onun sənayesidir və bunu hamıdan öncə Ümummilli lider Heydər Əliyev, ondan sonra isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dəqiq müəyyən etmişdir: "Sumqayıt hazırda nəinki Azərbaycanın, Cənubi Qafqazın ikinci böyük sənaye şəhəridir və müasir sənaye mərkəzidir"! Bu, Heydər Əliyevdən gələn ənənənin novator üslub və dəst-xəttlə davam etdirilərək imza atılan uğurların sonucunda səsləndirilən fikirlərdir. Elə bu uğurların nəticəsidir ki, şəhərdə fəaliyyət göstərən zavodların mövcudluğu bu gün həm dövlət iqtisadiyyatının güclənməsinə töhfə verir, həm də insanların işlə təmin olunmasına yollar açır. Hazırda ölkəmizdə 8 sənaye parkı və 4 sənaye məhəlləsi fəaliyyət göstərir, 3 sənaye parkı inşa edilir. Bu sənaye zonalarına 7 milyard manat investisiya qoyulub, 104 müəssisə və 11 min iş yeri yaradılıb. Ölkəmizin qeyri-neft-qaz sənaye potensialının güclənməsində Sumqayıtın oynadığı rol danılmazdır.

Yanvarın 26-da cənab Prezident İlham Əliyevin Sumqayıt Sənaye Parkında polipropilen və laminatlı kisə istehsalı müəssisəsinin təməlini qoyması, "Bakı Karton və Qutu Fabriki" MMC-nin karton və qutu taralarının istehsalı müəssisəsinin, eləcə də güzgü vərəqələrin istehsalı zavodunun açılışında iştirakı Sumqayıtı sənaye şəhəri kimi bir daha ön sıralarda qərarlaşdırır. Bu sırada, qürurdoğuran bir faktı da qeyd etmək istəyirəm. Bu il, yanvarın 19-da Prezident İlham Əliyevin Davos İqtisadi Forumunda iştirakı çərçivəsində "SOCAR Karbamid" zavoduna Dünya İqtisadi Forumunun "Rəqəmsal mayak" mükafatı təqdim edildi. Qeyd edək ki, "SOCAR Karbamid" Azərbaycanda fəaliyyət göstərən müəssisələr arasında bu təltifə layiq görülən ilk zavoddur və təbii ki, bu nailiyyət sistemli transformasiya, innovasiya və rəqəmsallaşma istiqamətində səmərəli fəaliyyətin, 4.0 texnologiyalarının iş prosesinə yüksək effektivliklə tətbiqinin nəticəsidir. Bütün bu göstəricilər sənaye anlayışını Sumqayıt üçün kod amilə çevirir.

Amma şəhərlərin yalnız kodu yoxdur, həm də ruhu var. Və bu ruh orda yaşayan insanların yaratdığı mədəni dəyərlər əsasında formalaşır. Bu mənada, Sumqayıt hər zaman quran, yaradan zəhmətkeş əllərin şəhəri olub. Bakıdan sonra fırlanan çarxların səsi ən çox Sumqayıtda eşidilib. Hətta düşünmək olar ki, Sumqayıtın sənaye ilə daxili-ruhsal bağlılığı yalnız quruculuq prosesi ilə əlaqədar amil deyil, həm də təfəkkür hadisəsidir. Yəni sənayeyə bağlılıq sumqayıtlıların dünyagörüşündə yaşamın dərki və göstəricisi üçün etalon hesab edilib, sərt metallarla işləmə sanki şüuraltı xarakter formalarının yaranışına yol açıb. Sənaye atributları bərk substansiya kimi burada yaşayan insanların gücünü, iradəsini, dözümünü ifadə edən simvola çevrilib. Bəlkə buna görə sumqayıtlılar 1988-ci ilin fevralında, ermənilərin mənfur təxribat xarakterli qırğınlarının ağrısını da əzmlə dəf ediblər, iki dəfə Qarabağ uğrunda savaşlarda şəhid olan qəhrəman oğullarımızın itkisinə də mətanətlə sinə gərməyi bacarıblar. Beləcə, Sumqayıt illərdən illərə fərəhli proseslərlə yanaşı, fəci və dramatik mərhələlərdən da keçib. Onu da qeyd etmək lazımdır ki, şəhid və qazi ailələrinə göstərilən diqqət, onların müəyyən tələb və ehtiyaclarının qarşılanması prosesi ötən il də daxil olmaqla, şəhər rəhbərliyinin diqqət mərkəzində olub. Əlbəttə, bu, belə də olmalıdır. Biz bu gün güclü, müstəqil və qalib bir ölkədə yaşayırıqsa, bunu şəhidlərimizin canı və qanı bahasına əldə etmişik. Bu torpağın hər qarışı, bu şəhərlərin hər daşı şəhidlərimizin xatirəsi ilə yoğrulub. Ona görə də şəhid ailələrinə göstərilən hər bir diqqət, hər bir qayğı sadəcə sosial məsələ deyil – bu, milli vicdan məsələsidir. Sadəcə onların problemlərinə həssas yanaşılması, müraciətlərinin vaxtında həlli, mənzil və sosial təminat məsələlərinin diqqətdə saxlanılması cəmiyyətimizdə həmrəylik və ədalət hissini daha da gücləndirən amillər sırasındadır.

İstisnasız, görülən bütün işlərin mərkəzində insan dayanmalıdır. Vətəndaş məmnunluğu, şəffaflıq, açıq dialoq və operativlik şəhər idarəçiliyinin əsas prinsipləri olmalıdır. Sevindirici haldır ki, Sumqayıtda bu prinsiplərin getdikcə daha çox tətbiq olunduğunu görürük və bu, gələcək üçün ümidverici bir mənzərə yaradır.

*

Son iyirmi ildə Sumqayıtın inkişafı bütünlükdə İlham Əliyevin adı ilə bağlıdır. Bu illər ərzində dövlət başçısı Sumqayıta 34 dəfə səfər etmiş, hər gəlişi şəhərin mənəvi həyatında hansısa mühüm prosesin, quruculuq hərəkatının göstəricisinə çevrilmişdir. Hələ hakimiyyətinin birinci dövründə Heydər Əliyevin Sumqayıtla bağlı qarşıya qoyduğu vəzifə onun ənənəvi sənaye kompleksi kimi bərpa edilməsi idi. Möhtərəm Prezident İlham Əliyevin tapşırıq və nəzarəti altında, diqqət və qayğısı nəticəsində Sumqayıt regionun sənaye mərkəzi ilə yanaşı, mədəniyyət mərkəzinə çevrildi.

Əslində xalqın və millətin əbədiliyini təmin edən, onun dövlət quruculuğunun memarı olan görkəmli şəxsiyyətlər həm də mədəni quruculuq sahəsində gerçəkləşdirdiyi böyük amallar, tarixi yaddaş salnamələri ilə eyni vaxtda tarix səhnəsinə daxil olmuşlar. Bunun məntiqi yekunu və ifadəsidir ki, bu gün Sumqayıtda Bayraq muzeyinə layiqli tərəf-müqabil kimi Tarix muzeyi ucalıb. Şahmat məktəbi ilə yanaşı, İncəsənət məktəbi özünə yer edib. Kimyaçılar Sarayı ilə yanaşı, Sumqayıt Dram Teatrının yeni dizaynda inşası həm də qorunan mənəvi missiyanın abidəsi kimi əbədiləşib. Əzəmətli Heydər Əliyev Mərkəzinin yanında elə eyni əzəmətdə Yeni Azərbaycan Partiyasının Sumqayıt şəhər təşkilatının binası qərarlaşıb. Bunlar Sumqayıtda milli-mənəvi estafetin, ədəbi-bədii, mədəni mühitin fasiləsizliyindən xəbər verən amillərdir.

Mədəniyyət konsepsiyası İlham Əliyevin bədii-estetik və humanitar-fəlsəfi görüşlərində hər zaman aparıcı, prioritet mövqeyi təşkil edib. Bu gün ölkə başçısı üçün elm, sənət və mədəniyyət sahəsində fundamental strateji məqsəd – Azərbaycan xalqının mənəvi irsini dünya mədəniyyətinin inkişafı kontekstində inkişaf etdirməkdir. Mən 2025-ci ilin son aylarında cənab Prezidentin imzaladığı iki sərəncama - I Türkoloji Qurultayın 100 illiyi və "Şəhərsalma və Memarlıq İli" ilə bağlı sərəncamların növbəti ilə hədəflənmiş strateji məqamlarına diqqət yönəltmək lazımdır. Eyni zamanda, bu ayın ilk müjdəsi kimi imzalanan "Azərbaycan Mədəniyyəti – 2040" Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın təqdim edilməsi haqqında sərəncamdan bəhs etmək yerinə düşər.

Təbii ki, inkişafın əsas göstəricilərini özündə ehtiva edən Sumqayıt bu il də milli-sosial inkişafın, ədəbi-mədəni hərəkatın müstəqil dövlətçilik ideologiyasının tələb və meyarları ilə səsləşən yeni məzmun və keyfiyyət nümayiş etdirəcək.

İllər öncə Sumqayıtın istər quruculuq, istərsə də təşkilati-struktur cəhətdən idarə olunmasında ciddi yeniləşmələrə ehtiyac olduğunu hamıdan əvvəl İlham Əliyev hiss etmiş, böyük quruculuq işlərinə imza atmışdır. Niyə? Çünki qurulan, tikilən hər bir abidə mədəni varlığımızın simvolu kimi yaşayır və tarixi yaddaşımızı yaşadır. İndi çoxları bilir ki, mədəniyyət anlayışı şəhər sözü ilə sinonimdir. Şəhər mədəniyyətin özü deməkdir. Bir qədər əvvəl I Türkoloji Qurultayın adını çəkdim. 1926-cı ildə Türkoloji Qurultay günlərində Bakı uzaq ölkələrdən gəlmiş qonaqlarını öz cazibədar arxitekturası ilə qarşılamışdı. Nümayəndələrin elə həmin günlərdə yazdıqları xatirə qeydlərinə, gündəliklərinə istinadən deyə bilərik ki, Bakı onları həm intellektual səviyyəsinə, həm də əsrarəngiz memarlıq xüsusiyyətlərinə görə valeh etmişdi. Qurultay Şərq və Qərb memarlığının sintezindən yaranmış nadir İsmailiyyə binasında keçirilmiş, qurultay bitəndən sonra nümayəndələr tariximiz barədə təsəvvür əldə etmək üçün Şirvanşahlar sarayını ziyarət etmişdilər. Opera teatrında "Leyli və Məcnun" tamaşasına baxmışdılar. Tamaşaya baxan nümayəndələrdən biri (alman alimi Menzel) o illərdə yazdığı gündəlik qeydlərində opera haqqında təəssüratdan daha çox, opera teatrının binası barədə təəssüratlarını bölüşür, "Teatr binası olduqca gözəldir. Şərq üslubunda tikilib", - deyə qeydlər edirdi.

İndi "Konstitutsiya və Suverenlik İli"ndən sonra "Şəhərsalma və Memarlıq ili"nə daxil olmuşuq. Əslində, bütün bu illərə rəmzi səciyyə verməklə cənab İlham Əliyev Vətənin yetişəcək yeni nəsilləri üçün milli birlik düsturunu yaradır. O mənada ki, bu gün inşa edilən Tarix Muzeyi, Bayraq muzeyi, Muğam Mərkəzi – Sumqayıtın ən gözəl məskəninə çevrilmiş bu tikililər yalnız inzibati məkanlar, elmin və sənətin qapısına yazılan coğrafi adlar, ünvanlar deyil. Bu mənəvi məbədlərin çölündə yox, içində artıq ehtiva etdiyi adlarla ifadə və təmsil olunan milli-əxlaqi dəyərlər və bədii-estetik sərvətlər yaşayır, xalqın min illik tarixi təcrübəsi, ibrət və hikmət dünyası yaşayır və ona görə qorunur ki, formalaşan gənclərə sağlam bir gələcək ərməğan edilsin.

Yaxud Sumqayıt bulvarı! Sumqayıt bulvarı yalnız coğrafi hüduda, inzibati sərhədə malik məkan deyil. O, həm də Sumqayıtın varlığını ifadə edən ontoloji zərurətdir. İnşası müəyyən məkandan başlasa da, sanki əbədiyyətə qədər uzanır. Bəlkə buna görə möhtərəm Prezident Sumqayıt bulvarını "möcüzə" adlandırmışdır. Möcüzədirsə də, onun memarı elə Özüdür!



*

Bu yaxınlarda yazıçı-dramaturq Əli Əmirlinin "Qanun" nəşriyyatında çap olunan "Ölü doğan şəhər" kitabını əldə edib oxudum. Əsər bütünlüklə Sumqayıt hadisələrinə həsr olunmuşdu. 1980-ci ilin ortalarında Sumqayıtda mövcud ekoloji vəziyyət, bu neqativ ekologiyanın doğulacaq uşaqların sağlamlığına, taleyinə amansız təsiri əsərdə bədii təcəssüm predmetinə çevrilir. Bu gün isə Sumqayıt artıq şəhər kultu kimi meydandadır və bu amil, Sumqayıtın bugünkü reallıq imkanlarını ehtiva edən ən mühüm göstəricidir. Şəhər kultu nədir?

Böyük qırğız yazıçısı Çingiz Aytmatov "Kassandra damğası" əsərində yazır ki, sülh anlayışını gətirən ilkin amil şəhər kultunun yaradılmasıdır. Yadımıza salaq, İkinci Dünya müharibəsindən sonrakı Almaniya, yaxud Xirosima və Naqasaki faciəsini yaşayan, bombalandıqdan sonra xərabəliklər, dağıntılar altında inləyən Yaponiya və bu dövlətlərin özlərini sıfırdan qurmaq, yaratmaq bacarığı! Nəyin sayəsində! Bütün digər amillərlə yanaşı, şəhər kultunun dirçəldilməsi ilə! Sumqayıtda bu proses 10 ildən artıqdır ki, tam modern vüsətlə aparılır.

Kulturoloq Itamar Even-Zoharın Avropa millətlərinin formalaşmasında şəhər kultunun roluna dair maraqlı bir nəzəriyyəsi var. O, qeyd edir ki, bu gün özünü alman, fransız, italyan, ispan, çex, bolqar, serb, xorvat adlandıran xalqları millət edən şəhər kultuna münasibətləri olub. Əvvəllər Avropanın siyasi baxımdan bölünmüş ərazilərində öz milli kimliyini bilməyən milyonlarla sakin yaşayırdı, məhz şəhər kultu həmin parça-parça tayfaları birləşdirdi. Halbuki bizə tarix dərslərində öyrədirdilər ki, Almaniya ərazisindəki onlarca kiçik alman dövlətini Bismark birləşdirib. Itamar Even-Zohar isə "Avropa millətlərinin formalaşmasında şəhər kultunun rolu" adlı məqaləsində Goldstein-ə istinadən yazır ki, şəhər kultunu yaratmağı meyara çevirənlərin yaratdığı mənəvi bünövrə olmasaydı, Bismark bizi birləşdirə bilməzdi.

Diqqət eləsək, Sumqayıt da ən çətin günlərdə həmin birləşdirici missiyanı yerinə yetirib - körpü olub, Qarabağın müxtəlif



ərazilərindən Sumqayıta pənah gətirmiş insanlar üçün ortaq mənəvi əraziyə çevrilib. Dövlət başçısının diqqəti, təəssübkeşliyi sayəsində isə onları birləşdirən şəhər kultu yaranıb. Sumqayıtın şəhər kimi özəlliyi məhz, bu nöqtədədir. Bu prosesdə sözsüz ki, böyük təşəkkür borcu həm də Sumqayıt şəhər icra hakimiyyətinin başçısı Zakir Fərəcovun payına düşür. Çünki Prezident İlham Əliyevin diqqət və qayğısına əməli vüsət və mündəricə qazandıran, bu yolda bütün təşkilati təcrübə və bacarığını vahid ideoloji məram ətrafında birləşdirib özünün funksional iş prinsipinə çevirən az sayda şəhər rəhbərlərindəndir Zakir Fərəcov!

Ötən il Sumqayıt şəhərinin 75 yaşı tamam oldu. 75 il – zamandan fəth olunan nəhəng zirvə deməkdir. Və bütün sarsıntılara, tarixin acı səhifələrinə rəğmən, bu zirvədə görünən ilkin amil budur – Sumqayıtın əzəli və əbədi gözəlliyi yeni estetik mərhələyə adlayıb. Modern inkişaf mərhələsinə! "Sumqayıt kiçik Azərbaycandır"! Ümummilli lider Heydər Əliyevin vaxtilə Sumqayıta verdiyi bu dəqiq təyin yenə də dominantlığını qoruyur. Sumqayıt doğrudan da kiçik Azərbaycana oxşayır! Öz gücünü artırmaqla dünyaya meydan oxuyan, çoxhədəfli, məzmunlu, humanist mahiyyətli, sülh, barış, əmin-amanlıq istəyi ilə xilas yolları arayan, mədəniyyət körpüləri quran, multikultural dəyərlərlə yaşayan Azərbaycana!

Əlbəttə ki, gələn il üçün də müəyyənləşən hədəflər və prioritetlər var. Uğurlardan bəhs etmək problemlərin olmaması anlamına gəlməməlidir. Xüsusilə, şəhərin ucqarlarında salınmış ərazilərində yol problemi var, evlərin sənədləşməsi problemi hələ də həllini gözləyir. Orada insanlar üçün çox gözəl evlər tikilib. Evlərə yaxın ərazilərdə məktəblərin inşası, uşaq meydançalarının salınması, idman salonlarının, mədəniyyət evlərinin tikilməsi yaxşı olardı. Bunlar əlbəttə ki, yalnız şəhər rəhbərliyinin təkbaşına edə biləcəyi işlər deyil. Bunun üçün dövlət səviyyəsində bütün aidiyyəti qurumların həmrəyliyi, kollegial əməyi lazımdır.

Bu gün Sumqayıtın yenidən qurulması prosesi gələcək nəsillər üçün də böyük əhəmiyyət daşıyır. Tikilən hər bina, salınan hər park, abadlaşdırılan hər məhəllə sabah bu şəhərdə böyüyəcək uşaqlar üçün daha sağlam, daha təhlükəsiz bir mühit deməkdir. Bu baxımdan şəhərsalma siyasəti yalnız bu günü deyil, onillikləri hədəfləyən uzaqgörən bir yanaşmadır. Əminəm ki, bu yol ardıcıl şəkildə davam edəcək və Sumqayıt yaxın illərdə daha gözəl, daha müasir, daha güclü və yaşamaq üçün daha cəlbedici bir məkana çevriləcək!



***Elnarə AKİMOVA,***
***Milli Məclisin deputatı,***
***filologiya elmləri doktoru***

*Alıcısansa, aldadılmalısanmı?*

# Rəflərdə aşağı qiymət, kassada yüksək ödəniş?!

**Ticarət obyektlərində alış-veriş edən vətəndaşların ən çox rastlaşdığı, lakin əksər hallarda səssiz qalmağa üstünlük verdiyi problemlərdən biri məhsulun vitrində göstərilən qiyməti ilə kassa çeki üzərində əks olunan məbləğin fərqli olmasıdır. Bu fərq bəzən bir neçə qəpik, bəzən isə daha ciddi məbləğ təşkil edir. Alıcıların böyük qismi isə ya vaxt itirməmək, ya mübahisədən yayınmaq, ya da "nəticəsi olmayacaq" düşüncəsi ilə bu uyğunsuzluğu görməzlikdən gəlir. Halbuki söhbət sadə texniki xətadan yox, istehlakçı hüquqlarının birbaşa pozulmasından gedir.**

## Ucuzdan bahası yoxdur...

Azərbaycan qanunvericiliyi bu məsələni kifayət qədər aydın və konkret şəkildə tənzimləyir. "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" və "Ticarət fəaliyyəti haqqında" qanunlara əsasən, satış yerində və ya onlayn platformada məhsulun üzərində göstərilən qiymət satıcının rəsmi təklifi hesab olunur. Qiymət etiketi hüquqi baxımdan açıq və dəyişdirilə bilməyən öhdəlikdir. Əgər kassada fərqli məbləğ tələb olunursa, bu, artıq satıcı təklifinin birtərəfli qaydada dəyişməsi kimi qiymətləndirilir və qanun pozuntusu hesab edilir.

Qanunvericilikdə açıq şəkildə qeyd edilir ki, alıcının məhsulu onun altında göstərilən qiymətə almaq hüququ var, satıcının isə bu təklifdən imtina etmək əsası yoxdur. Kassada "sistem belə göstərir", "qiymət yenilənməyib", "etiket köhnədir" kimi arqumentlər isə hüquqi əsas daşımır. Buna görə də rəflərdə göstərilən qiymət əsas götürülməli və satış məhz həmin məbləğlə həyata keçirilməlidir.

Aşağı, sərfəli görünən qiymətlərin arxasında isə bir qayda olaraq, həmin malın aşağı keyfiyyəti, köhnəliyi dayanır. Yəni ucuz mal onu alana baha başa gəlir.

## Kiçik fərq, böyük itki

Əksər hallarda istehlakçı bu cür halları xırda və əhəmiyyətsiz hesab edir. Bir məhsul üzrə 20-30 qəpik artıq ödəniş etmək alıcıya problem kimi görünmür. Amma məsələ məhz buradan başlayır. Belə ki, bir alıcının susduğu yerdə, onlarla, yüzlərlə alıcı eyni vəziyyətlə üzləşir və nəticədə bu "xırda fərqlər" böyük qanunsuz qazanca çevrilir. Sistemli şəkildə tətbiq olunan bu cür satış üsulu bazarda qiymət intizamını pozur, alıcının inamını sarsıdır və qeyri-sağlam rəqabət mühiti yaradır.

Onlayn alış-veriş zamanı isə vəziyyət daha da mürəkkəbləşir. Reklamda və ya sayt üzərində bir qiymət göstərilir, sifariş təsdiqlənərkən isə əlavə xərclər, xidmət haqları və ya fərqli məbləğ ortaya çıxır. Bəzən isə məhsulun keyfiyyəti, funksiyaları və ya texniki göstəriciləri reklamda diqqətə çatdırıldığı kimi olmur. Lakin qaytarma və dəyişdirmə prosedurlarının çətinliyi alıcını yenə də susmağa vadar edir.

Rəsmi statistikaya nəzər saldıqda mənzərə daha düşündürücü görünür: 2025-ci ildə ölkə üzrə ticarət və xidmət dövriyyəsi 60 milyard manatı ötüb. Amma milyonlarla əməliyyatın baş verdiyi bu bazarda cəmi 47 inzibati protokolun tərtib olunması reallığı əks etdirmir. Bu rəqəm onu göstərir ki, istehlakçı hüquqları pozulmur, əlbəttə, bu, inandırıcı deyil. Ona görə ki, əslində, pozuntular qeydə alınmır. Səbəb isə istehlakçı laqeydliyi, hüquqi inamsızlıq və şikayətlərə diqqət yetirilməməsidir. Başqa sözlə, problem danışılmadığı və rəsmi müraciətə çevrilmədiyi üçün statistikada nəzərə çarpmır. Bu isə bazarda süni "sakitlik" illüziyası yaradır.

## Bazarın görünməyən üzü

İstehlak bazarında geniş yayılmış digər ciddi problem məhsul və xidmətlərin aldadıcı şəkildə təqdim olunmasıdır. Reklamlarda tez-tez "ən yaxşı", "yüksək keyfiyyət", "tam zəmanət", "unikal imkanlar" kimi ümumi və sübut olunmayan ifadələrdən geniş istifadə olunur. Xüsusilə elektronika və texnologiya sektorunda bu hallar daha qabarıq şəkildə özünü göstərir. Məsələn, "suya davamlı" kimi təqdim edilən cihazın, əslində, yalnız cüzi nəmə qarşı dayanıqlı olması alıcının açıq şəkildə aldadılmasıdır. Vətəndaş məhsulu reklamda verilən vədlərə əsasən alır, lakin istifadə zamanı həmin xüsusiyyətlər nəzərə çarpmır. Nəticədə həm maddi zərərə düşür, həm də hüququ pozulur.

Endirim kampaniyaları da manipulyasiyanın əsas üsullarından biridir. Belə ki, satıcı əvvəlcə qiyməti süni şəkildə artırır, sonra isə "50 faiz endirim" elan edir. Alıcı isə bunun bir ucuzlaşma kampaniyası olduğunu düşünür, əslində isə məhsulu bazar qiymətinə alır. "Yalnız bu gün", "son şans", "məhdud sayda" kimi ifadələr psixoloji təzyiq vasitəsi kimi istifadə olunur və alıcını düşünmədən qərar verməyə sövq edir.

## Geri də qaytarmırlar...

Keyfiyyətsiz və ya qüsurlu məhsulun geri qaytarılması istehlakçı üçün ən çətin mərhələlərdən biridir. Qanun alıcıya bu hüququ açıq şəkildə tanısa da, təcrübə tam fərqlidir. Bir çox satıcılar bu hüququ ya tanımır, ya da bilərəkdən pozur. "Alınan mal geri qaytarılmır" kimi elanlar isə birbaşa qanun pozuntusudur. Xüsusilə iri ticarət mərkəzlərində və bazarlarda, o cümlədən Sədərək və Binə kimi nəhəng komplekslərdə bu hallar daha geniş yayılıb. Çeksiz satış, qeyri-rəsmi ödənişlər və məsuliyyətsizlik alıcını demək olar ki, hüquqsuz vəziyyətdə qoyur. Məhsul qüsurlu çıxdıqda isə alıcı nə satıcı, nə də hüquqi əsas tapa bilmir.

**İqtisadçı Xalid Kərimlinin** qeyd etdiyi kimi, bu məsələdə əsas problemlərdən biri vətəndaşların hüquqi maariflənmə səviyyəsinin aşağı olmasıdır. Bu səbəbdən alıcı hara müraciət edəcəyini, hansı sənədlərin lazım olduğunu bilmir. Digər tərəfdən, müvafiq dövlət orqanına inamın zəifliyi, prosedurların uzun və nəticəsiz qalacağı düşüncəsi də şikayətlərin sayını azaldır.



Sahibkarlıq sahəsində yoxlamalara qoyulan müəyyən məhdudiyyətlər də vəziyyəti çətinləşdirir. Hər hansı bir dövlət qurumu vətəndaş müraciəti və ya ciddi ictimai rezonans olduqda hərəkətə keçir. Belə şərait isə önləyici nəzarəti zəiflədir və bəzi satıcılara nəzarətsiz fəaliyyət imkanı yaradır.

Ədalətli istehlak mühitinin formalaşması yalnız dövlətin deyil, həm də alıcının məsuliyyətidir. Hüququnu bilməyən və onu tələb etməyən istehlakçı qeyri-şəffaf bazarın formalaşmasına dolayısı ilə şərait yaradır. Ona görə də alıcı alış-verişdən öncə məlumatlı olmalı, qəbz və müqavilə tələb etməli, zəmanət və qaytarma şərtlərini dəqiqləşdirməlidir. Hüququ pozulduqda isə Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinə və ya məhkəməyə müraciət etməkdən çəkinməməlidir.

## Xaricdə alıcı haqlı sayılır

İnkişaf etmiş ölkələrdə istehlakçı hüquqlarının qorunması, bu sahədə qanunlara ciddi əməl edilməsi daim diqqətdə saxlanılır. Avropa İttifaqı (Aİ) ölkələrində, ABŞ-da və bir sıra Asiya dövlətlərində vitrində göstərilən qiymətlə kassa qiyməti arasında uyğunsuzluq ciddi hüquq pozuntusu hesab olunur və satıcı üçün ciddi maliyyə sanksiyaları ilə nəticələnir. Məsələn, Aİ-nin "Qiymətlərin göstərilməsi haqqında" təlimatına əsasən, istehlakçıya təqdim edilən qiymət son və dəyişməz qiymət hesab olunur. Əgər kassada daha yüksək məbləğ tələb edilərsə, alıcı dərhal vitrində göstərilən qiymətə alış etmək hüququna malikdir və satıcı bu qaydanı pozduqda yüksək cərimə ilə üzləşir. Bir çox Avropa ölkələrində bu cərimələr təkcə konkret məhsula görə deyil, eyni zamanda, bütün satış nöqtəsinə tətbiq olunur ki, bu da satıcıları sistemli pozuntulardan çəkindirir.

Almaniya, Fransa və Niderlandda istehlakçılar üçün xüsusi sürətli şikayət mexanizmləri mövcuddur. Belə ki, alıcı mağazada qiymət uyğunsuzluğu ilə rastlaşdıqda mobil tətbiq və ya onlayn platforma üzərindən dərhal müvafiq quruma müraciət edə bilir. Bu müraciətlər dərhal nəzarət orqanlarının sisteminə düşür və satıcı izahat verməyə məcbur qalır. Maraqlıdır ki, bu ölkələrdə istehlakçıların böyük qismi məbləğin kiçik və ya böyük olmasından asılı olmayaraq hüquqlarını tələb edir. Çünki ictimai şüurda "susmaq problemi böyüdür" anlayışı var.

ABŞ-da isə Federal Ticarət Komissiyası aldadıcı qiymət təqdimatlarını və saxta endirim kampaniyalarını "istehlakçının aldadılması" kimi dəyərləndirir. Burada "saxta endirim" anlayışı ayrıca hüquqi kateqoriya sayılır. Əgər satıcı əvvəlcə qiyməti süni şəkildə artırıb, sonra "endirim" adı altında təqdim edirsə, bu, birbaşa cərimə və məhkəmə iddiaları ilə nəticələnir. Bir sıra hallarda isə ticarət müəssisələri milyonlarla dollar kompensasiya ödəməyə məcbur qalır.

Bir sıra inkişaf etmiş ölkələrdə istehlakçıların aldadılmasına qarşı fərqli mübarizə qaydaları da mövcuddur. Məsələn, əsas diqqət cəzalandırılmadan çox, önləyici mexanizmlərə yönəldilir. Dövlət orqanları mütəmadi olaraq bazarı monitorinq edir, istehlakçı davranışlarının təhlilini aparır və riskli sahələr üzrə xəbərdaredici yoxlamalar keçirir. Nəticədə pozuntular baş verməmədən öncə qarşısı alınır. Yaxud bu ölkələrdə istehlakçı hüquqlarının qorunmasının əsas dayaqlarından biri də ictimai qınaq mexanizmidir. Hüquq pozuntusuna yol verən ticarət müəssisələrinin adları ictimaiyyətə açıqlanır. Brend imicinin zədələnməsi isə satıcılar üçün cərimədən daha təsirli vasitə hesab olunur.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*

**Eyyub HÜSEYNOV,**
**Azad İstehlakçılar Birliyinin sədri**



Müxtəlif satış məntəqələrində, bazarlarda məhsulların üzərində göstərilən qiymətdən baha satılması ilə bağlı bizə tez-tez müraciətlər ünvanlanır, bu cür halların texniki səhv, yoxsa məqsədli şəkildə baş verdiyi soruşulur? Qeyd edim ki, artıq neçə ildir ki, marketlərdə bu yolla müştərilər aldadılır. Ticarət müəssisələrinin rəflərində bir, kassada isə başqa bir qiymətin olması çox geniş yayılmış istehlakçı problemidir. Bizə hər gün bu barədə şikayətlər daxil olur. Çox sayda istehlakçının aldadılması müşahidə olunur. Hələ mən çəkidə aldadılmanı demirəm. Bu, daha çox bazarlarda, kiçik marketlərdə baş verir. İri marketlərdə isə istehlakçıların əsasən qiymətdə aldadılması diqqət çəkir.

Bir qayda olaraq, istehlakçı rəfdə məhsulun qiymətinin ucuz, kassa çekinə baxanda isə baha satıldığını görür. Bəzən etiraz edir, məhsul qaytarılır, bəzən isə səs-küy salmaq istəmir, razılaşıb çıxıb gedir. Bu cür hallarla qarşılaşan vətəndaş, ilk növbədə, kassa çekinə diqqət yetirməli, fərq olduqda həm çekin, həm də məhsulun rəf qiymətinin şəklini çəkərək mağaza rəhbərliyinə müraciət etməlidir.

Birmənalı şəkildə deyirəm, marketlərdə sözügedən narahatlıqla bağlı satıcılara müraciət edəndə bildirəcəklər ki, "yadımızdan çıxıb". İstehlakçının rəfdə hansı qiyməti görübsə, onu ödəmək hüququ var. Bu zaman alıcı digər bir istehlakçının qayğısına qalırsa, başqa sözlə, özünü onun yerinə qoyaraq qarşı tərəfin hisslərini, düşüncələrini anlayıb dərk edə bilirsə, mütləq ikinci kassa çekini də götürməlidir. Bu barədə Prezident yanında Antiinhisar və İstehlak Bazarına Dövlət Nəzarəti Agentliyinə müraciət ünvanlayıb, həmin mağazada yoxlamalar həyata keçirilməsini tələb etməlidir.

Təəssüf ki, dövlət orqanları çox vaxt mediada yayılan materialları izləmir, onun izinə düşmür. Halbuki cənab Prezident dəfələrlə bildirib ki, mən bir çox məsələləri KİV-dən öyrənirəm. Bəs dövlət orqanları niyə izləmir, niyə təqib etmir? Bax, indi görək sizin bu material izləniləcəkmi, yoxlama aparılacaqmı? Bizi bu məsələ çox narahat edir. Bu, həddindən artıq ciddi bir problemdir.

*Sosial gündəm*

**Ölkəmizin sosial müdafiə sisteminin mühüm komponentlərindən biri sosial xidmətlərdir. Son illərdə Prezident İlham Əliyevin tapşırıqları əsasında həssas qrupların, xüsusi qayğıya ehtiyacı olan şəxslərin sosial xidmətlərlə təminatı da daim genişlənir.**

# Aztəminatlılara dövlət dəstəyi genişlənir



Müsahibimiz **Sosial Xidmətlər Agentliyinin İdarə Heyətinin sədri Vüqar Behbudov** bildirdi: "Agentlik 6 ilə yaxındır ki, sosial xidmətə ehtiyacı olan şəxslərə xidmət göstərir, onların sosial müdafiəsi və rifahının yaxşılaşdırılması, habelə övladlığagötürmə və himayədar ailə ilə bağlı dövlət siyasətinin və tənzimləmənin həyata keçirilməsi istiqamətində fəaliyyətini davam etdirir. Fəaliyyət istiqamətlərimizə uyğun olaraq vətəndaşlarımıza səyyar, stasionar və yarımstasionar formada sosial xidmətlər göstəririk".

**– Sosial Xidmətlər Agentliyi tərəfindən həyata keçirilən sosial dəstək tədbirləri barədə məlumat verməyinizi xahiş edirəm.**

– Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun möhtəşəm Zəfərlə başa vurduğu 44 günlük Vətən müharibəsindən sonra da həssas əhali qruplarından olan vətəndaşlarımızın sosial müdafiəsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. Bu tədbirlərin əhəmiyyətli bir istiqaməti isə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin dövlət qayğısı ilə əhatə olunmasıdır. Dövlət başçısının göstərişi ilə şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzil təminatı proqramı 5 dəfə genişləndirilib. Belə ki, postmüharibə dövründə müvafiq kateqoriyadan olan vətəndaşlarımıza 7 mindən çox, ümumilikdə isə ötən illər ərzində 16 min mənzil və fərdi ev təqdim olunub. Proses bu gün də davam etdirilir.

Müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin minik avtomobilləri ilə təminatı da əsas dəstək istiqamətlərimizdəndir. Ötən dövrdə bu kateqoriyadan olan vətəndaşlara ümumilikdə 7700 avtomobil təqdim edilib ki, onlardan 567-si postmüharibə dövrünə təsadüf edir.

**– Geridə qoyduğumuz il ərzində sosial proqramlar sahəsində hansı nəticələr əldə olunub? Sanatoriya-kurort müalicəsi və şəhid ailəsi üzvlərinin vəsiqə ilə təminatında statistik göstəricilər barədə danışardınız.**

– 2025-ci il ərzində şəhid ailəsi üzvləri, Vətən müharibəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər, əlilliyi olan uşaqlar, həmçinin Çernobıl AES-də baş verən qəza ilə bağlı əlilliyi olan şəxslər də daxil olmaqla, ümumilikdə, 1619 nəfər sanatoriya-kurort yollayışı ilə təmin olunub və xəstəliklərinə uyğun müalicə müəssisələrinə göndərilib. Bu proses mütəmadi olaraq növbəlilik əsasında davam etdirilir. Eyni zamanda, şəhid ailəsi üzvünün vəsiqəsinin hazırlanması da Agentliyin fəaliyyət istiqamətlərindəndir. 2025-ci ildə iki mindən çox vəsiqə hazırlanaraq regional filiallar və DOST mərkəzləri vasitəsilə təqdim edilib. Ümumilikdə isə bu günədək 17 mindən çox şəhid ailəsi üzvü vəsiqə ilə təmin olunub.

Sumqayıt və Ağdamda yerləşir. Ötən il ən son Ağdamda yeni mərkəz istifadəyə verilib. Hacıqabul, Göyçay, Xəzər və Xətai rayonlarında daha 4 mərkəzin açılmasilə də mərkəzlərin sayı 10-a çatacaq. Bu mərkəzlərdə uşaqlara fərdi və qrup şəklində sosial-reabilitasiya xidmətləri göstərilir, valideynlər üçün maarifləndirici təlimlər təşkil olunur. İl ərzində 672 nəfər bu xidmətlərdən yararlanıb ki, onların 622-si uşaqlardır.

**– Agentliyin digər bir əhəmiyyətli layihəsi barədə danışaq. "Təhsildə sosial iş" xidməti ötən il hansı nəticələrlə yadda qalıb?**

Bu layihənin məqsədi uşaqların sosial müdafiəsinin gücləndirilməsi və risk altında olan məktəblilərə vaxtında dəstək göstərilməsidir. 2025-ci ildə sosial işçilərimiz ümumilikdə 685 məktəbə səfər edib və əməkdaşlıq edilən məktəblərin sayı 1140-a çatıb. Aparılan qiymətləndirmələr nəticəsində 133 uşağın dərsə davamiyyəti bərpa olunub. Bəzi uşaqlar fərdi təhsilə yönləndirilib, bəziləri isə müvafiq reabilitasiya xidmətlərinə cəlb olunub.

**– Valideyn himayəsindən məhrum olmuş uşaqlarla bağlı hansı uğurlar əldə edilib?**

– Bildiyiniz kimi, 1 noyabr 2019-cu ildən etibarən övladlığagötürmə sahəsində idarəetmə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə həvalə olunub. Bu fəaliyyət təkmilləşdirilərək yeni müasir idarəetmə mexanizmi yaradılıb, övladlığagötürmə prosesinin əlçatanlığı, operativliyi və şəffaflığı təmin olunub.

2023-cü ilin noyabrından Azərbaycanda himayədar ailə institutunun tətbiqinə də başlanıb. "Himayədar ailə" qayğı modeli uşaqlara qayğının dünyada geniş yayılmış nümunələrindən biridir. Bu model valideyn himayəsindən məhrum olmuş uşaqların qısa və ya uzun müddət ərzində dövlət nəzarəti altında ödənişli əsaslarla ailə mühitində böyüməsini və inkişafını təmin edir. Eyni zamanda, "Himayədar ailə" qayğı modelinin məqsədi valideyn himayəsindən məhrum olmuş uşaqların müəssisələrə düşməsinin qarşısının alınmasıdır. Hər iki xidmətlə bağlı "Valideyn himayəsindən məhrum olmuş uşaqlar, himayədar ailə və övladlığagötürmə" altsistemində qeydiyyatdan keçməklə müraciət edilir.



**– Stasionar sosial xidmətlər də fəaliyyətinizin mühüm istiqamətidir. Agentliyin tabeliyində olan müəssisələrdə hansı işlər görülür?**

– Hazırda Agentliyin tabeliyində 21 sosial xidmət müəssisəsi fəaliyyətini davam etdirir. 2025-ci ildə Agentliyin bu sosial xidmət müəssisələrində ümumilikdə, 3308 nəfərə xidmət göstərilib. Onlardan 2826 nəfər stasionar, 482 nəfər isə yarımstasionar xidmətlərlə əhatə olunub. Bu müəssisələrə əlilliyi olan uşaqlar üçün müəssisələr, psixonevroloji sosial xidmət müəssisələri, Ahıl şəxslər üçün sosial xidmət müəssisəsi, Əlilliyi olan şəxslərin Peşə-əmək Reabilitasiyası Mərkəzi, İnsan Alveri Qurbanlarına Yardım Mərkəzi, uşaq evləri və digərləri daxildir. Bütün müəssisələrimizdə davamlı olaraq müasir standartlara uyğun xidmətin təşkili istiqamətində addımlar atılır.

Hazırda uşaq evlərində ailə mühitinə yaxın alternativ qayğı modelinə keçid istiqamətində ciddi işlər aparılır. Artıq 1 saylı Uşaq evi sosial xidmət müəssisəsi ailə tipli kiçik qrup evi modelinə transformasiya olunur. Digər müəssisələrimizdə də reabilitasiya xidmətlərinin təkmilləşdirilməsi istiqamətində işlər görülür. Sakinlər üçün fərdi qayğı planlarının təkmilləşdirilməsi, xidmətlərə dair innovativ yanaşmaların tətbiq olunması məqsədilə müvafiq tədbirlər həyata keçirilir.

**– Sosial Xidmət Mərkəzlərinin fəaliyyəti barədə nə deyə bilərsiniz? Bu sahədə hansı yeniliklər planlaşdırılır?**

– 2021-ci ildən fəaliyyət göstərən İxtisaslaşmış Sosial Xidmət Mərkəzləri vətəndaşlarımıza yarımstasionar formada xidmətlərlə təmin edir. Hazırda bu mərkəzlərimiz Abşeron, Sabunçu, Nərimanov, Yasamal,

Bu istiqamət Agentliyin fəaliyyətində xüsusi yer tutur. 2025-ci ildə 149 uşaq övladlığa verilib, 40 uşaq isə himayədar ailələrə yerləşdirilib. Ümumilikdə 2019-cu ildən bu günədək 818 uşaq övladlığa götürülüb. Eyni zamanda, uşaqların müəssisələrə düşməsinin qarşısının alınması məqsədilə 975 uşaq üçün Fərdi İnkişaf Planı hazırlanıb. Sevindirici haldır ki, 176 valideyn himayəsindən məhrum olmuş uşaq müəssisələrdən yenidən ailə mühitinə qaytarılıb.

**– Son olaraq, agentliyin gələcək planları və nəzərdə tutulan layihələr barədə danışardınız.**

– İstər indiyədək həyata keçirdiyimiz tədbirlərdə, istərsə də qarşıdakı dövr üçün müəyyən etdiyimiz hədəflərdə əsas prioritetimiz xüsusi qayğıya ehtiyacı olan vətəndaşların sosial xidmətlərlə vaxtında və fasiləsiz şəkildə təmin olunmasıdır. Bu xidmətlərin daha keyfiyyətli və hər kəs üçün əlçatan olması istiqamətində ardıcıl işlər aparırıq.

2026-cı ildə də mənzil təminatının davam etdirilməsi, sosial xidmət mərkəzlərinin sayının artırılması, sosial sifariş əsasında icra olunan layihələrin əhatə dairəsinin genişləndirilməsi, eləcə də yeni tərəfdaşlıqların qurulması əsas hədəflərimiz sırasındadır. Bu addımlar həssas əhali qruplarına aid vətəndaşların sosial rifahının yüksəldilməsinə, onların sosial adaptasiyasına və cəmiyyətə daha fəal inteqrasiyasına xidmət edir.

***Hazırladı:***
***Mustafa KAMAL***
***XQ***

# Şəhriyar düzünün tarixlər şahidi

**Hələ X əsrdə Böyük İpək yolunun üzərində, indiki Biləsuvarın yerində Büveyli əmiri Piləsuvarın saldığı şəhərə onun şərəfinə öz adı verilib. Adın mənası isə "böyük atlı" deməkdir. 3 əsr sonra Hülaki qoşunlarının Azərbaycana hücumu zamanı Elxani hökmdarı Arqun xanın hərbi düşərgəsi burada olub.**



Digər bir yozuma görə isə Biləsuvar adı xəzər tayfalarından olan bilər və suvarların yaşadığı yer anlamına gəlir. Biləsuvarın Şəhriyar qala yerinin və buradakı yaşayış məskənlərinin adları da mənbələrdən keçir. Ulu tarixi olan bu məkanda neçə-neçə tarixi və memarlıq abidəsi var."Şəhriyar qalası", tunc və dəmir dövrlərinə aid kurqan-təpələr – "Torağay təpə", "Seyid altı təpə", "Ceyran təpə", "Şəhriyar təpə", orta əsrlərə aid Ağ dam qalası, "Çöl Ağ dam şəhərciyi" və "İçəri Ağ dam yaşayış ərazisi" arxeoloji abidələri bu sıradandır. 1828-ci ildə bağlanan Türkmənçay müqaviləsinə görə, Azərbaycan bölünəndə Culfa, Astara və Biləsuvar da 2 yerə ayrılıb. Biləsuvar qalası Cənubi Qafqazda mühüm hərbi nəzarət məntəqəsinə çevrilib.

Digər Azərbaycan əraziləri kimi, Biləsuvarın da ruslaşdırılması siyasəti XX əsrin əvvəllərində geniş miqyas almağa başlamışdı. O zaman Biləsuvarda mövcud olan 28 kənddən yalnız 6-da – Cürəli, Təzəkənd, Dövrüşlü, Ağalıkənd, Bəydili və Xırmandalıda azərbaycanlılar yaşayırdı. Xüsusilə "Əzizbəyov" adlandırılan kanalın çəkilişindən sonra ətrafda xeyli rus kəndi salınaraq buraya Volqaboyu, Don sahilləri, Krasnodar və Stavropol vilayətlərindən ailələr köçürülüb. Sovet dönəmində hökumət yerli əhalini sərhədboyu zonadan aralamaq adı ilə Azərbaycan kəndlərini indiki ərazilərə məcburi köçürərək Puşkin kəndini rayon mərkəzinə çevirib. Sovetlər dönəmində – 1930-cu ildə burada Biləsuvar rayonu təşkil edilib. 1938-ci ildə Biləsuvar adı dəyişdirilərək Puşkin adlandırılıb. 1963-cü ildə ərazisi Cəlilabad rayonu ilə birləşdirilib, 1964-cü ildən isə yenidən ayrıca rayon olub.

Azərbaycan dövlət müstəqilliyinə qovuşandan sonra diyarın tarixi adı yenidən özünə qaytarılıb. Ötən əsrin sonu–bu əsrin əvvəlləri Biləsuvarın inkişafı dövrü kimi sayılır. Son bir neçə ildə isə qədim diyar, demək olar ki, xeyli "cavan"laşıb. Bizcə, hazırkı abad Biləsuvarın girişində atlı heykəli qoyulsa, yəqin ki, məqsədəuyğun olar. Həm adına görə, həm də ki anlayışının qəhrəmanlıq rəmzi, Azərbaycan məişəti və mənəviyyatının ayrılmaz bir hissəsi olduğuna görə.

Biləsuvardan danışarkən Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovu iftixarla xatırlamamaq olmur. 2010-cu ilin yayında o, xidmət elədiyi Tərtər bölgəsinin Çaylı kəndində ermənilərə qarşı təkbaşına saatlarca döyüşüb, çoxlu sayda düşməni məhv edib. Qeyri-bərabər döyüşdə igidliklə həlak olub. Hər il qəhrəmanın dünyaya göz açdığı Əliabad kəndindəki ata ocağında onun doğum və anım günləri təntənə ilə qeyd edilir. Geniş ictimaiyyətin nümayəndələri, gənclər, məktəblilər, Mübarizin ailəsi ilə görüşür, döyüş yolu ilə yaxından tanış olurlar. Qonaqlar burada yaradılan xatirə muzeyini ehtiramla ziyarət edirlər.

Biləsuvarın digər tanınmışlarını da ehtiramla yad edirik. Bir neçə il öncə şəhərinin "Aerodrom" adlanan yaşayış massivinə təbii qaz verilməsi mərasiminə mən də qatılmışdım. Natiqlər çıxış edib sakinlərə təbriklərini çatdırırdılar. Mənsə özlüyümdə bu qəribə ad – "Aerodrom" barədə düşünürdüm. Yadıma Biləsuvarda doğulub boya-başa çatmış unudulmaz yazıçımız Əlibala Hacızadənin "Təyyarə kölgəsi" romanı düşdü. Fikirləşdim ki, bəlkə də onun "təyyarə"si elə bu "Aerodrom"dan havaya qalxıb.

Xəyalım haralara gedib çıxdı!.. Bir vaxt əsərləri böyük tirajla çap olunan Əlibala Hacızadə son müsahibələrinin birində demişdi ki, arabir Biləsuvardakı ata-baba ocağına baş çəkirmiş. Bir gün görür ki, qonşusu orada özü üçün ev tikir. Tanınmış yazıçı nankor qonşuya bir söz deməyib, eləcə əlini təəssüflə yelləyərək, kövrək xatirələrinin ünvanı olan dədə yurdundan birdəfəlik uzaqlaşıb. Doğrudur, sonradan rayon rəhbərliyi ona başqa yerdə ev tikmək üçün sahə ayırıb, amma Əlibala Hacızadənin buna imkanı çatmayıb...

Biləsuvarın şöhrətli oğullarından olan mərhum şair Zamin Mahmudov əyilməzlik mövzusunda qələmə aldığı bir şeirində yazırdı ki, "gözəlliyin önündə insan əyilsin təki". Bu gün, şəfəqlər içində sayrışan Muğan şəhəri Biləsuvarda insanı əyilməyə, yəni heyranlığını bildirməyə vadar edən gözəlliklər çoxdur.

Mərhum yazıçı-ssenarist, gözəl qələm sahibi olan Əhmədağa Muğanlı da əslən Biləsuvardan idi. Onun "Şəhriyar əfsanəsi" povestində qədim diyarın şərəfli tarixindən, əfsanəyə dönmüş şanlı səhifələrindən söhbət açılır. Əsərin qəhrəmanları doğma elini, vətənini sevən, onun yolunda həyatını, canını əsirgəməyən igid gənclər, cəsur qızlardır. Bu gün Muğanın çiçəklənən bölgəsində onların varisləri, ardıcılları yaşayıb yaradırlar. Dövlətimiz isə inkişafa hər cür qayğı göstərir.

Çağdaş şairlərimiz də gözəl yurdun vəsfini layiqincə qələmə alırlar. Axı, yaradıcı adamların ilkin ilham qaynağı məhz gözəlliklərdir. Müğənnilər də Biləsuvarı tərənnüm edən nəğmələri böyük həvəslə oxuyurlar. Bu mahnılar hər zaman rayonda keçirilən şənliklərin bəzəyi olub:

*İlkimsən, əzəlimsən,*
*Şeirimsən, qəzəlimsən.*
*Qəhrəmanlar obası,*
*Mübarizlər anası,*
*Fəxrim, vüqarım mənim!*
*Biləsuvarım mənim!*

***Əli NƏCƏFXANLI***
***XQ***

---

Ölkəmizdə dövlət dəstəyi ilə təqdim olunan sərfəli aqrar sığorta mexanizmindən faydalanan fermer və təsərrüfatların sayı artmaqdadır. Aqrar Sığorta Fondu (ASF) Şəmkir və Samux rayonlarında becərilən arpa və şaftalı sahələri üzrə növbəti sığorta ödənişlərini həyata keçirib.

# Fermerlərə sığorta ödənişləri artıb

Samux rayonunun Füzuli kəndindən olan fermer Asif Qurbanova arpa sahələrinə dəymiş zərərə görə sığorta ödənişi edilib. O, 2025-ci ildə 44 hektar sahəni çoxsaylı risklərdən sığortalamış və bunun üçün ümumilikdə 557 manat sığorta haqqı ödəmişdi. Ötən ilin may ayında fermerin əkin sahəsinə ceyranların hücumu nəticəsində buradakı bitkilərin bir hissəsi məhv edilib. Əkinlər sığortalı olduğu üçün ASF tərəfindən fermerə 2 min 303 manat məbləğində sığorta ödənişi gerçəkləşdirilib.




Şəmkir rayonunun Varlı Həyat kəndindən olan 2 fermer isə arpa sahələrinə dolu yağması nəticəsində dəymiş zərərə görə sığorta ödənişi alıb. Fermer Nəsir Yusifov 23 hektar sahəni sığortalamaq üçün 927 manat, digər fermer Eldəniz Yusifov isə 10,6 hektar sahə üçün 364 manat sığorta haqqı ödəmişdi. May ayında baş verən dolu hadisəsi nəticəsində həmin arpa sahələrinin bir hissəsinə zərər dəyib. Dəymiş ziyan Fondun həmin sahələrdə keçirdiyi baxış və ekspertiza nəticələrinə əsasən fermerlərə müvafiq olaraq 12 min 302 və 5 min 313 manat məbləğində sığorta verilib.

Şəmkir rayonunun Keçili kəndindən olan fermer Nemət Məmmədov isə 2,75 hektar sahədə nektarin bağını sığortalamış və bunun üçün 4 min 240 manat sığorta haqqı ödəmişdi. Sahədə şaxta vurduğuna görə meyvələr məhv olub. Ekspert araşdırması və zərərin hesablanmasından sonra ASF vasitəsilə fermerə ödədiyi məbləğin 3 qatı məbləğində (13 min 710 manat) sığorta ödənişi həyata keçirilib.

Aqrar Sığorta Fondunun sığorta ödənişləri davam edir. Fermerlərə sığorta ödənişlərini təqdim edən Aqrar Sığorta Fondunun Şəmkir və Goranboy regional filiallarının rəhbərləri Valeh Əsədov və Tofiq Əsgərov aqrar sığorta mexanizminin fermer təsərrüfatlarının qorunmasında mühüm əhəmiyyət daşıdığını qeyd ediblər. Bildirilib ki, aqrar sığorta dövlət dəstəkli olduğu üçün sığorta haqqının 50 faizi dövlət tərəfindən ödənilir. Nəticədə fermerlər cüzi məbləğ ödəməklə təsərrüfatlarını sığortalaya bilirlər. Hadisə baş verdikdə isə sığorta ödənişi fermerin ödədiyi sığorta haqqını dəfələrlə üstələyir.

***XQ***

---

*Təbiət lövhələri*

# Zəngilanın qış nağılı

**27 il ərzində əsarətdə qalmaqla zamanın ağırlığını sinəsində daşıyan Zəngilan rayonu indi öz yeni tarixini yazır. Qayıdış proqramına uyğun bərpa edilərək dirçələn rayon təkcə iqtisadi uğurların deyil, həm də ümidin, səbrin və təbiətin qovşağıdır.**



Hər dəfə yolumuz rayona düşəndə, bu torpağın "yenidən doğuluşuna" şahidlik edirik. "Ağıllı kənd"dən başlayan yeniliklər rayonun hər qarışına həyat verir, insanın gələcəyə olan inamı artırır. Üç dövləti birləşdirən yolları, dünyaya açılan beynəlxalq hava məkanı, yer kürəsinə səs salan çinar meşələrinin hər biri insanı ruhlandıran canlı bir nağılın səhifələridir.

Bu gün Zəngilan ağ libasa bürünüb, yayı bərəkətli olan bu torpağa səssizcə yağan qar uzun illərin nisgilini bir anlığa sakitləşdirir. Bu ağ libas yalnız fəsil nişanəsi deyil, həm də yenidən başlanğıcın, təzələnmənin simvoludur. Uşaqlıq illərindən xatırlayıram ki, qar Zəngilana yad deyil. "Ağ libaslı dağlar" məğrur dayanır, dərələr isə sükutun içində gələcəyin səsini saxlayır. Qar torpağa rütubət, bərəkət gətirir, insana ümid verir.

Zəngilanın ağ libaslı meşələri nağılın içində dayanmış sehrli məkanı xatırladır. Qış meşəyə sakitlik gətirir, quşların "fır-fırı" da, qara düşən ayaq izləri də həyatın davam etdiyini xatırladır. Buzlu dərələr, qarla örtülmüş yollar, meşənin dərinliyində görünməyən xəndəklərin hər biri Zəngilanın qış nağılının səhifələridir. Təbiətə xüsusi vurğunluğu, torpağa son dərəcə bağlılığı ilə tanınan və bütün fəaliyyəti boyu rayonda müxtəlif vəzifələrdə çalışan, hazırda təqaüddə olan polis polkovnik-leytenantı, rayon meşə idarəsində meşəbəyi işləyən, ictimai fəal, müharibə veteranı, 60 yaşlı sinif yoldaşım İdris Rəhimovun fotoları bu fikri deməyə tam əsas verir.



Bu gözəl diyarın çinar meşəsi dünyanın nadir təbiət xəzinələrindən biridir. Uca çinarların kökləri qədim tarixlə, budaqları isə göylə "danışır". Almaniyadakı Bavariya, İtaliyadakı Toskana və Polşadakı qədim çinar dəstələri ilə bənzərliyi olsa da, Avropada 1-ci, dünyada isə 2-ci yerdə sayılan Zəngilan çinarları boy atdıqları torpağın ruhunu və xalqın tarixini birləşdirir. Bu meşə, qışda ağ libasla örtülmüş, yazda isə açılmış budaqları ilə təbiət nağılının parlaq səhifəsini yaşadır.

Yaz gələndə burada da "yaşıl arzular" boylanacaq, həyat yenidən nəfəs alacaq. Zəngilan yalnız ağ libasa bürünən torpaq deyil, o, gələcəyi üçün bu rəngə bürünüb. Qışın sükutunda burada torpaq yenidən "doğulmağa" hazırlaşır. Çünki bu torpaq yalnız gözəlliyi ilə deyil, strateji əhəmiyyəti ilə də parlayır, sanki beynəlxalq tədbirlərin keçirildiyi Zəngilan Logistika Mərkəzi səssiz dağların ürəyində döyünən yeni bir nəbzdir. Buradan keçən hər yol gələcəyə açılan ümiddir. Bir vaxtlar sükutun hökm sürdüyü ərazilərdə indi hərəkət, axın var. Yollar "danışır", təkərlər zamana iz sala-sala irəliləyir.

Qış ağ libasını torpağın üzərinə sərəndə belə həyat öz axarında qalır.

***Mikayıl NƏRİMANOĞLU,***
***XQ-nin bölgə müxbiri***

---

**Kür-Araz ovalığının mərkəzi hissəsində yerləşən Salyanı şöhrətləndirən digər amillərlə yanaşı, burada zəhmət adamlarının yetişdirdikləri məhsulların da xüsusi yeri vardır. Rayonun üzümü, heyvası, narı, bostan məhsulları adla deyilir və hər süfrənin bəzəyidir. İsti Muğan düzündə keyfiyyətli və bol limon yetişdirmək isə hər oğulun işi deyil ki, həvəskar bağban Gülməmməd Məhərrəmov buna nail ola bilib. Onun yetişdirdiyi limon ağaclarının hər biri 300 kiloqramdan çox məhsul verir.**

# Salyan limonu: yeni ünvan, fərqli dad

Bildiyimiz kimi, limon əsasən subtropik bölgələrdə yetişir. Amma bağban Gülməmməd kişi Kür çayının sahilində, qədim yaşayış məskənlərindən biri olmuş Babazanan dağının adını daşıyan massivdə bu arqumenti inkar edə bilib. O, burada açıq və istixana şəraitində çoxlu sayda ənənəvi və subtropik meyvə sortları, gül kolları yetişdirməyi bacarır. Çəkilən çoxillik zəhmət, iradə və səbir nəticəsində indi bu meyvə bağının şöhrəti hər tərəfə yayılıb. Xüsusilə bağbanın yetişdirdiyi limondan hər kəs almaq, dadmaq və pay vermək istəyir. Gülməmməd kişi də səxavətlidir. Qapısı hər gələn qonaq üçün açıqdır.



O, calaq üsulu ilə ərsəyə gətirdiyi limon, portağal, narıngi ağacları barədə həvəslə məlumatlar verir. Deyir ki, yerli şəraitdə yetişən məhsullar insana daha xeyirlidir. Sağlamlığımızın qorunmasında da bu meyvələrin əvəzsiz rolu var. Bir də bağ salmaq, təsərrüfat yaratmaq həm insana maddi fayda verir, həm də təbiətimizin zənginləşməsinə vətəndaş dəstəyidir.

Gülməmməd kişini yaxından tanımayanlar, bəlkə də elə bilir ki, o kənd təsərrüfatı mütəxəssisidir və ya təbiətşünaslıq üzrə pedaqoqdur. Əslində isə təqaüddə olan neftçidir. Neft və qazçıxarma müəssisələrində elektrik çilingəri olub. Ömrünün 70-ci baharını ötən il qeyd etmiş bağbanın torpaqla, təbiətlə dostluğu isə lap uşaq yaşlarından başlayıb. Təsərrüfat işlərində valideynlərinə yardımçı olmaqla bərabər, tərəvəz və meyvəçiliyə xüsusi maraq göstərib. Ömür boyu istirahət günlərini torpaqla həsbi-halda keçirib, son 20 ildə isə özünün qaynaq yolu ilə inşa etdiyi istixanada ən yaxşı meyvə-tərəvəz sortlarının artırılması ilə məşğul olub. Subtropik meyvələrə marağı daha da güclənib.

Hazırda həvəskar bağbanın uzunluğu 12, eni 6, hündürlüyü isə 5 metrə yaxın olan istixanasında 10-a yaxın məhsuldar limon sortu, portağal, mandarin və digər subtropik meyvələr var. Fədakar zəhmətinin nəticəsidir ki, mövsüm ərzində buradakı limon ağaclarının əksəriyyətindən 300–400 kiloqram can dərmanı olan ətirli, keyfiyyətli məhsul götürür.

Gülməmməd kişinin dediyinə görə, həyətində yetişdirdiyi və yanında şəkil çəkdirdiyi limon ağacları Gürcüstan mənşəlidir, yerli şəraitə uyğunlaşdırılıb. Bu sortdan dadanlar ətrinə, zərif qabığına və şirəsinə görə məşhur Ordubad limonuna bənzədirlər.

İstixanada olarkən çoxlu sayda calaq edilmiş limon tinglərini də müşahidə etdik. Bağban dedi ki, bu da bir işdir. Əkib-becərmək istəyənlərin sifarişi ilə hazırlayıb. Bu günlər limon məhsulunun toplanan vaxtıdır. Məhsul tam yetişib, istehlak üçün hazırdır. İstəyənləri boş qaytarmır. O, həm sifarişçilərin tələbatını ödəyir, həm də məhsullarını pay verməkdən zövq alır.

***Rüstəm MƏLİKOV,***
***"Ana Kürüm" qəzetinin məsul redaktoru***

*Elmlər Akademiyası – zəka xəzinəsi*

# Heydər Əliyevin elm və təhsil strategiyası

## *Milli intellektual potensialın gücləndirilməsi*

*(Əvvəli 27, 28 yanvar tarixli saylarında)*

### 28 dekabr 1999-cu il: Bakı Dövlət Universitetinin yubileyinə təbrik

**Prezident Heydər Əliyev Azərbaycanın ilk ali təhsil ocağı, məzunu olduğu Bakı Dövlət Universitetinin 80 illik yubileyini də səmimi bir qədirbilənliklə təbrik etmişdi:**

"Hörmətli müəllimlər! Əziz tələbələr! Respublikamızın ilk ali təhsil ocağı - Bakı Dövlət Universitetinin 80 illik yubileyi münasibətilə sizi, ölkəmizin bütün təhsil işçilərini səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan xalqının XX əsrin əvvəllərindən başlanmış kütləvi şəkildə maariflənməsi, savadlanması prosesində Bakı Dövlət Universitetinin açılması əlamətdar tarixi bir hadisə olmuşdur. Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin təşəbbüsü ilə Azərbaycanda ilk ali təhsil ocağının yaranması o dövrdə gedən tarixi proseslərdən doğan bir zərurət idi.

Bakı Dövlət Universiteti Azərbaycan elminin inkişafına da olduqca güclü təsir göstərmişdir. O, yarandığı ilk dövrdən Azərbaycanda Elmi-Tədqiqat Mərkəzinə çevrilmişdir. Bu gün Azərbaycan Elmlər Akademiyasının tərkibində fəaliyyət göstərən institutların əksəriyyəti Bakı Dövlət Universiteti ilə bu və ya digər dərəcədə bağlıdır.

Diqqətəlayiqdir ki, Bakı Dövlət Universiteti öz fəaliyyətinin bütün dövrlərində elm və təhsil məbədi olmaqla yanaşı, həm də Azərbaycan dilinin inkişafında, milli şüurun, vətənpərvəlik ruhunun inkişafında xidmətlər göstərmiş bir mərkəz rolunu oynamışdır. Bakı Dövlət Universitetinin əsasını qoyanların, onun inkişafına təkan vermiş insanların əməyini daim yüksək qiymətləndirərək onların xatirəsini böyük minnətdarlıq və ehtiram hissi ilə yad edirəm.

Bu əlamətdar günlərdə sizə - universitetin tələbə-müəllim heyətinə, bütün məzunlarına, respublikamızın təhsil işçilərinə böyük uğurlar diləyir, hər birinizə cansağlığı və xoşbəxtlik arzulayıram".

### 11 fevral 2000-ci il: BDU-da beynəlxalq görüş

**Prezident Heydər Əliyevin Bakı Dövlət Universitetinin 80 illiyi münasibətilə bu ali məktəbin və və bir sıra xarici ölkə universitetlərinin rəhbərləri ilə görüşdə isə bildirmişdi:**

"Hörmətli alimlər! Hörmətli qonaqlar, xanımlar və cənablar!

Azərbaycan Dövlət Universitetinin - indi ona Bakı Dövlət Universiteti deyirlər - 80 illik yubileyi münasibətilə mən həm Azərbaycana gəlmiş qonaqlarla, həm də universitetin alimləri ilə bu gün qısamüddətli bir görüş üçün fürsət əldə etmişəm.

Azərbaycan Dövlət Universiteti tariximizdə çox böyük yer tutur. Məlumdur ki, o, 1919-cu ildə Azərbaycanda xalq cümhuriyyəti hakimiyyətdə olduğu zaman təşkil edilmiş və xalqımızın tarixində ilk universitetdir. Bu universitet təkcə bizim xalqımızın yox, ümumiyyətlə, Şərq aləminin ilk dünyəvi universitetidir. O, 80 illik fəaliyyəti dövründə Azərbaycana xidmət edibdir və Azərbaycanda təhsilin, elmin inkişafında böyük nailiyyətlər əldə edibdir.

İndi Azərbaycanda universitetlər də çoxdur. Bizim 1945-ci ildə yaranmış Elmlər Akademiyamız, böyük alimlərimiz vardır. Bizdə təhsil çox inkişaf edibdir. Azərbaycanda demək olar ki, təhsil almayan adam yoxdur. Azərbaycanda ümumi icbari təhsil sistemi çoxdan yaranıbdır və həyata keçirilir. Bütün bunların hamısında Azərbaycanın universitetlərinin, yəni ali məktəblərinin çox böyük əməyi, xidməti vardır. Bunların içərisində isə Bakı Dövlət Universiteti xüsusi yer tutur. Çünki son illər Azərbaycanda yaranan bir çox universitetlər, ali təhsil ocaqları Bakı Dövlət Universitetindən ayrılaraq müstəqil ali məktəbə, universitetə çevriliblər".

Bu mətnlər ümummilli lider Heydər Əliyevin elmə və təhsilə verdiyi yüksək dəyərin, ali təhsil müəssisələrinə, xüsusilə Bakı Dövlət Universitetinə göstərdiyi davamlı diqqət və qayğının parlaq nümunələridir. Həm yubiley münasibətilə ünvanlanmış təbrik məktubu, həm də universitetin 80 illiyi ilə əlaqədar keçirilmiş görüşdə səsləndirilən nitq ulu öndərin təhsili milli inkişaf strategiyasının əsas prioritetlərindən biri kimi qəbul etdiyini aydın şəkildə ortaya qoyur.

Heydər Əliyev Bakı Dövlət Universitetini təkcə ölkənin ilk ali təhsil müəssisəsi kimi deyil, bütövlükdə Azərbaycan elminin və ziyalı təbəqəsinin formalaşdığı başlıca mərkəz kimi təqdim edir. Universitetin Azərbaycan Xalq Cümhuriyyəti dövründə yaranmasını tarixi zərurət kimi qiymətləndirməsi onun ali təhsili dövlətçilik ideyalarının ayrılmaz tərkib hissəsi hesab etdiyini göstərir. Bu yanaşma ali təhsilin yalnız bilik ötürən struktur deyil, milli özünüdərk və müstəqil düşüncə məkanı kimi dəyərləndirildiyini nümayiş etdirir.

Mətnlərdə Bakı Dövlət Universitetinin elmi-tədqiqat mərkəzi kimi fəaliyyətinin xüsusi vurğulanması Heydər Əliyevin elm və təhsilin vəhdətinə verdiyi önəmin bariz ifadəsidir. Onun Elmlər Akademiyasının institutlarının əksəriyyətinin BDU ilə bağlı olduğunu qeyd etməsi ali məktəbin milli elmi potensialın formalaşmasında oynadığı həlledici rolu yüksək qiymətləndirdiyini sübut edir. Bu, eyni zamanda, dövlət başçısının elmi məktəblərin davamlılığını və institusional inkişafını strateji məsələ kimi diqqətdə saxladığını göstərir.

Heydər Əliyevin Bakı Dövlət Universitetinin Azərbaycan dilinin inkişafında, milli şüurun və vətənpərvərlik ruhunun formalaşmasında oynadığı rolu xüsusi qeyd etməsi onun təhsilə yalnız peşəkar hazırlıq müstəvisində deyil, milli-mənəvi dəyərlərin qorunması baxımından yanaşdığını təsdiqləyir. Universitetin "elm və təhsil məbədi" kimi səciyyələndirilməsi bu ali məktəbə verilən ən yüksək qiymətlərdən biridir və rəhbərin universitet kollektivinə olan dərin ehtiramını əks etdirir.



Görüş zamanı səsləndirilən fikirlərdə Heydər Əliyevin Azərbaycanın təhsil sistemində əldə olunmuş nailiyyətləri ümumiləşdirməsi, ali məktəblərin, xüsusilə Bakı Dövlət Universitetinin bu prosesdəki rolunu ön plana çıxarması dövlətin təhsilə sistemli və uzunmüddətli dəstəyinin göstəricisidir. Onun BDU-nu digər ali məktəblər üçün əsas baza və nümunə kimi təqdim etməsi bu universitetə olan xüsusi qayğının və etimadın ifadəsidir.

Ümumilikdə, bu mətnlər sübut edir ki, Heydər Əliyev elm və təhsili Azərbaycanın gələcəyinin əsas təminatçısı hesab etmiş, Bakı Dövlət Universitetini isə bu gələcəyin formalaşmasında aparıcı rol oynayan strateji qurum kimi daim diqqət mərkəzində saxlamışdır. Onun universitetə göstərdiyi yüksək diqqət və qayğı, əslində, bütövlükdə Azərbaycan elminə, təhsilinə və ziyalı təbəqəsinə verilən dəyərin bariz ifadəsidir.

Ulu öndər Heydər Əliyev Bakı Dövlət Universitetinə ünvanladığı təbrikində Azərbaycan Elmlər Akademiyasının tərkibində fəaliyyət göstərən institutların əksəriyyətinin Bakı Dövlət Universiteti ilə sıx bağlı olduğunu vurğulayarkən, ilk növbədə, onun Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutunda bir neçə dəfə olması və institutun fəaliyyəti ilə yaxından tanışlığı diqqəti cəlb edir. Belə ki, Azərbaycan Elmlər Akademiyasının Fizika İnstitutu bütün dövrlərdə Bakı Dövlət Universiteti ilə olan əlaqələri ilə seçilmiş, institut əməkdaşlarının böyük əksəriyyəti də məhz bu ali təhsil müəssisəsinin məzunları olmuşdur.

***Aşağıda ümummilli liderin 1977-ci ildə Fizika İnstitutunun laboratoriyalarından birində olmasını əks etdirən fotoşəkil təqdim olunur.***



*Şəkildə (sağdan sola): Ümummilli lider Heydər Əliyev, Hacalı Nəcəfoğlu, Bəybala Usubaliyev, Sov. İKP MK katibi Mixail Zimyanın və İmaməddin Əmiraslanov*

### 31 iyul 2000-ci il: Elmlər Akademiyasının prezidenti akademik Fərəməz Maqsudovla vidalaşma mərasimi

**Prezident Heydər Əliyev akademik Fərəməz Maqsudovun son mənzilə yola salınma mərasimində söyləmişdi:**

"Hörmətli xanımlar və cənablar!

Azərbaycan xalqının böyük şəxsiyyətlərindən biri Fərəməz Maqsudov aramızdan getdi. Fərəməz Maqsudov şərəfli həyat yolu keçmiş, Azərbaycan elminin inkişafında böyük xidmətlər göstərmiş, ölkəmizin həyatında, onun bütün sahələrində, ictimai-siyasi həyatında fəal iştirak etmiş, Azərbaycanın dəyərli insanlarından biridir.

Fərəməz Maqsudov fitri istedada malik olan bir gənc kimi dünyaya gəlmiş və öz fədakarlığı, cəfakeşliyi sayəsində ağır, çətin yol keçərək Azərbaycan elminin zirvələrinə ucalmışdır.

XX əsr Azərbaycan elminin böyük inkişaf dövrüdür. Azərbaycanın qədim və zəngin elmi irsi XX əsrdə sıçrayış dövrü keçiribdir. Riyaziyyat elmi dəqiq elmlər içərisində çətin bir sahədir. Azərbaycanda böyük riyaziyyatçılar məktəbi yaranmışdır. Bu məktəbin ən görkəmli nümayəndələrindən biri və Azərbaycanda riyaziyyat elmini dünya səviyyəsinə qaldıran alimlərdən biri Fərəməz Maqsudov olmuşdur. Fərəməz Maqsudov ona həvalə edilən bütün yerlərdə vicdanla çalışmış, öz əməyi, biliyi, istedadı ilə, yalnız və yalnız özünə məxsus olan xüsusiyyətləri ilə elmdə yüksəlmiş, elmimizi inkişaf etdirmişdir. O, cəmiyyətimizdə, xalqımızın içində yüksəlmişdir.

Fərəməz Maqsudov həmişə cəmiyyətdə, insanların içində olmuşdur, heç vaxt kənara çəkilməmişdir. Xalqımızın böyük əksəriyyəti kimi, o da Azərbaycanı azad, müstəqil görmək arzusunda olmuşdur və bu arzuya da çatmışdır. Ancaq o bu yolda böyük xidmətlər göstərmiş, daim fəal vətəndaşlıq mövqeyi nümayiş etdirmişdir.

Fərəməz Maqsudovun bütün həyatı Elmlər Akademiyası ilə bağlıdır. O, universiteti bitirəndən sonra burada çalışmışdır. Azərbaycan Elmlər Akademiyası ölkəmizin, xalqımızın fəxridir, Azərbaycan elminin əsrlər boyu keçdiyi yolu ən yüksək zirvəyə çatdırmış bir elm məbədidir. Bu mühitdə, bu şəraitdə daim elm içərisində çalışan insan - adi insan yox, yüksək istedada malik olan insan, təbiidir ki, elmin yaradıcılarından biri olmuşdur. Fərəməz Maqsudovun ictimai-siyasi fəaliyyətində onun Yeni Azərbaycan Partiyasının qurucularından biri olması da görkəmli yer tutur.

Fərəməz Maqsudovun ölümü bizim üçün çox ağır itkidir. Bizim hamımız, xüsusən onu yaxşı tanıyanlar, onların içərisində mən də bu itkini çox ağır keçiririk. Ancaq bu itkidən ən çox ağırlıq çəkən onun ailəsi, yaxınları, qohum-əqrəbasıdır. Mən bu matəm günü bütün Azərbaycan xalqına başsağlığı verirəm. Fərəməz Maqsudovun ailəsinə, qohumlarına, yaxınlarına başsağlığı verirəm. Azərbaycan elminə başsağlığı verirəm.

Fərəməz Maqsudovun parlaq siması bizim - bütün Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır. Onun qoyduğu izlər heç vaxt pozulmayacaqdır. Xalqımıza və gələcək nəsillərə onun bəxş etdiyi irs daim yaşayacaqdır.

Allah rəhmət eləsin".

Bu nitq ümummilli lider Heydər Əliyevin elmə, akademik şəxsiyyətə və elmi mühitə verdiyi böyük dəyərin dərin, səmimi və yüksək mənəvi ifadəsidir. Akademik Fərəməz Maqsudovun vəfatı ilə bağlı söylənilən bu çıxış yalnız vida nitqi deyil, eyni zamanda, XX əsr Azərbaycan elminin inkişaf yoluna, alim şəxsiyyətinin cəmiyyətdə tutduğu yerə və elmin milli tərəqqidəki roluna verilən əhatəli qiymətdir.

Heydər Əliyev Fərəməz Maqsudovu Azərbaycan xalqının "böyük şəxsiyyətlərindən biri" kimi təqdim etməklə alimə verilən ən yüksək ictimai və mənəvi statusu vurğulayır. Onun elmi fəaliyyəti yalnız fərdi nailiyyətlər kontekstində deyil, bütövlükdə Azərbaycan elminin inkişafı və dövlət həyatındakı rolu baxımından dəyərləndirilir. Bu yanaşma Heydər Əliyevin elmə strateji, dövlətçilik miqyasında yanaşdığını açıq şəkildə nümayiş etdirir.

Nitqdə Fərəməz Maqsudovun həyat yolunun fitri istedad, zəhmət, fədakarlıq və vicdanlı əməyin vəhdəti kimi təqdim edilməsi ulu öndərin əsl alim obrazına verdiyi mənəvi ölçüləri ortaya qoyur. Alimin elmin zirvələrinə yüksəlməsinin sosial mənşədən deyil, məhz bilikdən, istedaddan və zəhmətdən qaynaqlandığının vurğulanması Heydər Əliyevin elmə meritokratik yanaşmasının bariz ifadəsidir.

Riyaziyyat elminin xüsusi çətin və fundamental sahə kimi qeyd olunması, Azərbaycanda formalaşmış riyaziyyat məktəbinin dünya səviyyəsində tanınması və bu məktəbin aparıcı simalarından biri kimi Fərəməz Maqsudovun önə çəkilməsi ulu öndərin elmi nailiyyətlərin beynəlxalq ölçüsünə verdiyi əhəmiyyəti göstərir. Heydər Əliyev üçün alim yalnız milli mühitdə deyil, dünya elmi məkanında da ölkəni təmsil edən strateji fiqurdur.

Nitqdə Azərbaycan Elmlər Akademiyasının "elm məbədi" kimi təqdim olunması və Fərəməz Maqsudovun həyatının bu mühitlə ayrılmaz şəkildə bağlılığının vurğulanması Heydər Əliyevin akademik institutlara olan dərin hörmətini əks etdirir. Bu fikirlər Akademiyanın yalnız inzibati qurum deyil, milli elmi irsin qorunduğu və yaradıldığı ali intellektual məkan kimi dəyərləndirildiyini göstərir.

Eyni zamanda, Heydər Əliyevin alimin ictimai-siyasi fəaliyyətini, vətəndaşlıq mövqeyini və müstəqil Azərbaycan ideallarına sədaqətini xüsusi qeyd etməsi onun elm ilə cəmiyyət arasında üzvi əlaqəni önə çəkdiyini təsdiqləyir. Ulu öndər üçün əsl alim cəmiyyətdən kənarda qalan deyil, xalqın içində olan, milli taleyə biganə qalmayan ziyalıdır.

Ümumilikdə, bu nitq akademik Fərəməz Maqsudov timsalında Heydər Əliyevin elmə verdiyi yüksək qiymətin, alim şəxsiyyətinə göstərdiyi dərin ehtiramın və akademik irsi milli sərvət kimi dəyərləndirməsinin parlaq nümunəsidir. Bu çıxış bir daha sübut edir ki, Heydər Əliyev üçün elm – milli inkişafın təməli, alim isə bu inkişafın əsas daşıyıcısıdır.

### 1 sentyabr 2001-ci il: Bakıdakı 6 saylı orta məktəbdə görüş

**Prezident Heydər Əliyev Bakıdakı 6 saylı orta məktəbdə yeni dərs ili münasibətilə keçirilən görüşdə demişdi:**

"Əziz uşaqlar, əziz müəllimlər! Hörmətli valideynlər! Xanımlar və cənablar!

Mən sizin hamınızı Azərbaycanda yeni dərs ilinin başlanması münasibətilə təbrik edirəm və Azərbaycanın bütün təhsil ocaqlarına, bütün məktəblərinə, bütün müəllimlərinə, təhsil alan uşaqlara və gənclərə uğurlar arzulayıram.

Azərbaycan dövlət müstəqilliyinin 10-cu ildönümünü qeyd edir. Bu, bizim çoxəsrlik tariximizdə ən əlamətdar, ən böyük əhəmiyyətə malik olan bir hadisədir. Azərbaycan əsrlər boyu müstəqil olmaq arzusu ilə yaşamış, xalqımız əsrlər boyu azad olmaq istəmiş, öz müstəqil dövlətinin olması arzusu ilə yaşamış, müstəqil ölkəsinin vətəndaşı olmaq istəmişdir.

Sizin məktəbiniz böyük tarixə malikdir, böyük ənənələrə malikdir. İndi yenidən təmir olunubdur.

Azərbaycanda təhsil sistemi dövlət qayğısı altındadır. Yəni Azərbaycanın məktəbləri, təhsil müəssisələri, universitetləri, - az hissəsini nəzərə almasaq, - demək olar ki, hamısı dövlətə məxsusdur.

Mən 6 nömrəli məktəbdə keçmişdə də olmuşam. Bu gün bir neçə sinfə baxdım. O vaxt kompüter nə idi heç bilmirdilər, amma indi görün, bu gün uşaqlar kompüterlərin arxasında oturublar. İndi ayrı-ayrı ölkələrdən gətirilən kompüterlər, yaxud da başqa çox müasir tələblər səviyyəsində olan təhsil ləvazimatı bütün məktəblərə verilib və veriləcəkdir. Bunlar hamısı dövlət tərəfindən təhsilə göstərilən qayğıdır. Eyni zamanda, bunlar hamısı təhsil sahəsində çalışan insanlara öz vəzifələrini daha da səylə yerinə yetirmək üçün əsasdır.

Mən bu gün məmnuniyyətlə qeyd edirəm ki, Azərbaycanda bütün məktəblərdə bütün sahələrə aid müəllimlər var. Ali məktəblərimizdə yüksək elmə malik olan professor-müəllim heyətləri var. Ancaq orta məktəbdə, ali məktəbdə hər bir müəllim bilməlidir ki, onun üzərinə düşən vəzifə, onun dövlət üçün, millət üçün, Azərbaycan xalqı üçün gördüyü iş bütün başqa sahələrdə fəaliyyət göstərən insanların hamısının işindən ən gərəklisidir, ən lazımlısıdır.

6 nömrəli məktəb, dedim ki, mənim uçun yaxşı tanışdır. Çünki mənim iki övladım - qızım da, oğlum da birinci sinifdən onuncu sinfə qədər burada təhsil alıblar. Mən 10 il uşaqlarımla buradan o tərəfdə olan evdə yaşamışam. Doğrudur, o vaxt bizim problemimiz olmayıbdır ki, uşaqlan məktəbə aparaq. Uşaq özü çıxıb gəlirdi Anası da eyvandan onları müşayiət edirdi, eyni zamanda, əgər belə olmasaydı, heç başqa imkanımız da yox idi. Avtomobil, filan - bunlar yox idi. Ancaq biz o vaxtlar uşaqlarımızın məktəbə getməsi üçün şəhər nəqliyyatından istifadə etmədik. Məktəb ilə evimizin yaxınlığı bizim üçün çox asanlıq yaratdı.

Uşaqlar çox yaxşı təhsil aldılar. Mən bunu ona görə dedim ki, təkcə mənim övladlarım burada yaxşı təhsil alıblar. Bilirsiniz ki, mən 1969-cu ildən 14 il Azərbaycanın rəhbəri olmuşam. O vaxtlar da mən təhsil işləri ilə çox ciddi məşğul olmuşam. Ona görə də bilirəm ki, Azərbaycanda, Bakıda çox nümunəvi məktəblər olub, indi də var. Onlar qazandıqları yerləri heç vaxt əldən verməyiblər. Təkcə Bakıda yox, Yevlax rayonunun Xaldan kəndində də bir nümunəvi məktəb var idi. Bilirsinizmi kənd yeridir, amma nə qədər yüksək səviyyəli məktəb idi. Mən orada bir-iki dəfə olmuşam və oranın direktoru Zahid Şöyübovla söhbətlər etmişdim. Həm də o vaxtlar çox şərəfli ad olan "SSRİ xalq müəllimi" adını ilk dəfə Şöyübova verdik.

Məktəbin şəhərdə və kənddə, şəhərin mərkəzində və ya kənarında yerləşməsi onun təhsil səviyyəsinin dəyişilməsinə təsir göstərə bilməz. 6 nömrəli məktəb həmişə nümunəvi məktəb olub, onun böyük tarixi var. Çox məmnunam ki, o bu adı indiyə qədər, bütün çətin dövrü yaşayaraq qoruyub saxlayıb və ümidvaram ki, bundan sonra da şərəflə qoruyacaqdır.

Bu gün xatırlayıram ki, 1977-ci ildə mənim oğlum İlham məktəbi qurtararkən mən gəlib başqa valideynlərlə birlikdə buraxılışda iştirak etdim. Onların bir çoxları təəccüb edirdilər ki, necə ola bilər ki, ölkənin başçısı gəlib burada, məktəbdə bütün başqa valideynlərlə birlikdə mərasimdə iştirak edir. Mən hesab edirəm ki, o təəccüb edənlər səhv edirdilər. Çünki bizim özümüz də məktəbdən çıxmışıq. Bizim özümüz də məktəbin yetirmələri idik. Mənim oğlum 10 il burada təhsil almışdır. Əgər yaxşı təhsil alıbsa, təbiidir ki, mən onun buraxılış tədbirinə getməli idim, öz təşəkkürümü bildirməli idim. Keçmişi yada salaraq demək istəyirəm ki, İlhamın, Sevilin anası, mənim mərhum həyat yoldaşım Zərifə xanım valideynlərin bütün iclaslarına gedirdi və iştirak edirdi. Bu da hər bir valideynin borcudur. Valideynlər gərək məktəblə həmişə sıx əlaqə saxlasınlar. Gəlsinlər, uşaqların dediyi ilə yox, müəllimlə haradasa görüşməklə yox, məktəbdə uşağının necə oxumasını, məktəbdə olan şəraiti görsünlər. Beləliklə, onlar öz uşaqlarının yaxşı oxuması üçün yaxşı fəaliyyət göstərə bilərlər, eyni zamanda, məktəblə əlaqə insanı daha da cavan saxlayır. Bunun da böyük əhəmiyyəti var.

Mən bu məktəbə çox təşəkkür edirəm ki, iki övladımın orta təhsil almasında mənə bir valideyn kimi böyük töhfələr veribdir. Təsadüfi deyil ki, bu məktəbdə aldıqları orta təhsil əsasında oğlum Moskvada ən mötəbər universitetlərdən birini bitirdi. Qızım buradakı universiteti - Bakı Dövlət Universitetini bitirdi. Sonra aspiranturanı Moskvada Şərqşünaslıq İnstitutunda oxudu. Oğlum sonra həmin o Beynəlxalq Əlaqələr İnstitutunda elmlər namizədi kimi dərs verirdi. Bunların hamısının kökü, başlanğıcı məktəbdir Təbiidir ki, hər bir uşaq eyni istedada malik ola bilməz. Amma, eyni zamanda, məktəbdə hər bir uşağın yüksək təhsil alması üçün göstərilən səylər, o istedad fərqini müəyyən qədər azatdır.

Sizə bir daha təşəkkür edirəm.

Mən inanıram ki, 6 nömrəli məktəb özünün gözəl ənənələrini davam etdirəcək. Bugünkü tanışlığım məndə müsbət təəssürat yaratdı. Mən təsdiq edirəm ki, bu ənənələr davam edir, ümid edirəm ki, bundan sonra da davam edəcək. İnanıram ki, 6 nömrəli məktəb Azərbaycanın nümunəvi, milli məktəblərindən biri olacaqdır.

Məktəbin müəllimlərinə, bütün kollektivə, Azərbaycanın bütün təhsil işçilərinə, bütün müəllimlərinə, Azərbaycanın təhsil alan uşaqlarına, ali məktəblərdə təhsil alan gənclərə, hamıya bu yolda uğurlar arzulayıram. Sizin hamınıza cansağlığı, səadət arzulayıram. Sağ olun".

Bu nitq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təhsilə verdiyi strateji əhəmiyyətin, onun elmi cəmiyyətin formalaşmasında oynadığı həlledici rola dair baxışlarının parlaq ifadəsidir. Ulu öndər təhsili yalnız biliklərin ötürülməsi prosesi kimi deyil, milli dövlət quruculuğunun, elmi potensialın və intellektual cəmiyyətin əsas təməli kimi təqdim edir. Nitqin hər bir məqamında təhsilin Azərbaycan dövlətinin gələcəyi üçün nə dərəcədə zəruri olduğu aydın şəkildə hiss olunur.

**(ardı var)**

***Arif HƏŞİMOV***
***akademik***

*I Türkoloji Qurultay*

# Türk xalqlarının XX əsr elmi-mədəni manifesti

## *Müsahibimiz görkəmli ədib və ictimai-siyasi xadim Hidayət Orucovdur*

**– Hidayət müəllim, sizin 60 ildən artıq davam edən ədəbi-ictimai fəaliyyətinizdə ümumtürk etnik-mədəni kimliyinin öyrənilməsi və tanıdılması davamlı və önəmli yer tutur. I Türkoloji Qurultayın tarixi və ideyaları ixtisasca filoloq olduğunuzdan sizə on illər əvvəldən yaxşı məlumdur. Ümumtürk mədəni tarixinin parlaq səhifələrindən olmuş bu elmi-məfkurəvi forumun Azərbaycanda keçirilməsi ideyası nədən qaynaqlanmış və özünü necə doğrultmuşdur?**

– Tarixdə ilk türkoloji elmi məclisin Bakıda təşkil edilməsi heç də təsadüfi olmamışdı. Qurultayın əsas məsələsi türk-islam dünyasında, xüsusən SSRİ-nin türkdilli respublika və toplumlarında kütləvi savadlanmağa, eləcə də kommunist təbliğatının geniş yayılmasına meydan açan əlifba islahatı məsələsi idi. Azərbaycan ziyalıları yarım əsrdən artıq idi ki, bu sahədə müəyyən təşəbbüslər göstərmiş, elmi-pedaqoji təməllər yaratmışdılar.

Rusiya imperiyası Qafqazı işğal edəndən sonra özünə bir köynək yaxın bildiyi xristian Gürcüstanının paytaxtı Tiflisi regionun inzibati-mədəni mərkəzi kimi inkişaf etdirirdi. XIX əsrin əvvəllərində dövlət müstəqilliyini itirmiş Şimali Azərbaycanın barmaqla sayılacaq qədər ziyalıları bu səbəbdən Tiflisdə cəmləşmişdi. Şərq və Qərb mədəniyyətlərinə dərindən bələd olan yerli zadəganlar Abasqulu ağa Bakıxanov və Mirzə Fətəli Axundzadə Rusiya imperiyasının Qafqaz canişinliyində yüksək məmur vəzifələrində çalışırdılar. Maarifçi şair-pedaqoq Mirzə Şəfi Vazeh də bu şəhərdə məktəbdarlıq, xəttatlıq edirdi.

Azərbaycana maraq göstərən Rusiya və Qərb dövlətlərinin ziyalıları bu 3 qabaqcıl fikirli insanın timsalında ölkəmiz barədə bilgilər əldə edirdilər. Azərbaycan maarifçiliyinin özəyini təşkil edən həmin 3 mötəbər ziyalı, xüsusən Mirzə Fətəli Axundzadə xalqımızın gələcək inkişafını dünyəvi təhsilin və elmi biliklərin yayılmasında görürdülər. Bu dövrdə hakim dairələr yerli xalqları dövlət həyatının yenilikləri ilə tanış etmək, öz təbliğatını qurmaq üçün türk dilində də qəzet nəşr etmək təşəbbüsü göstərmişdi. Rus dilini bilən ziyalılar yetişdirmək üçün qəza mərkəzlərində ibtidai məktəblər də açılmışdı.

Lakin ərəb əlifbasının mürəkkəbliyi ana dilində oxuyub-yazmağı təlim edən məktəblərin açılmasına, türk dilində qəzetçilik fəaliyyətinə, eləcə də milli ədəbiyyatın nəşrinə ciddi maneə yaradırdı. Çar xanədanının başbilənləri Qafqazın üstünlük təşkil edən türk-müsəlman əhalisini İslam dinindən, Şərq mədəniyyətindən ayırıb ruslaşdırmaq üçün ilk təsirli addımı ərəb əlifbasını əvəz edəcək, islah olunmuş yeni yazı qrafikasına keçilməsində görürdülər.

Bu zərurətə milli mövqelərdən yanaşan Mirzə Fətəli Axundzadə isə əməli addım olaraq ana dilimizdə hər səsi 1 işarə ilə bildirən sadə əlifba tərtib etmişdi. O, öz əlifba sisteminin Qafqazın qonşuluğunda – İslam dünyasında üstün nüfuz sahibi olan Osmanlı və Qacar imperiyalarında rəsmən qəbul edilməsi ilə ölkəmizdə də asan yayıla biləcəyini düşünürdü. Mirzə Fətəli bu məramla hər iki ölkənin ixtiyar və nüfuz sahibləri ilə yazışmalar aparmışdı, Türkiyə və İrana gedib yüksək çinli məmurları ərəb əlifbasını islah edilmiş yazı sistemi ilə əvəz etməyə razı salmağa çalışmışdı. Lakin onu hörmətlə qəbul edib, əliboş geri qaytarmışdılar.

**– Mirzə Fətəli Axundzadə bu məsələyə türk-müsəlman xalqlarının kütləvi savadlanması, maarifçilik baxımından yanaşsa da, Osmanlı və Qacarlar dövlətində bu layihənin Rusiyanın hakim dairələrindən İslam dininə qarşı yönəldiyini zənn edib geri çəkilmişdilər. Bildirilmişdi ki, ərəb əlifbası Quran yazısıdır, ondan imtina etmək İslama da, türklüyə də ziyan gətirər.**

– Mirzə Fətəli Axundzadənin bu inadlı cəhdlərindən 60-70 il keçəndən sonra keçirilmiş I Türkoloji Qurultayın gedişində də ərəb əlifbasına tərəfdar çıxanlar tapılmışdı. Niyə uzağa gedirik, elə indinin özündə də ərəb əlifbasından imtina edilməsinin o zaman səhv qərar olmasını düşünənlər var. Belələri islah olunmuş əlifbanın türk-müsəlman xalqlarının kütləvi savadlanmasında rolunu ya görmürlər, ya da SSRİ-də baş vermiş elmi-mədəni tərəqqini bolşeviklərin öz ideyalarını yaymaq, hakimiyyətlərini möhkəmləndirmək siyasəti kimi başa düşürlər.

**– Yeri gəlmişkən, xatırlayaq ki, böyük maarifçi-demokrat Həsən bəy Zərdabi ilk milli qəzetimiz "Əkinçi"nin nəşri uğrunda cidd-cəhlə mübarizə aparanda Mirzə Fətəli Axundzadə onun bu niyyətinin baş tutmasına ümidsiz yanaşmış, bir məktubunda yazmışdı ki, ərəb əlifbası ilə buraxılan qəzeti savadsız adamlar oxuya bilməyəcəklər. Bu əlifba və məktəb-müəllim azlığı hamılıqla savadlanmağa mane olur.**

– Bəli, bu, eyni məsləkli iki böyük ziyalımızın kütləvi maariflənməyə münasibətində taktiki fikir ayrılığı idi. Hər ikisi də haqlı idi. Həsən bəy deyirdi ki, hələlik, əlifbanı dəyişmək mümkün deyil. Az sayda adam Quranı, Çərəkəni, digər ədəbiyyatı ərəb əlifbası ilə də oxuyur. Xalqı ayıltmaq üçün bizə qəzet lazımdır. Oturub gözləyə bilmərik ki, nə vaxt əlifba dəyişəcək. Düzdür, Zərdabi 1875-ci il iyulun 22-də ilk qəzeti hasilə gətirdi. Lakin ikinci nömrədən sonra oxucu azlığından şikayətlənməyə başladı.

Həsən bəy xalqı o qədər elm-təhsilə çağırdı ki, axırda Mirzə Fətəli dözə bilməyib "Əkinçi"yə yazdı ki, əlifba çətin, ana dilli müəllim, məktəb də yox dərəcəsində. Xalq necə savadlanıb qəzet oxusun? Onda Zərdabi daha böyük inamla bildirdi ki, biz xalqın öz vəsaiti hesabına məktəblər açmalı, müəllimlər yetişdirməliyik ki, milli təhsilimiz tezliklə inkişaf etsin. Sonrakı illərdə Həsən bəy Bakı Dumasının deputatı olanda əhalinin vəsaiti ilə 13 belə məktəb açılmasına nail olmuşdu. Beləliklə, oxuyub-yaza bilənlərin sayı tədricən çoxalmışdı. XX əsrin əvvəllərindən başlayaraq "Əkinçi" yolunu davam etdirən "Şərqi Rus", "Həyat", "Molla Nəsrəddin", "Füyuzat", "İrşad", Tazə həyat", "İşıq", "Açıq söz", "Dəbistan", "Məktəb" kimi çoxsaylı qəzet-jurnallar ərsəyə gəlmişdi.

Maarifçi-demokrat ziyalılarımızın milli oyanış prosesini inkişaf etdirməsi ilə Bakı Rusiyanın türk-müsəlman xalqları üçün mədəni mərkəzinə çevrilmişdi. Bu prosesdə Rusiyanın ilk türk qəzeti, ilk türk teatrı, Şərqin ilk operası və digər xeyli ilklər Bakıda yaranmışdı. Ən əsası da o olmuşdu ki, 1918-ci ilin 28 mayında türk-müsəlman dünyasının ilk demokratik cümhuriyyəri Azərbaycanda qurulmuşdu. XIX əsrin ikinci yarısından neft sənayesinin sürətli inkişafı ilə Qafqazın ən sivil şəhərinə çevrilən Bakı bu milli dövlətin paytaxtı olmuşdu.

AXC-nin 2 ilə yaxın fəaliyyəti dövründə həyata keçirilən milli dövlət quruculuğu Bakının Qafqazda və Yaxın Şərqdə siyasi-mədəni mərkəz rolunu önə çəkmişdi. Sonrakı bir neçə ildə də Azərbaycan və Bakı sürətlə türk-müsəlman dünyasının sivil mərkəzinə çevrilmişdi.

1920-ci ilin bolşevik işğalından sonra Azərbaycana hökm edən Moskvanın kommunist rəhbərliyi Bakını qırmızı inqilabı Türkiyə, İran, Əfqanıstan və digər Şərq ölkələrinə yaymaq üçün əlverişli bir məkan hesab edirdi. Bu məqsədlə də Azərbaycan sovetləşdiriləndən 4 ay sonra – sentyabrın 1 – 7-də bolşevik lider Vladimir Leninin yaratdığı və kommunist inqilabını dünyaya yaymağı qarşısına məqsəd qoymuş Komintern Bakıda Şərq Xalqlarının I qurultayını keçirmişdi.

Beləliklə, Bakının beynəlxalq miqyaslı tədbirlər üçün uyğun məkan olmasının 3 əsas səbəbi var idi. Əvvəla, o zaman bu şəhərin ən böyük neft mərkəzi olması onu dünya miqyasında tanıtmışdı. İkincisi, tarixi təməllər üzərində Avropa mədəniyyətinin sürətlə mənimsənilməsi Bakını Şərqdə də, Rusiyanın türk-müsəlman xalqları arasında ən sivil bir şəhərə çevirmişdi. Nəhayət, çar imperiyasının varisi olan sovet Rusiyasının hakim mövqe tutduğu qırmızı imperiya Azərbaycanı mədəni sferada inkişaf etdirməklə, ən azı, Türkiyə və İranı kommunist quruluşunun üstünlüyünə təşviq etmək istəyirdi.

Dünyada yaşayan türk xalqlarının mədəni inkişafını, milli-etnik problemlərinin öyrənilib aradan qaldırılmasını gündəmə gətirmiş Türkoloji Qurultay da məhz belə bir şəraitdə – həm türk dünyasında qazandığı öncül mövqeyə, həm coğrafi baxımdan türk arealının mərkəzində yerləşməsinə, həm də Moskvanın açıq-gizli niyyətlərinə uyğunluğuna görə Bakıda təşkil edilmişdi.

Əlavə edək ki, Rusiya Şərqi həmişə Azərbaycan vasitəsi və azərbaycanlıların zəkası ilə öyrənib. Avropa şərşünaslığının çıxış nöqtəsi Macarıstan və Armin Vamperi olduğu kimi, Rusiya elmi şərqşünaslığı da Azərbaycandan qaynaqlanıb, Mirzə Kazım bəylə, Mirzə Cəfər Topçubaşovla kamala çatıb.

Bakı bu gün də Şərq və Qərb mədəniyyətlərinin üzvi surətdə qovuşduğu, Şərqi Qərblə, Şimalı Cənubla birləşdirən geosiyasi və etnik-mədəni mərkəz kimi tanınır və bu rolunu daha üstün formalarda davam etdirir. Türk Dövlətləri Təşkilatının və Türk dövlətlərinin ayrı-ayrı təsisatlarının Azərbaycan paytaxtında keçirilən Zirvə görüşləri, Bakı Beynəlxalq Multikulturalzm Mərkəzinin daimi fəaliyyəti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi Bakı Qlobal Forumları, BMT, UNESCO və İSESCO-nun, digər dünya qurumlarının mötəbər məclisləri ölkəmizin beynəlxalq düzəndə önəminin göstəricisi olmaqla yanaşı, həm də bu sahədə ənənələrə sadiqliyinin, qazandığı tarixi təcrübəni bəşəri töhfəyə çevirə bilməsinin təsdiqidir.

**– I Türkoloji Qurultayın məram və qərarları Azərbaycanın dövlət müstəqilliyi dövründə xalqımızın və Türk dünyasının tarixində önəmli rol oynamış nadir tarixi hadisə kimi dəyərləndirilərək dərindən öyrənilib. Qurultayın 80, 90 və 100 illik yubileyləri onun ideyalarını yenidən və iri planda gündəmə gətirir.**

– Azərbaycan ilk türkoloji məclisin təşkilatçısı olduğu kimi, milli ziyalılarımız qurultayın gedişinə təşəbbüskarlıqla yön veriblər, onun müzakirələrində fəallıqla iştirak ediblər, qəbul olunan qərarlarda öz mövqelərinin ifadə edilməsinə nail olublar. Qurultayın əsas uğuru sayılan latın qrafikalı əlifbaya keçilməsində, türk irsinin toplanıb öyrənilməsində də Azərbaycan öncüllük edib.

Ötən əsrin 50-ci illərindən başlayaraq sovet rejiminin verdiyi icazə çərçivəsində ölkəmizdə türkoloji tədqiqatlar davam etdirilib, Bakı SSRİ-də türkoloji mərkəz rolunu qoruyub saxlayıb. Müstəqillik dövründə isə azərbaycançılığın rəsmi dövlət ideologiyasına çevrilməsi ilə yanaşı, türkoloji tədqiqatlar da bütün qadağa və məhdudiyyətlərdən xilas edilib. Ölkəmiz türkoloji irsə çağdaş türk birliyinin ideya-məfkurəvi özülü kimi yanaşır.

Bakı türkoji qurultayının yubileylərinin Prezident İlham Əliyevin sərəncamları ilə dövlət səviyyəsində qeyd edilməsi də Türk dünyasında bir örnək təşkil edərək bu birliyin möhkəmləndirilməsinə, ortaq hədəflərin dügün seçilməsinə və ardıcıl gerçəkləşdirilməsinə xidmət edir. Ötən 2 yubileydə olduğu kimi, indiki 100 illik də ölkəmizdə türkoloji qurultayın irsinə böyük maraqla, qurultay iştirakçılarının xatirəsinə dərin ehtiramla müşayiət olunur.

**– Doğrudan da, bu qurultay keçirildiyi dövrün məhdud imkanlarına, ideoloji çərçivələrə baxmayaraq türk xalqlarını milli ziyalılarının misilsiz fədakarlığı, kənar xalqların türkoloqlarının türk xalqlarının tarixinə və mədəniyyətinə sivil münasibəti ilə əlamətdar olub.**

– Azərbaycan paytaxtı 1926-cı ilin fevral – martında, sadəcə, beynəlxalq elmi konfransa deyil, bütün Türk dünyasının mədəni və mənəvi irsinin zənginliyini dünyaya nümayiş etdirən irimiqyaslı bir festivala, növbəti yüksəlişə meydan açan tarixi qərarlar forumuna şahidlik etmişdi. Türkoloji qurultay türk xalqlarının tarixində həm elmi tərəqqi, həm də mədəni yüksəliş yollarını arayıb-axtarmışdı. Bu qurultay, bütünlükdə, türk ölkələrinin və toplumlarının tarixində ortaq dəyərləri, elmi-mədəni tərəqqi yollarınıa işıq salan tarixi hadisə kimi yazılıb.

İndiki nəsillər bir əsrdən sonra bu ideyalara yeni nəfəs verir, türk xalqlarının birliyinin əsası olan dil, elm və mədəniyyət amillərini yenidən aktuallaşdırır. Mütəxəssislər haqlı olaraq bildirirlər ki, 1926-cı ildə Bakıda əsası qoyulan elmi və mənəvi platforma bir əsrdən sonra yeni tarixi mərhələyə yüksəlir.

Bizim günlərdə Bakı qurultayının məram və hədəflərinə yenidən baxmaq, onun qərarlarının nə dərəcədə gerçəkləşdiyini müəyyən etmək, növbəti vəzifələri seçib-ayırmaq mənəvi zərurətdir. Araşdırmalar göstərir ki, I Türkoloji Qurultay elmi-praktik məclis olmaqla yanaşı, siyasi mahiyyət də daşıyırdı. Toplantı SSRİ-də yaşayan türk xalqları arasında elmi əməkdaşlığın, milli özünüdərkin, həm də mədəni inteqrasiyanın yollarına işıq salmışdı və müəyyən mənada buna nail olmuşdu da.

Qurultayda Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan, Tatarıstan, Başqırdıstan, Krım, Yakutiya və digər türk diyarlarından gəlmiş görkəmli türkoloq və ziyalıların millii quruculuq ideyalarının ortaq məqamlarını müəyyən etməsi böyük bir gələcəyə işıq salmışdı. İndi biz bu işığı daha aydın görür və minnətdarlıqla dəyərləndiririk.

Qurultayın məqsədi türk xalqları arasında əlifba və yazı sistemi üzərində ortaqlıq yaratmaq, elmi terminologiyanı birləşdirmək, türk dillərinin və bu dildə ifadəsini tapmış mədəni irsin sistemli öyrənilməsini təşkil etmək idi. Öz xalqlarının taleyinə məsul olan görkəmli türk xadimlər – Əli bəy Hüseynzadə, Səməd Ağamalıoğlu, Bəkir Çobanzadə, Zəki Vəlidi Toğan, Fuad Köprülü, Əhməd Baytursun, Qalimcan Şərəf, eləcə də Vasili Bartold, Aleksandr Samoyloviç, Nikolay Poppe, Gyula Mesaroş, Ağafanqel Krımsi, Aleksandr Miller, Yevgeni Bertels, Artur Zifeldt, Nikolay Asmarin kimi dünyaca məşhur böyük türkoloqlar türk soyunun pozulmuş tarixi köklərinə qayıdışı, gələcək mədəni anlaşmaya, ünsiyyət birliyinə və mənəvi varisliyə körpü salmaq üçün elmi-nəzəri və əməli-təcrübi amilləri fədakarlıqla, inadla dövriyyəyə gətirmişdilər.

Sovet ideoloqları formal olaraq "millətlərin öz müqəddəratını təyin etməsi" prinsipini qəbul etmişdilər. Amma reallıqda imperiya türk xalqları arasında milli oyanışdan ciddi şəkildə ehtiyat edirdi. Belə bir şəraitdə Bakıda bu miqyasda elmi-mədəni hadisə həm elmi, həm də siyasi mənada uğurlu addım idi.

**– Aparılan elmi müzakirələrin arxasında hansısa gizli siyasi məqamlar dayanırdımı?**

– Bu sual indi daha çox gündəmdədir. Üstündən 100 il keçən I Türkoloji Qurultayın həm görünən, həm də görünməyən tərəfləri barədə dilçi və tarixçilər yeni fikirlər söyləyirlər. Görünən tərəfi ondan ibarətdir ki, bu elmi toplantıda türklüyün elmi və mədəni birliyini müzakirə etmişdilər.

Qurultayın görünməyən tərəfi isə bu olub ki, sovet rejimi həmin toplantıdan "millətçi"ləri üzə çıxarmaq və "zərərsizləşdirmək" üçün istifadə edib. Qurultay zahirən elmi xarakter daşısa da, onun arxasında ciddi ideoloji gərginliklər olub. Türk xalqları arasında ortaq mədəni və elmi əməkdaşlıq ideyası Moskva üçün "pantürkizm" anlayışı ilə eyniləşdirilib. Türk dillərinin yaxınlığı, ortaq köklərin vurğulanması və mədəni inteqrasiya məsələləri sovet rəhbərliyi tərəfindən potensial təhlükə kimi qiymətləndirilib.

Xüsusilə, ortaq latın əlifbasına keçid ideyası, türk dillərinin bir sistemdə öyrənilməsi və milli ədəbiyyatların qarşılıqlı təsiri kimi məsələlər sonradan repressiya dalğalarının ideoloji əsaslarından birinə çevrilib. I Türkoloji Qurultay həm böyük intellektual yüksəlişin, həm də milli faciənin başlanğıcı olub.

**– Azərbaycan ziyalıları Türkoloji Qurultaya hansı töhfə vermişdilər?**

– Serial məclisdə ölkəmizin 20-dək görkəmli ziyalısı iştirak etmişdi. Bəkir Çobanzadənin "Türk dillərinin fonetikasında sait və samitlərin sintezi", Hənəfi Zeynallının "Məktəblərdə tədris dili" mövzusunda məruzələri qurultayın gedişinə önəmli yön vermişdi. Onlar türk dillərinin ortaq prinsiplər əsasında öyrənilməsini və müasir tədris metodlarının yaradılmasını təklif etmişdi.

**– Qurultaydan sonra əlifba məsələsi necə həll edildi?**

– 1 il sonra SSRİ MİK-in 11 may 1927-ci il tarixli qərarı ilə latın qrafikalı Türk Əlifbasının Mərkəzi Komitəsi təşkil edildi və Səməd Ağamalıoğlu sədr təyin edildi. 1928-ci ildə isə Ümumittifaq "Türk Əlifbası Komitəsi" adlı qurum da yaradıldı, yeni əlifba layihələrinin müzakirəsi başlandı.

Azərbaycan da daxil olmaqla SSRİ-nin bir sıra türk xalqları latın qrafikasını qəbul etdi. Türkiyə də bu əlifbaya keçdi. Sovet rəhbərliyi Türkiyəni kommunistləşdirməyin mümkün olmadığını görüb, əksinə, yeni əlifbanın onları türk xaqları ilə yaxınlaşdıracağından qorxdu sovet türklərini kiril qrafikasına keçirdi.

**– Bu əlifba oyunu və Türkoloji Qurultayda iştirak edən ziyalıların əksəriyyətinin 11 il sonra məhv edilməsi Bakı məclisinin ideoloji tələ olması anlamına gəlmirmi?**

– Buna oyun demək çətindir. Təkrar edirəm ki, Moskvanın kommunist rəhbərliyi özünü türk-müsəlman xalqlarının dostu və himayədarı göstərməklə Türkiyəni və digər Şərq xalqlarını öz tərəfinə çəkmək istəyirdi. Rusiyanın hakim olduğu qırmızı imperiyanın romanovların siyasətini davam etdirdiyini görən Türkiyə öz yolu ilə getdi. Yaxınlaşan Dünya müharibəsində Türkiyəni və türklüyü düşmən gözündə görən Kreml sovet türkoloqlarını və türkologiyasını aradan götürdü.

Latın qrafikasını kiril əlifbası ilə əvəz etmək isə Türkiyə ilə arada uçurum yaratmaq demək idi. Moskva, eyni zamanda, Azərbaycan torpağının köklü sahibi olan türk xalqının tarixi kimliyini unutdurmaq üçün onun adını coğrafi məkanla eyniləşdirdi. Düzdür, bu adlandırma zorakı yolla baş verdi. Amma türk xalqları tarixən ayrılıb müxtəlif adlar aldığından Azərbaycan türkləri də nə vaxtsa uyğun bir ad almalı idi.

Osmanlı dövlətinin Cümhuriyyət dövründə Türkiyə, onun xalqının isə türk adı alması dilin bütün kateqoriyalarında fərqli duruma gəlmiş iki xalqın eyni ad daşımasını qeyri-mümkün etmişdi. Buna görə də müstəqillik illərində Azərbaycan dilinin yenidən türk dili adlandırılması cəhdi ağlabatan olmadı və cəmiyyətdə dəstəklənmədi. Bir də ki, Azərbaycan coğrafiyasında Azərbaycan dili adı almaq bu dilin türk dilləri ailəsinə məxsus olduğunu inkar etmir.

**(ardı var)**

***Müsahibəni hazırladı:***
***Tahir AYDINOĞLU***
***XQ***





I Türkoloji Qurultay

# Türk xalqları hansı əlifbanı seçməlidir?

## *Ana dilimizin əlifba tarixindən*



*(əvvəli qəzetin 17 və 23 yanvar 2026-cı il tarixli saylarında)*

Qalimcan Şərəfin çıxışının ən maraqlı tərəfi onun əlifba islahatının "görünməyən xərclərini" açıq şəkildə sadalamasıdır: mövcud savadlı kadrların yenidən təhsili, paralel nəşriyyatın illərlə saxlanılması, ikili oxu-yazı bacarıqlarının formalaşdırılması, savadlanma tempinin müvəqqəti zəifləməsi. Bu, əlifbanın ideoloji simvol yox, logistika, büdcə və zaman məsələsi kimi təqdim edilməsidir. Xüsusilə vacib məqamlardan biri mədəni baxımdan daha inkişaf etmiş xalqlar üçün bu yükün daha ağır, yəni inkişaf səviyyəsi artdıqca əlifba dəyişməsinin dəyərinin də artmasıdır. Q.Şərəf Jirkovla metodoloji yaxınlıq nümayiş etdirir: şrift – texniki vasitə, emosional və simvolik yüklərdən azad edilməlidir. Lakin Jirkovdan fərqli olaraq, o, texniki mükəmməllikdən çox texniki riskləri ön plana çəkir: texniki cəhətdən düzgün qərar, yanlış zaman və səhv miqyasda tətbiq edilərsə, sosial baxımdan dağıdıcı olar.

Qalimcan Şərəfin mövqeyi ümumi əlifba diskursunda balanslaşdırıcı, realist və məsuliyyət yönümlü xətti təmsil edir. Onun çıxışı latın əlifbasına ideoloji qarşıdurmadır: Latın qrafikasına keçid tarixi baxımdan qaçılmaz görünə bilər, lakin sosial və iqtisadi baxımdan son dərəcə riskli bir addımdır. Buna görə də yalnız texniki üstünlüklər deyil, real itkilər də nəzərə alınmalıdır.

Məruzənin əsas konseptual üstünlüyü ondan ibarətdir ki, şrift seçimi ideoloji və ya simvolik məsələ kimi deyil, texniki-funksional problem kimi təqdim olunur. Qorxmasovun və Ağamalıoğlunun inqilabi-tarixi arqumentlərindən, Qaraçaylı İslamın azadlıq metaforikasından, hətta Jirkovun qismən texniki-fəlsəfi mövqeyindən fərqli olaraq, bu yanaşma rasionalizmə əsaslanır. Burada açıq şəkildə belə bir tezis formalaşır: əlifba – məqsəd deyil, vasitədir; vasitə isə ölçülə, müqayisə edilə və optimallaşdırıla bilər.

Müəllifin irəli sürdüyü 8 meyar əlifba müzakirəsini ilk dəfə olaraq kompleks sistem təhlilinə çevirir: 1) qrafem ehtiyatı (fonetik adekvatlıq), 2) oxu sürəti, 3) yazı sürəti, 4) mətbəə texnologiyası ilə uyğunluq, 5) iqtisadi səmərəlilik, 6) mövcud savadlılıq bazası və öyrənmə asanlığı, 7) beynəlxalq kommunikasiya potensialı, 8) estetik görünüş. Bu struktur göstərir ki, təkcə "Əlifba hansı səsləri ifadə edir?" sualı yetərli deyil və onun effektivliyi yalnız fonetik parametrlərlə ölçülməlidir.

Müəllifin əsas fikri belədir ki, yazı sistemi insan gözünün, əlinin və beyninin real işləmə mexanizmlərinə uyğun olmalıdır. Bu yanaşma Qorxmasovun inqilabi-tarixi xəttindən, Məmmədzadənin fonetik-texniki optimizmindən, Jirkovun ümumi texniki meyarlar modelindən daha da irəli gedərək qavrayış səviyyəsini mərkəzə çəkir. O, ərəb şriftini tamamilə rədd etmir, əksinə, sağdan sola yazını qorumaqla, qrafik formaları sadələşdirməklə, böyük-kiçik hərf anlayışını tətbiq etməklə, hərflərin mövqe üzrə çoxformalı strukturunu ixtisar etməklə inkremental (tədrici) islahat modelini irəli sürür. Bu yanaşma Qorxmasovun latın inqilabı tezisinə qarşı, Jirkovun təbii seleksiya dəlilinə paralel olsa da, amma daha praktik-idarəolunan bir alternativ faktdır. Məruzəçi bunu pedaqoji baxımdan çox ciddi arqument hesab edir, çünki oxu vərdişinin sabitliyi savadlılığın davamlılığını müəyyən edir; latın dünyasında belə ap ilə əlyazmanın yaxınlaşdırılması təklif olunur. Məsələn, Tomsonun kursiv əsaslı şrift ideyası göstərir ki, problem ərəb yazısında deyil, mexaniki mətbəə hərflərinin oxu psixologiyasına uyğun olmamasındadır. Bu ərəb şriftinin "geri qalması" yox, əksinə, düzgün istiqamətdə formalaşması kimi şərh olunur.

Müəllif mühüm bir məlumat əlavə edir ki, hər hansı bir əlifbaya uyğun işarələr əlavə edilərsə, istənilən fonetik dəqiqliyə çatmaq olar. Bu fikir latın tərəfdarlarının əsas arqumentini neytrallaşdırır: "məsələ əlifbada deyil, orfoqrafiya siyasətindədir". Bu baxımdan Leninqrad və Moskva professorlarının "ərəb şrift sistemi türk dillərinə yararsızdır" fikri elmi maksimalizm kimi təqdim olunur.

Məruzədə psixolinqvistik hadisə olan oxu prosesinə izah verilir: savadlı oxucu hərf-hərf yox, sözləri vizual bütövlük (ideoqram) kimi qavrayır. Deməli, belə nəticə çıxır ki, əlifbanın dəyişdirilməsi yalnız yeni hərflərin öyrənilməsi deyil, bütün vizual söz bazasının yenidən qurulmasıdır. Bu arqument isə latına keçidinin "tez savadlanma" vədi ilə, faktiki olaraq, müvəqqəti savadsızlıq yaratdığını göstərir. Yaponiya Komitəsinə istinad ideoloji yox, tarixi səhvin nəticələrinə işarədir. O, açıq mesaj ötürür: texniki cəhətdən mümkün olan hər layihə sosial baxımdan rasional olmaya bilər. Bu, latın əlifbasına keçidin ağlasığmaz xərclərini ön plana çıxarır. Müəllif beynəlxalq əlifba arqumentini açıq şəkildə zəif hesab edir, belə ki, nə dillərin ləğvi realdır, nə də gələcək əlifbanın latın olacağı məlumdur. Bu dəlil proqnoz üzərindən texniki qərar verməyin qeyri-elmi olduğunu göstərir. Yekun olaraq, öz elmi qənaətini belə ifadə edir ki, yaxın qohum dillər üçün iki fərqli yazı sistemi mədəni və iqtisadi əlaqələri parçalayır. Bu baxımdan ərəb əlifbası türklər üçün mövcud ümumi platformadır, latına keçid isə bu platformanı dağıdır. Onun əsas tezisini belə ümumiləşdirmək olar: əlifba dəyişdirmək sadəcə hərfləri dəyişmək deyil, oxu mexanizmini, yazı motorikasını, vizual yaddaşı və mədəni dövriyyəni yenidən qurmaqdır. Əgər mövcud sistem islah edilə bilirsə, onu ləğv etmək elmi baxımdan əsaslı deyil.

Bu məruzə nə ərəb əlifbasının mühafizəkar müdafiəsidir, nə də latın əlifbasının inqilabi tərənnümüdür. Əgər eyni nəticəyə daha az dəyişikliklə nail olmaq mümkündürsə, radikal addım elmi baxımdan daha qənaətbəxşdir. Bu baxımdan məruzə 1926-cı il I Ümumittifaq Türkoloji Qurultay diskursunda ən rasional mövqelərdən birini təmsil edir.

**Qurultayın ən mühüm iştirakçılarından və Təşkilat komissiyasının üzvlərindən biri Nəzirə Tyuryakulov (Nəzir Törəqulov)** türk xalqlarının əlifba məsələsini tarixi və texniki aspektlərdən qiymətləndirməklə bəzi boşluqlara diqqət çəkir. Onun qənaətinə görə, müasir dövrdə yalnız iki əlifba rəqabət aparır, latın və islah edilmiş ərəb əlifbası üz-üzə qalıb. Reforma hələ davam edir; müxtəlif türk cümhuriyyətlərində fərqli şəkildə aparılır. Baxmayaraq ki islahatçılar tərəfindən son söz hələ deyilməyib, ərəb əlifbasının təbiətinə uyğun çatışmazlıqlardan xali olmayan yeni tatar yazısını nümunə olaraq nəzərdən keçirək. Burada sətirüstü və sətiraltı miniatür ərəb işarələrinin taleyi ilə bağlı qalmış ilkin forma ilə kifayətlənmək oxu prosesini çətinləşdirir.

Bütün türk respublikalarında və əyalətlərində vahid qrafika və yazı sistemi mövcud deyil. Məsələn, Tatarıstanda bir əlifba tətbiq olunmağa çalışılır, Qazaxıstanda, Türkmənistanda başqa əlifba sistemi var. Tatarıstan Respublikası hökuməti ərəb əlifbasını müdafiə etsə də, faktiki olaraq müasir tatar cəmiyyəti onu qəbul etmir.

Tyuryakulov vurğulayır ki, əlifbaya fanatik yanaşmaq düzgün deyil; əlifba yalnız insan düşüncəsini ötürmək üçün bir vasitədir və ona texniki rahatlıq prizmasından yanaşmaq lazımdır. Qalimcan Şərəfin yeni ərəb əlifbası bütün maneələri aradan qaldıracaq iddialarını Tyuryakulov şübhə ilə qarşılayır.

Praktik tərəfdən baxdıqda, yeni türk əlifbasının tətbiqi üsulları hər respublika və bölgənin şərtlərinə, spesifik xüsusiyyətlərinə görə fərqlənəcək. Həmçinin beynəlxalq elmi konvensiyalar və simvollar bütün ölkələrdə saxlanılmalıdır ki, tatar dili və digər türk dillərində elmi kommunikasiya pozulmasın. Tyuryakulov qeyd edir ki, bəzi sübutlarda Qalimcan Şərəf və Alparov gecikmiş yanaşma nümayiş etdirirlər.

* * *

Tyuryakulovun çıxışı əlifba mübahisəsində normativ-ideoloji yox, texniki-praqmatik mövqeyi təmsil edir. O, əlifbanı mədəni normanın mütləq göstəricisi kimi deyil, düşüncəyə uyğun funksional vasitə kimi dəyərləndirir. Bu yanaşma onu əlifbanı mədəni simvol kimi qəbul edən natiqlərdən (Qalimcan Şərəf ) ayırır. Burada əsas metodoloji prinsip əlifbanın məqsəd deyil, alət olmasıdır. Tyuryakulovun yalnız iki "islah edilmiş ərəb və latın" əlifbasının rəqabət aparması fikri dövrün real vəziyyətini ümumiləşdirir. O, rus qrafikasını alternativ inkişaf yolu kimi deyil, daha çox tarixi-siyasi təsirin nəticəsi kimi qəbul edir. Bu, onu göstərir ki, Tyuryakulov üçün müzakirə Şərq – Qərb qarşıdurması yox, texniki uyğunluq problemidir. Məruzənin mərkəzi elmi iddiası budur ki, islah edilmiş ərəb əlifbası türk fonetik sisteminə təbii yox, süni əlavələr hesabına uyğunlaşdırmadır.

Burada üç vacib məqam var: 1) diakritik çoxluq – fonem boşluqlarının sətiraltı və sətirüstü işarələrlə doldurulması sistemi ağırlaşdırır; 2) struktur dəyişməzlik – islahatlar əlifbanın mahiyyətini dəyişmir, yalnız cüzi əlavələrdir; 3) texniki qeyri-sabitlik – süni genişlənmə qrafik vahidlərin sayını artırır və öyrənmə yükünü azaltmır. Bu arqumentlər Məmmədzadənin fonetik əsaslı latın əlifbasının müdafiəsi ilə üst-üstə düşür, lakin Tyuryakulov bunu ideoloji yox, praktik texniki baxımdan ifadə edir. Diqqətçəkən müşahidələrindən biri budur ki, türk respublikalarında vahid qrafik sistem yoxdur, əlifba mübahisəsi artıq nəzəri deyil, idarəetmə problemidir. Tatarıstan nümunəsi xüsusi əhəmiyyət daşıyır, hökumət ərəb əlifbasını müdafiə edir, cəmiyyət isə onu qəbul etmir. Bu əlifba seçiminin yalnız "yuxarıdan qərar"la mümkün olmadığını, sosial qəbulun həlledici olduğuna işarədir. Tyuryakulovun açıq şəkildə vurğuladığı prinsip budur ki, əlifbaya fanatik münasibət elmi yanaşma deyil, bu dolayı yolla Qalimcan Şərəfin mövqeyinə yönəlmiş tənqiddir. Q.Şərəf əlifbanı mədəni birlik, tarixi davamlılıq, kollektiv yaddaş kontekstində əsaslandırsa da, Tyuryakulov bunun texniki neytrallığını ön plana çəkir: əlifba dəyişə bilər, lakin elmi işarələr, terminologiya və konvensiyalar qorunmalıdır. Bu arqument əlifba islahatının elmi tədric riski yaratmaması üçün irəli sürülür, latın qrafikasının bu baxımdan daha uyğun ola biləcəyinə dolayı işarə edilir. Tarixi dinamika əsas götürüldüyü halda "gecikmiş yanaşma" ittihamının ideologiya məsələsi olmadığı üzə çıxır. Q.Şərəf ərəb əlifbasının mədəni üstünlüyünü müdafiə edir, lakin artıq sosial reallıq dəyişmişdir. Tyuryakulovun mövqeyi ümumi mübahisədə balanslaşdırıcı və realist xətti təmsil edir. O, düzgün olmayan, lakin vaxtında qəbul edilmiş əlifbanı dəstəkləyir; nə ərəb əlifbasını ideallaşdırır, nə də latını zəruriləşdirir. Onun üçün əsas meyarlar praktik uyğunluq, sosial qəbul, elmi kommunikasiya, regional fərqlərin aradan qaldırılmasıdır. Bu baxımdan, Tyuryakulovun çıxışı əlifba mübahisəsində emosional-mədəni arqumentlərdən rasional müzakirəyə keçidin nümunəsidir.

**Umar Əliyevin** məlumatına əsasən latın əlifbası sayəsində uşaqları öyrətmək, yaşlı nəsil nümayəndələri arasında savadsızlığın aradan qaldırılması daha sürətlə həyata keçiriləcək.

Ərəb əlifbası tərəfdarlarının latın əlifbasına keçidin dağlıq ərazidə yaşayan əhalinin narazılığı ilə qarşılanacağına dair fikirləri də özünü doğrultmadı. Artıq 3 ildir ki, latınlaşdırma ilə əlaqədar işlər görülməsinə baxmayaraq, həmin ərazilərdə belə hallarla qarşılaşdığımız olmayıb. Əksinə, latın əlifbası dağlıq ərazidə yaşayan əhali kütləsini mövhumatdan uzaqlaşdırıb, köləlikdən azad edib.

O qeyd edir ki, Osmanın xəlifəliyi dövründə, 644-cü ildə yaranmış "Qurani-Kərim"in qrafikası (nəsx) onun ilkin qrafikası (kufə) deyil, nəsx ilə X əsrdə Abbasilər sülaləsi dövründə yazılmağa başlanmışdır. Quran və digər dini kitabların müqəddəs əlifba ilə çap hüququ qalır, eyni zamanda İncil də kilsə-slavyan yazısı əsasındadır. Quranın dəyişməzliyi ilə birlikdə ərəb əlifbası da dəyişməz qalır.

Latınlaşma uşaqların sürətlə oxumağı öyrənməsi üçün ən doğru yoldur. Bunun təşəbbüskarları milli təhsil sistemində kütləyə ən yaxın olanlardır. Artıq bir çox çərkəz, kabardin və osetin ərəb yazısı əsasında ədəbiyyatı yox, yalnız latın əlifbası ilə çap olunan ədəbiyyatı oxuya bilirlər. Rədd edilən ərəb qrafikasının mənfi cəhətlərinə toxunmaq lazımdır. Ərəb dili sami dillərindəndir, söz köklərində sait fonemlər yoxdur, bu isə düzgün oxumaqda çətinlik yaradır, əcnəbilər üçün əlçatan deyil, düzgün tələffüz etmək üçün sözün mənasını bilməlisən. Başqa bir çatışmazlıq oxşar hərflər və nöqtələrin çoxluğudur. Nöqtələrin səhv qoyulması ilə sözün mənası dəyişir. Ərəb əlifbası qrafik baxımdan mürəkkəbdir: 6 hərfdən başqa, qalan hərflərin 4 forması: ayrı, özündən əvvəlki hərf, özündən sonrakı hərf ilə birləşmiş və sonda işlənən var.

Mədəniyyət sahəsində, yazı istehsalı vasitələrinin təkmilləşdirilmək vacib məsələdir. Ərəb əlifbası ilə müasir texniki vasitələr bu işləri təkmilləşdirmək olardımı? Əlbəttə, yox! Bu, çap işində çətinlik yaradır: ərəb hərfləri 160 qrafik işarəyə qədər çatır, bu da latın əlifbasından 50 faiz daha mürəkkəbdir. Ərəb əlifbası türk dillərinin fonetikasını yaxşı ifadə etmir. Tatar dili üçün 16 yeni hərf lazımdır, əgər saitləri də hesablasaq ərəb əlifbasını 800 faiz artırmaq lazımdır. Müxtəlif hərflərin fonemləri bir-birini əvəz edir; eyni simvol, kontekstdən asılı olaraq, samit və ya sait kimi oxuna bilər. Rəqəmlər soldan sağa yazılır, mətn isə sağdan sola, bu da yazıda, musiqidə və yazı maşınlarında çətinlik yaradır. Ümumilikdə, ərəb qrafikası kütləvi təhsil və çap üçün köhnəlib. Latınlaşdırma sayəsində daha sürətli oxumaq öyrədilir, resurslara qənaət edilir və türkdilli xalqlar üçün, o cümlədən digər ölkələrdəki diaspora üçün ədəbiyyat əlçatan olur. Ancaq əlifbanın ictimai təyinatını unutmaq olmaz, rahatlıq əsas şərtdir. Aydın olan odur ki, həm latın, həm ərəb əlifbası mövcud formada türkdilli ləhcələrin fonetik sırasını tam təmin edə bilmir. Burada əlavə hərflərdən söhbət gedir, texniki cəhətdən mürəkkəb olsa da, yaradıcı baxımdan sadədir. Texniki məqsədəuyğunluq baxımından əlifbaya tələblər haradan gəlir? Oxuma, yazma və çap rahatlığından.

Qalimcan Şərəf arqumentlərini qurarkən metodologiya baxımından düzgün yanaşma seçməyib: bəzən bir ərəb əlifbasından, bəzən digərindən istifadə edir. Onun üç əlifbası var: köhnə, islah edilmiş və layihə mərhələsində olan. Ərəb əlifbasının islahı Qalimcan Şərəfin təriflədiyi bütün üstünlükləri doğrultmur – islah yeni heç nə təqdim etmir. Ərəb əlifbasında 26 kiçik hərf varsa, əlavə olaraq 26 üst və alt simvol var. Ərəb əlifbasının texniki çatışmazlıqları varsa və onun islahı digər üstünlüklərə zərər verirsə, ondan uzaqlaşmaq lazımdır. İslahatçılar ərəb yazısında tarixi müddət olmadan dəyişiklik etmək istəyirlər; latın yazısında bu artıq edilib. Tez-tez səsləndirilən arqument: yeni əlifba tətbiqi uzun müddət inkişafı ləngidəcək. Uzunmüddətli islah, yoxsa yeni əlifbaya keçid? Daxili zərurətdən latın əlifbasına keçid həyata keçirilir.

* * *

**Umar Əliyevin** məruzəsini praktik təhsil sahəsinə həsr etmişdir. Digər çıxışlardan fərqli olaraq, o, əlifbanı ideoloji və ya tarixi simvol kimi deyil, kütləvi savadlanma və təhsil mexanizmi kimi qiymətləndirir. Əsas metodoloji prinsip belədir: əlifbanın doğruluğu onun real nəticələri ilə ölçülür. Bu, onu Qalimcan Şərəfin mədəni-tarixi prioritetli yanaşmasından köklü şəkildə fərqləndirir. Umar Əliyevin nəticələri, irəli sürdüyü arqumentlər müşahidələrinə əsaslanır, yəni latın qrafikası tətbiq olunan məktəblərdə uşaqlar daha tez oxumağı öyrənir, savadsızlığın aradan qaldırılması sürətlənir, ərəb qrafikası saxlanan bölgələrdə isə proses ləng gedir. Bu yanaşmanı latın əlifbasının üstünlüyünü ehtimal kimi deyil, ölçülə bilən nəticə kimi təqdim edir. O, toxunulmazlıq arqumentini təkzib edir: a) praktik cəhətdən – 3 il ərzində latınlaşma aparılıb, nə üsyan var, nə sosial partlayış; b) tarixi fakt – Quranın özü də vahid və dəyişməz qrafika ilə yaranmayıb: ilkin kufi, sonradan nəsx, Abbasilər dövründə standartlaşma; c) prinsipial ayırd etmə – müqəddəs mətnin toxunulmazlığı, gündəlik yazının dəyişməzliyi (bu yanaşma dini arqumenti emosional sahədən çıxarıb tarixi-rasional müstəviyə keçirir). Umar Əliyev ərəb əlifbasına yönələn tənqidi sistemli şəkildə qurur: 1) fonetik uyğunsuzluq – sami dillərinin kök-strukturu sait üzərində qurulmayıb, türk dilləri isə saitlər üzərində qurulur, oxuma yalnız mənanı bilənlər üçün mümkündür; 2) qrafik mürəkkəblik – oxşar hərflər + nöqtələr → semantik risk; bir hərfin dörd forması → öyrənmə və çap yükü; 160-a qədər qrafik vahid → texniki qeyri-səmərəlilik; 3) çap və texnologiya problemi – sağdan sola yazı + soldan sağa rəqəmlər, yazı maşınları, not yazısı və texniki mətnlərdə uyğunsuzluq. Bu göstəricilər ərəb qrafikasının kütləvi təhsil üçün köhnəldiyini göstərir. Umar Əliyevin Qalimcan Şərəfə yönələn əsas elmi tənqidi metodoloji qeyri-sabitlik üzərində qurulub. Məsələn, o, nəticə çıxarır ki, Qalimcan Şərəf bəzən köhnə ərəb əlifbasını, bəzən islah edilmiş variantı, bəzən isə hələ mövcud olmayan layihəni müdafiə edir. Bu isə müqayisəni qeyri-dəqiq edir, dəlillər qeyri-sabit obyekt üzərində qurulur; islah edilmiş ərəb əlifbası yeni keyfiyyət yaratmır, yalnız mövcud çətinlikləri başqa formada saxlayır.

Umar Əliyev mübahisəni ritorik sual ilə yekunlaşdırır: "Uzunmüddətli, nəticəsi qeyri-müəyyən islahat, yoxsa funksional və artıq işlək olan yeni əlifba?" Onun mövqeyi aydındır: təhsil ehtiyacı latın əlifbasının qəbulunu qaçılmaz edir və bu, xarici təsirlərdən və ideoloji mülahizələrdən şüurlu imtina kimi təqdim olunur.

Umar Əliyevin çıxışı əlifba mübahisəsində praktik-pedaqoji xətti, texniki səmərəlilik prinsipini, empirik nəticələrə əsaslanan qərar modelini təmsil edir, yəni əlifba nə qədər qədim və müqəddəs olursa olsun, əgər kütləvi oxu, yazı və çapı ləngidirsə, funksional ictimai dəyərini itirir. Bu çıxış Qalimcan Şərəfin mədəni-prioritet yanaşmasına qarşı rasional, ölçülə bilən və gələcəyə yönəlmiş alternativ variantı təqdim edir.

**Tatarıstan yazıçısı, ictimai xadimi Alimcan İbrahimovun** təqdim etdiyi məlumatlara əsasən, əlifba məsələsinə yanaşma üç əsas istiqaməti əhatə edir: birincisi, məsələyə prinsipial yanaşma; ikincisi, Azərbaycan və Şimali Qafqaz xalqları, həmçinin bəzi türk respublikalarında həyata keçirilən təcrübənin qiymətləndirilməsi; üçüncüsü, xüsusilə tatar sovet ictimaiyyətinin mövqeyinin diqqətə çatdırılması.

Rəsmi olaraq qeyd edilir ki, prinsip etibarilə latın əlifbasına qarşı etiraz yoxdur. Tatar ədəbiyyatı ən azı 600 illik tarixi əhatə edir və ərəb şriftinin islahı üzərində 50 ildən artıq bir müddətdə iş aparılmışdır. Son 25 ildə bu sahədə mühüm nailiyyətlər əldə olunmuşdur. Elə bir mədəni iclas yoxdur ki, ərəb şriftinin məsələsi müzakirə olunmasın. Bu sahədə yalnız fərdi şəxslər deyil, bütün ictimaiyyət aktiv şəkildə iştirak edir. Hazırda son mərhələdə əsas məsələ üç ərəb şrift formasından hansının saxlanılacağını müəyyən etməkdir.

İbrahimov vurğulayır ki, latın əlifbası bizim üçün prioritet məsələ ola bilməz, çünki xüsusi ehtiyac mövcud deyil. Azərbaycanın və Türkiyənin vəziyyəti bu baxımdan tam fərqlidir. Əgər latın əlifbasına keçmək qərarı verilərsə, dərhal yeni təlim proqramları tətbiq olunmalı və öyrətmə prosesi yenidən təşkil edilməlidir.

Bütün respublikaların vəziyyəti eyni deyil. Azərbaycanda köhnə ərəb əlifbası hələ də istifadə olunur və islahat aparılmayıb. Tarixi baxımdan, bu fikir ilk dəfə Mirzə Fətəli Axundzadə tərəfindən irəli sürülmüşdür, lakin praktik tətbiqi həyata keçirilməmişdir. Şimali Qafqazda isə yoldaş Umar Əliyevin məlumatına görə, latın əlifbası artıq tətbiq olunur və kənd yerlərində oxuma-yazma bilməyənlər bu sistem əsasında öyrədilir. Latın əlifbası bəzi hallarda daha əlverişli olsa da, türk respublikaları üçün praktik fayda verməyəcəkdir.

İbrahimovun vurğuladığı əsas məqam budur ki, vahid əlifbanı qorumaq üçün ona ehtiyatla yanaşmaq lazımdır, çünki sosial, mədəni və tarixi şərtlər fərqlidir. Bir xalqın 500 illik tarixi ola bilər, digərinin isə belə tarixi yoxdur. Bu fərqlilik, türk xalqlarının kiçik qruplara bölünmə riskini artırır və gələcək inkişaf üçün əhəmiyyət kəsb edir.

Ərəb əlifbasının islahı ilə bağlı prinsipial məsələlərdən danışarkən İbrahimov qeyd edir ki, köhnə ərəb şriftindən azad olmaq üçün iki üsul mövcuddur: islahat və inqilab üsulu. Onun fikrincə, islahat üsulu daha düzgündür və tətbiq edilməsi məqsədəuyğundur.

* * *

İbrahimov nə radikal ərəbçi, nə də aktiv latınçıdır. Onun mövqeyi mühafizəkar xətti təmsil edir. Yəni əlifbanı ictimai institut kimi görür, dəyişikliklərə tələsməməyi əsas prinsip sayır, qərarları texniki deyil, tarixi və kollektiv məsuliyyət prizmasından qiymətləndirir. Bu baxımdan o, Tyuryakulovdan daha ehtiyatlı, Umar Əliyevdən isə xeyli uzaqdır. İbrahimovun çıxışının əsas məğzi sistemli bölgüsüdür: a) prinsipial mövqe – yəni "əlifba nədir?"; b) praktik təcrübə – Azərbaycan, Şimali Qafqaz və digər türk bölgələrdə; c) tatar sovet ictimaiyyəti – konkret sosial mühit. Bu struktur ona mübahisəni emosiyadan çıxarıb idarəolunan diskursa gətirməyə imkan verir. Onun prinsip etibarilə latın əlifbasına qarşı etirazı yoxdur. Lakin bu əlifba prioritet deyil, xüsusi ehtiyac yoxdur, mövcud sistem artıq son mərhələdədir. Bu, açıq şəkildə təxirəsalma strategiyasıdır, yəni ideoloji qarşıdurmaya girmədən, mövcud ərəb islahını "tamamlayaq" mövqeyi. Belə yanaşma Qalimcan Şərəfin xətti ilə uyğunluq təşkil edir, lakin daha açıq şəkildə ifadə edir.

İbrahimov üçün əsas arqument budur: tatar ədəbiyyatı – 600 illik fasiləsiz ənənə, ərəb əlifbasının islahı – 50 illik kollektiv əmək və son 25 il – praktik nailiyyətlər. Belə bir nəticə çıxarır ki, artıq yolun sonundayıq, indi istiqaməti dəyişmək mədəni itki olar. Məsələn, Azərbaycanda da islahat aparılmayıb, Şimali Qafqazda latın əlifbasının tətbiqi savadsızlar üçündür, yəni bu təcrübələr ümumiləşdirilə bilməz, tatar mühiti ilə müqayisə oluna bilməz. İbrahimov məruzəsini ideoloji baxımdan latın əlifbasının türk xalqları arasında parçalanma riskinin artması, fərqli əlifbaların yaranması və mədəni əlaqələrin zəifləməsi xətti üzrə inkişaf etdirir. Faktiki olaraq müxtəlif əlifbalar mövcud olduğu halda, o, vahidliyi qorumaq üçün əlifbanı dəyişməməyi təklif edir. Bu, onun mövqeyinin ən zəif nöqtəsidir.

İbrahimovun qənaətinə görə, islahat daha təhlükəsiz və məsuliyyətlidir. O, məruzəsində təxirəsalma və ehtiyatlılıq strategiyasını qoruyaraq əsas tezisi belə formullaşdırır: "Hər xalq eyni sürətlə və eyni üsulla dəyişə bilməz; əlifba islahı inqilab yox, təkamül yolu ilə aparılmalıdır". Bu mövqe Umar Əliyevin praktik radikallığına, Tyuryakulovun texniki skeptisizminə qarşı mədəni müqavimətdir.

**Fərhad Ağazadə** fikrini qısa şəkildə rus dilində çatdırır. O sual edir: ərəb əlifbasını tamamilə islah etmək və bütün nöqsanlarını aradan qaldırmaq mümkündürmü? Əgər bəzi çatışmazlıqları aradan qaldırmaq mümkün deyilsə, bir çətinlikdən digər çətinliyə düşmək praktik olarmı? Ağazadə hesab edir ki, ərəb əlifbası ədəbi abidələrdə və dini kitablarda qorunmalıdır, gələcək mədəniyyət və elmin tələblərinə cavab verən latın əlifbası isə qəbul edilməlidir.

* * *

**Fərhad Ağazadəyə görə** ərəb əlifbası tarixi və dini əhəmiyyətinə görə qorunmalıdır, xüsusilə ədəbi və müqəddəs mətnlərdə. Sual edir: ərəb əlifbasını tam islah etmək mümkündürmü, yoxsa bəzi çatışmazlıqlar qalacaq? Əgər tam mümkün deyilsə, çətinlikdən digərinə düşmək düzgün deyil. Latın əlifbası gələcək mədəniyyət və elmin tələblərinə cavab verən yazı sistemi olaraq qəbul edilməlidir. Ağazadənin mövqeyi tarixi qoruma ilə gələcək tələblərin uzlaşdırılması üzərində qurulub: qədim mətbuat və dini mətnlər üçün ərəb əlifbası saxlanmalı, gündəlik və elmi yazı üçün isə latın əlifbasına keçid təşviq olunmalıdır.

*(ardı var)*

***Nadir MƏMMƏDLİ,***
***AMEA Nəsimi adına Dilçilik İnstitutunun direktoru, filologiya elmləri doktoru, professor***

## *Günün sualı*

**"Əşi, nə tafotu var bunun səs hardan gəlir, burdan eşit, burdan da oyna da..." "Oğlumu axtarırdım, dostumu tapdım..." "Əhmədin anası hələ ölməyib ki..." "Xoşbəxtlik, xoşbəxtlik..." "İndi Hüseynova bacıları öz məharətlərini göstərəcəklər!" Bu replikaları oxuyanda hamımızın üzündə eyni ifadə yaranır. Çünki bu cümlələr xalqın yaddaşına hopan, gündəlik sevincimizdə, kədərimizdə misal çəkdiyimiz mənəvi mirasımız, illər keçdikcə cilalanan yaddaşımızdır.**

# Milli kinofilmlərimiz niyə populyarlığını itirir?

## *Sənətkarlıq yüksək, tamaşaçı isə tələbkar deyil*



Vaxtilə ustad sənətkar Səməndər Rzayevin "Bəyin oğurlanması" filmində səsləndirdiyi "Bu kino ki, var... çox qəliz məsələdir, həm qəlizdir, həm də ki, vacib" ifadəsi milli kinomuzun keçmişini, bu gününü və həllini tapmayan müəmmasını özündə gizlədir.

Kinomuzun son iyirmi illik tarixinə boylananda yaddaşımızda bircə cümləlik belə əks-səda tapmaq müşkülə çevrilib. Bəs, görəsən texniki imkanların bu qədər geniş olduğu bir dövrdə, niyə müasir kadrlar ruhumuza toxuna bilmir?

**Azərbaycan Kinematoqrafçılar İttifaqının idarə heyətinin üzvü, kinotənqidçi Sevda Sultanova bildirir ki, müasir dövrdə kino ilə ədəbiyyat arasında əlaqənin itməsi problemin əsas qaynağıdır:**

– XX əsrin əvvəllərində ədəbiyyatın kinoya əhəmiyyətli təsiri vardı. Məsələn, Azərbaycan kinosunun ilk dövrü məhz Cəfər Cabbarlının yaradıcılığı ilə sıx bağlı idi. C.Cabbarlının "Sevil" pyesinin ssenarinin yazılmasında, hətta filmin vizual dilinin tapılmasında böyük rolu olmuşdu. Ümumiyyətlə, C.Cabbarlının kino işinin təşkilində xidmətləri əvəzsiz idi. Bu mənada indiyə qədər "Azərbaycanfilm" kinostudiyasının məhz ədəbiyyatçı Cəfər Cabbarlının adını daşıması da təsadüfi deyil...

1930-cu illərdə ssenaristlərin əksəriyyəti qeyri-millətlərin nümayəndələri idi. 1940-cı illərdən başlayaraq isə ssenari sahəsinə milli kadrlar gəlməyə başladı. Ədəbiyyatla kinonun sıx təmasının yaranmasında ayrı-ayrı vaxtlarda kinostudiyaya rəhbərlik etmiş nasir-şairlərin əməyi danılmazdır: Şəmsəddin Abbasov (1939-41), Rəsul Rza (1942-44), daha sonra – 1946-49-cu illərdə Azərbaycanın kinematoqrafiya naziri), Mehdi Hüseyn (1944), Cəmil Əlibəyov (1974-84)...

Kinonun başlıca komponenti təsvirdir. Musiqi də, ssenari də təsvirə tabe olmalı, onun diliylə danışmalıdır və bunun üçün ssenaristin kinoestetikanı dərindən dərki vacibdir. Bu mənada hər istedadlı, peşəkar yazıçı yaxşı ssenarist ola bilmir. Sovet dövründə kinonun dilini yaxşı mənimsəmək üçün bir qisim yazıçı ssenari işi üzrə təhsil almışdılar. Ənvər Məmmədxanlı, Mehdi Hüseyn, İmran Qasımov, Fərman Kərimzadə Moskvada Dövlət Kinematoqrafiya İnstitutunun nəzdində kinossenari kursunu bitirmişdilər. Daha sonra Anar, Ramiz Rövşən Moskva Ali ssenari kurslarında təhsil almışdılar ki, onların fəaliyyəti kinomuza bir növ fərqli nəfəs gətirdi: "Gün keçdi", "Dədə Qorqud" "Dantenin yubileyi" (Anar), "Babamın babasının babası", "Özgə vaxt", "Süd dişinin ağrısı" (Ramiz Rövşən).

Təbii ki, yazıçıların ssenarist kimi rejissorlarla əməkdaşlığının nəticəsi həmişə uğurlu olmayıb. Ortaya çox zəif, uğursuz işlər də çıxırdı. Süleyman Rəhimovun "Mehman" əsəri əsasında Muxtar Dadaşovun çəkdiyi "Qanun naminə" maraqlı təsvir həlləri baxımından yaxşı filmlərimizdəndir. Ssenarini əvvəlcə Süleyman Rəhimov Firudin Aşurovla birgə yazsa da, "Azərbaycanfilm"in rəhbərliyi tərəfindən bu versiya qəbul olunmamışdı. Səbəb kino dilinin yoxluğu, bütöv epizodların ssenariyə köçürülməsi idi. Çünki film bədii mətndən asılı olmamalı, illüstrasiya xarakteri daşımamalı və tam müstəqil əsər kimi çəkilməlidir. Sonradan ssenarini Muxtar Dadaşov moskvalı Maro Erzinkyanla birgə işləmiş, bir sıra epizodlar ixtisara salınmışdır.

İndi isə elə vəziyyət yaranıb ki, rejissorlar ədəbiyyatdan, yazıçılar isə kinoda gedən proseslərdən məlumatlı deyillər. Yaradıcı sahələrin əlaqəsi, ünsiyyəti, fikir mübadiləsi kinoda yenilənmə, fərqli fikirlər, obrazlar, mövzular, yeni imzalar deməkdir. Sovet dönəmindən fərqli olaraq, müasir kinoda yazıçıların əsərlərinin ekranlaşdırılması barmaqla sayılacaq qədərdir. Lakin kino ilə ədəbiyyatın təması həm də ona görə vacibdir ki, rejissor yazıçının əsərini ekranlaşdırmasa belə, hansısa motivindən bəhrələnsin, yaxud bu ona nəsə bir ideya versin. İndi film çəkilirsə, mütləq şəkildə onun piarı aparılmalıdır. Tanıtım isə konkret maliyyə vəsaiti tələb edir. Əgər film istehsal olunursa, dövlət büdcəsində onun reklam materialları, kinoteatrlarda nümayişi üçün xüsusi vəsait də olmalıdır.

Beynəlxalq festivallara gedən filmlərimiz var, amma piarı yoxdur deyə Azərbaycan tamaşaçısı onları tanımır. Festivalda iştirak etmək və ya mükafat almaqla məsələ bitmir. Filmin əsl uğuru ondadır ki, onu distribusiya şirkətləri alıb başqa ölkələrdə nümayiş etdirsin. Lakin bizim çox az filmimiz olub ki, xarici ölkələr tərəfindən alınıb nümayiş etdirilsin.

Yada düşən bir nümunə var – Orxan Ağazadənin tammetrajlı, hibrid janrda, bədii və sənədli filmin sintezi olan "Kinomexanikin qayıdışı" filmi. Filmin yaradıcı heyəti azərbaycanlıdır, amma əsər Almaniya istehsalıdır. Ekran işi yaxın vaxtlarda Fransa kinoteatrlarında nümayiş olundu, amma Azərbaycanda hələ prokatda deyil. Baxmayaraq ki, xaricilər istehsal edib, əgər yaradıcı heyət azərbaycanlıdırsa, demək, bizim yüksək potensialımız var. Bəs problem nədədir? Burada kinoteatrların şərtləri, gəlir bölgüsü, iqtisadi mexanizmlər və digər texniki məsələlər var.

Sovet dövründə piar məsələləri indiki kimi inkişaf etməsə də vahid təbliğat sistemi var idi – kinoteatrlar, televiziya, mətbuat. İnsanların əyləncə imkanları məhdud, informasiya mənbələri az idi. Buna görə də filmlər daha çox təbliğ olunur, kinoteatrlar dolu olurdu. Amma bu gün vəziyyət tam fərqlidir: internet, alternativ platformalar var. Məsələn, bir fakt deyim: Emil Quliyevin "İkinci pərdə", "Mən burada tək olmuşam" filmlərinin kinoteatrlarda kassa gəliri gətirmədi. Amma sonradan "YouTube" platformasına yerləşdirildi və təxminən, iki ay ərzində iki milyona yaxın baxış topladı. Bu filmin kassa yığmamasının əsas səbəblərindən biri filmdə bəzi kadrlarda bağlı idi. Çünki kinoteatra ailəsi, həyat yoldaşı ilə gələn tamaşaçılarda nalayiq ifadələr diskomfort yaradır. Amma sosial şəbəkələrdə çox baxış yığmasının səbəbi tamaşaçının onu platformalardan tək izləyə bilməsidir. Bunun fonunda kommersiya kinosu və müəllif kinosu anlayışlarına nəzər salmaq vacibdir.

Kommersiya kinosunda əsas məqsəd gəlir əldə etməkdir. Burada film auditoriyanı cəlb etməli, bilet satışı və yayım gəliri yaratmalıdır. Film janrları populyar zövqlərə uyğun seçilməlidir: komediya, triller, melodram və s. Belə filmlər geniş kütlə üçün hazırlanır. Müəllif kinosunda isə əsas məqsəd sənətkarlıq və yaradıcılıqdır. Burada rejissor öz bədii vizyonunu ifadə edir, mesajını, ideyasını önə çıxarır. Bu tip filmlər bəzən kommersiya uğuru gətirmir, çünki onlar geniş kütləyə deyil, müəyyən tamaşaçı qrupuna yönəlir.









Milli kino tariximizdə kommersiya kinosunu İbrahim bəy Musabəyovun "Neft və milyonlar səltənətində" əsəri stimullaşdırıb. İstehsalçıların məhz bu əsərə diqqət ayırması təsadüfi deyildi. Çünki XIX əsrin 70-ci illərindən başlayaraq, iqtisadi yüksəliş dövrünü yaşayan Bakı qısa müddətdə mühüm neft sənayesi mərkəzinə çevrilmişdi. Musabəyovun əsəri dövrün aktual mövzusuna toxunur, neft Bakısının görünməyən tərəflərindən, azərbaycanlı milyonçuların məişətindən, neft mədənlərində çətin şəraitdə işləyən fəhlələrin ağır güzəranından bəhs edirdi.

Film neft sahibkarlarının vəsaiti hesabına, kino istehsalını təşkil etmək məqsədilə belçikalı sahibkarlar - Pirone qardaşları tərəfindən 1915-ci ildə yaradılmış "Filma" səhmdar cəmiyyətinin sifarişi ilə istehsal olunmuşdu. Bu film yerli publikanın marağını çəkdiyindən təşkilat ölkədə kino bazarını əldə saxlamaq məqsədilə növbəti dəfə Üzeyir Hacıbəylinin "Arşın mal alan" əsərinin üzərində dayanmışdı. "Arşın mal alan" o dövrdə çox populyar idi, burada azərbaycanlıların məişəti, adət-ənənələri istehsalçıların diqqətini çəkmişdi. Filmin ilk nümayişi zamanı birinci seansın bütün biletləri satılıb qurtarmışdı.

Lakin Azərbaycanda tezliklə sovet hakimiyyətinin qurulması nəticəsində kino kommersiyadan çox ideoloji silaha, təbliğata çevrildi. Bununla belə, Sovet İttifaqının sonrakı inkişaf dönəmlərində gəlir gətirən, kassa yığan filmlər vardı. Zamanın və iqtisadi şərtlərin tələbi ilə həmin mərhələdə meydana gəlmiş müstəqil studiyalar ("Ocaq", "Yeni film", "Birlik", "Yaddaş" və s.) özəl vəsait hesabına çoxlu sayda filmlər çəkir, kommersiya kinosu ilə yanaşı, müəllif kinosu da inkişaf edirdi.

Məsələn, "Təhminə" filmi Bakı Neftayırma Zavodu, "Qara volga" Dövlət Yanacaq Komitəsinin büdcəsi hesabına çəkilmişdi. Müstəqil şirkətlər də kinoya vəsait qoyurdu: "Bəxt üzüyü" "Qaraqaya" Assosiasiyası, "Qırmızı qatar" filmi isə "Rimur" Konserni tərəfindən maliyyələşdirilmişdi.

Bu gün, ümumilikdə, kino istehsalının inkişafı üçün qanunvericilikdəki boşluqlar da aradan qaldırılmalıdır. Hazırda qüvvədə olan "Kinematoqrafiya haqqında" qanun 1998-ci ildə qəbul edilib ki, burada vacib dəyişikliklərə ehtiyac var. Əsas dəyişikliklərdən biri kino sənayesinin inkişafına təkan verəcək, bazarı formalaşdıracaq vergi güzəştlərinin tətbiqidir.

Kommersiya kinosunun inkişafına sponsorların sərmayə qoyması ilə iş bitmir. Bu nöqteyi-nəzərdən heç olmasa daxili kino bazarı formalaşanadək film istehsalına və satışına qoyulan ƏDV ləğv edilməlidir. Sahibkarların kinoya investisiya yatırmasını stimullaşdırmaq məqsədilə vergi güzəştlərinin tətbiqi də kino sənayesinin inkişafını sürətləndirə biləcək amillər sırasındadır. Bu da öz növbəsində kinonun dövlət büdcəsinə yük olmasının qarşısını xeyli alacaq. Biz böyük büdcəli filmlərə üstünlük verməməliyik. Azərbaycanın resursları daha çox az və orta büdcəli film layihələrinə uyğundur. Belə olduqda, film istehsalı sayca daha çox olur və kəmiyyət artdıqca keyfiyyətli işlər də ortaya çıxır.

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosenti, kinorejissor Yusif Quliyev qeyd edir ki, ali kino sənəti mənəvi vüsəti, bədii dürüstlüklə yoğrulmuş səmimiyyəti və bəşər ruhunun dərinliklərinə nüfuz edən sirayətedici qüvvəsi ilə könüllərdə taxt qurar:**

"Yaxşı film" anlayışı yalnız texniki göstəricilər, parlaq vizual effekt və yüksək büdcə ilə müəyyən edilmir. Bu, çoxşaxəli və mürəkkəb bir məfhumdur və əsasında həm sənətkarlıq, həm də milli-mədəni dəyərlər dayanır. Həqiqi sənət incisi insan ruhuna toxunmalı, qəlbin dərinliklərinə yol tapmalıdır. Lakin bu sualın cavabı ictimai-sosial mühitdən, milli kodlardan və tarixi təcrübədən asılı olaraq dəyişə bilər. Yəni bu anlayış həm cahanşümul mahiyyət kəsb edir, həm də mədəni irsə söykənərək lokallaşır.

Tez-tez soruşurlar: "Tamaşaçı necə film istəyir?" Cavab olduqca sadədir – tamaşaçı maraq təşnəsidir. O, özünü tapacağı hekayə istəyir. Burada həm mətnin dili, həm də onun vizuallıqda necə təcəssüm tapdığı, yəni rejissorun, quruluşçu operatorun və kino bəstəkarlarının bədii yanaşması mühüm rol oynayır. Lakin peşəkarlıq da bəzən kifayət etmir. Çünki tarixin müxtəlif dönəmlərində o qədər filmlərlə qarşılaşmışıq ki, texniki baxımdan çox zəif olmalarına baxmayaraq, ideya baxımından güclü olduqları üçün yadda qalıb.

Mən bu həqiqəti dəfələrlə yerli və beynəlxalq festivallarda müşahidə etmişəm. Əsərin qüdrəti onun zahiri təmtərağında deyil, bədii mahiyyətində gizlənir. Bəzən qaranlıq zalda oturub, texniki qüsurları açıq-aşkar hiss olunan film izləyirsən, amma seans bitəndən sonra o film səni rahat buraxmır. Çünki orada qəlbə toxunan ağrı və ya sevinc var. Kino sanki bir güzgüyə bənzəyir. Tamaşaçı o güzgüyə baxanda ya özünü görməlidir, ya da görməkdən qorxduğu tərəfləri.

Bugünkü tamaşaçı araşdıran, müqayisə edən tamaşaçıdır. O, süni pafosu dərhal hiss edir, yalan emosiyanı qəbul etmir. Ona görə də film nə qədər "böyük" görünməyə çalışsa da, əgər içində reallıq, tarixilik yoxdursa, unudulmağa məhkumdur.

Bu gün Azərbaycan kinosunun dirçəlişi üçün ciddi cəhdlər göstərilir. Lakin prosesin uğurla irəliləməsi bütövlükdə kino sənayesini təşkil edən ərbablardan – kinorəssamlardan, montaj ustalarından, səs rejissorları və bəstəkarlardan asılıdır. Əgər biz beynəlxalq arenada rəqabətədavamlı nümunələr yaratmaq niyyətindəyiksə, ilk növbədə, fundamental biliyə malik ssenarist və rejissorlar yetişdirməliyik.

Kamil rejissor ədəbi-dramaturji strukturu dərindən idrak etməlidir. Əks halda, o bir ideya ilə yola çıxır, sonra anlayır ki, bu ideya artıq neçə onillər əvvəl işlənib və bu zaman rejissorun dünyagörüşünün zəifliyi ön plana çıxır. Əslində, dünya ədəbiyyatında və kinosunda işlənə biləcək ideyaların sayı o qədər də çox deyil, təxminən, 36 əsas süjet modeli mövcuddur. Amma bu mövzulara yanaşma tərzi, təqdimat üslubu və estetik dil fərqli olduqda yeni sənət üfüqləri açılır.

Təəssüf ki, bu gün ölkəmizdə xüsusilə uşaq filmləri sahəsində ciddi boşluqlar var. Axırıncı yaddaqalan keyfiyyətli məhsullar Əlisəttar Atakişiyevin rejissoru olduğu "Bir qalanın sirri", "Sehrli xalat", "Qərib cinlər diyarında" filmləridir. Bu filmlərdən sonra demək olar ki, uşaqlar üçün eyni dərəcədə uğurlu və yaddaqalan işlər ortaya qoyulmayıb.

Yaxşı film həm də tarixi dərketmə qabiliyyəti tələb edir. Qarabağ müharibələri ilə bağlı müəyyən filmlər çəkilib, lakin hələ də tam potensial istifadə olunmayıb. Amma o dövrün qəhrəmanlarının həyat yolu, fədakarlıqları, mənəvi dayaqları çox dərin bədii əsərlərə çevrilə bilər. Bu cür filmlər təkcə tarixi sənədləşdirmək deyil, həm də gələcək nəsillərə milli kimliyi aşılamaq baxımından əvəzsizdir.

Sonda qeyd etmək istəyirik ki, yaxşı film dedikdə yalnız "nəyi çəkirik" sualı deyil, "niyə çəkirik" və "necə çəkirik" sualları daha çox əhəmiyyətlidir. Əgər biz bu suallara birmənalı və mədəniyyətimizə, tariximizə, mənəviyyatımıza söykənən cavablar verə biliriksə, deməli, yaxşı film yaratmaq yolunda əmin addımlarla irəliləyirik.

**Sənətşünas Sədaqət Zaurqızının sözlərinə görə, bu filmlərin uğuru texnikada deyil, canlı obrazlarda, güclü dramaturgiyada, tamaşaçı ilə səmimi dialoq və aktyor–obraz uyğunluğunda idi:**

– Çünki keçmişdə rejissorlar aktyoru illərlə axtarırdı. Hüseyn Ərəblinski, Rəşid Behbudov, Lütfəli Abdullayev, Leyla Bədirbəyli kimi sənətkarlar rola "təyin olunmurdu", obraz onlarda doğulurdu. Bu gün isə bəzən tam əksi ilə üzləşirik. Obraz aktyora uyğunlaşdırılmır, aktyor zorla obraza salınır. Daha acınacaqlısı odur ki, bu gün güclü, peşəkar, məktəb keçmiş aktyorlar səhnədən kənarda qalırlar. Bu isə kino aktyorluğunda eyni simaların, eyni intonasiyaların təkrarına gətirib çıxarır. Kino isə aktyorun daxili enerjisini tələb edir, sadəcə, tanınmış sima olmağını yox.

Düzdür, müstəqillik dövründə milli kino mövzu və janr baxımından xeyli zənginləşib. "Buta", "Nar bağı", "Çölçü", "Qisas almadan ölmə", "Pərdə" trilogiyası, "Axınla aşağı", "Dolu", "Üçüncü günün adamı", "Xurmalar yetişən vaxt", "Buqələmun", "Şollerin arxivi", "Hədəf", "Sonuncu", "Birinci mərtəbə", "Sahə", "Balıq", "Sanki yoxsan" kimi filmlər müasir Azərbaycan insanının daxili konfliktlərini, müharibə travmasını, kök axtarışını və sosial tənhalığını göstərir. Sadalanan filimlər ciddi ekran əsəri nümunələridir və beynəlxalq festivallarda maraqla qarşılanıb. Bu, şübhəsiz ki, uğurdur. Lakin problem ondadır ki, filmlərin bir qismi xarici auditoriya üçün anlaşılan olduğu qədər, yerli tamaşaçı ilə emosional bağ yarada bilmir. Tamaşaçı öz həyatını, məişət dilini, daxili konfliktlərini ekranda görmək istəyir. Burada da əsas problem ortaya çıxır: film festival üçün çəkilir, tamaşaçı üçün yox.

Digər mühüm məsələ filmlərin yayımıdır. Keçmişdə kino nadir hadisə idi – filmə baxmaq ictimai mədəni ritual sayılırdı. Günümüzdə isə kino informasiya bolluğu içində itib. Sistemli distribusiya, peşəkar prodüserlik və tamaşaçı ilə ünsiyyət mexanizmi zəifdir. Film çəkilir, festival turu keçir, amma öz ölkəsində lazımi səviyyədə təqdim olunmur. Nəticədə, kino "öz tamaşaçısını tanımır", tamaşaçı da kinonu.

Müasir Azərbaycan kinosunda ssenari problemi də açıq görünür. Texniki keyfiyyət artıb, amma dramatik konflikt, dialoq mədəniyyəti və obraz dərinliyi hər zaman bu səviyyəyə uyğun gəlmir. Keçmiş filmlərin replikalarının yadda qalmasının səbəbi onların süni yox, həyatdan götürülməsi idi. Bu kontekstdə serial məsələsinə toxunmamaq mümkün deyil. Bu gün seriallar geniş auditoriyaya təsir edən əsas vizual məhsuldur. Təəssüf ki, Azərbaycan seriallarının böyük hissəsi səviyyə, dramaturgiya və aktyor oyunu baxımından ciddi tənqid olunur. Süni konfliktlər, zəif dialoqlar, eyni tip rollar və tez-bazar istehsal kino mədəniyyətinə də mənfi təsir göstərir.

Bununla belə, müsbət tendensiyalar da var. Son illər tarixi mövzulara marağın artması diqqət çəkir. Bu baxımdan "Tağıyev" filmi xüsusi qeyd olunmalıdır. Film təkcə Hacı Zeynalabdin Tağıyevin bioqrafiyası deyil, bütövlükdə bir dövrün, maarifçilik ideyasının, milli burjuaziyanın formalaşmasının ekran təsviridir. Əgər film tamaşaçı ilə düzgün dildə danışa, pafosdan çox insan taleyinə fokuslana bilsə, bu, kütləvi maraq baxımından ciddi addım ola bilər. Çünki tarix tamaşaçı üçün yalnız fakt deyil, emosional yaddaşdır.

Problem aktyor seçimi, ssenari dərinliyi və tamaşaçı ilə ünsiyyətin itməsindədir. Azərbaycan kinosunun gələcək uğuru texnikadan çox, yenidən insan hekayəsinə qayıdışdan, səmimiyyətdən və milli yaddaşla müasir düşüncənin balansından asılıdır. Keçmiş filmlər yadda qalıbsa, bu nostalji deyil, sənət və tamaşaçı arasında qurulmuş doğru münasibətin göstəricisidir.

**Prodüser və rejissor Orxan Mərdan qeyd edir ki, o dövrdə milli kontentə ehtiyac elə səviyyədə idi ki, yerli istehsalçılar bir-birilərinə qarşı xəsislik etmədən layihələri bölüşür, dəstəkləyir, filmlərin mümkün qədər geniş auditoriyaya çatmasını istəyirdilər:**

– Bu proses açıq şəkildə razılaşdırılmış bir mexanizm deyildi. Daha çox könüllü şəkildə formalaşan, bir növ "el birliyi" ilə həyata keçirilən reklam və təbliğat idi. Hamı eyni məqsədə xidmət edirdi: milli kinonun ayaqda qalması və tamaşaçıya çatması. Zaman keçdikcə bu sahədən pul qazanmaq üçün təbii olaraq rəqabət artdı.

Bu mərhələdən sonra filmlər tədricən bir-birinə bənzəməyə başladı. Janr etibarilə oxşar işlər ortaya çıxdı, eyni tip hekayələr, eyni tip aktyorlar təkrarlandı. Tamaşaçı zamanla eyni aktyorları eyni süjetlərdə görməkdən yoruldu və maraq azalmağa başladı. Beləliklə, proses getdikcə daha çox biznesə, daha çox gəlir yönümlü sahəyə çevrildi. Bu isə istər-istəməz münasibətlərin sərtləşməsinə, rəqabətin daha aqressiv formalar almasına gətirib çıxardı.

Digər səbəb isə bilet qiymətləridir. Əvvəllər 3–5–7 manata olan biletlər bu gün 10 manatdan başlayır və daha yuxarıdır. Digər bölgələrimizdə də kinoteatrlar fəaliyyət göstərsə, qiymət münasib olsa tələbat da artar. Bu gün sıradan bir filmi belə reklam etmək üçün bəzən filmin öz büdcəsinə yaxın, hətta onun qədər piar vəsaitinə ehtiyac yaranır. Reklam məsələsi fərdi yanaşma tələb edir. Burada janrın öz tələbləri var və ümumilikdə istehsalçının layihəyə nə dərəcədə inanıb-inanmaması çox şeyi müəyyənləşdirir. Əgər layihəyə inanırsa, reklam büdcəsi daha geniş və iddialı olur, əgər inanmırsa, reklam daha minimal, sadəcə, tanıtım xarakterli şəkildə aparılır. Alternativ janrda, rezonans yaradacaq güclü və səbəbli hekayən yoxdursa, reklam üçün çox böyük vəsait lazımdır. Əgər orta statistik bir hekayən varsa, yəni tamaşaçıya sadəcə "adı satmaq" istəyirsənsə, məqsəd ilk 20–30–50 min tamaşaçını kinoteatra cəlb etməkdir.

Amma əgər büdcən böyükdürsə, hekayən orijinaldırsa bəzi hallarda film özü-özünü də reklam edir. Belə vəziyyətdə çox böyük reklam xərclərinə ehtiyac qalmır.

İndiki situasiyada isə kinoteatrların sayı, tamaşaçı potensialı və real tələbat əvvəlcədən bəllidir. Reklam büdcəsi də bu rəqəmlərə uyğun şəkildə formalaşdırılır və məhdud xərclənir. Ortaya çıxan nəticə, təəssüf ki, bugünkü şəraitdə çox da ürəkaçan olmur. Açıq desək, bu günə qədər elə bir festival nəticəmiz olmayıb ki, kütləvi marağa ciddi təkan versin. Yəni əgər Azərbaycanın hansısa filmi Kann, Oskar kimi daha populyar və nüfuzlu festivallarda real nəticə əldə etsə, o zaman tamaşaçı da avtomatik maraq göstərəcək. Çünki bu artıq mexaniki şəkildə kütləviləşən piara çevrilir və milli qürur məsələsi kimi qəbul olunur. İnsanlar istəyir ki, o filmlə maraqlansın, ona baxsın.

Amma indiki vəziyyətdə filmlərimiz daha çox orta səviyyəli festivallarda iştirak edir və əsasən "getdik, qatıldıq" xarakteri daşıyır. Bu isə tamaşaçıda "gedim o filmə baxım" effekti yaratmır. Üstəlik, nəzərə alsaq ki, həmin filmlərin böyük əksəriyyəti qısametrajlıdır. Qısametrajlı film əgər festivaldan kənar xüsusi nümayişi yoxdursa, ümumiyyətlə kütləvi xarakter daşımır. Çünki onun əsas auditoriyası kinoteatr tamaşaçısı deyil.

Sözümüzün canı budur ki, kino xalqın ömür boyu yaddaşında daşıyacağı səmimiyyət üçün çəkilməlidir. Əgər sənətkar öz elinin dilini, dərdini unudubsa, ən möhtəşəm mükafatlar belə o boş qalan kinoteatr zallarının soyuqluğunu isidə bilməyəcək.

*Hazırladı:*
***Fidan ƏLİYEVA***
***XQ***

*Beynəlxalq həyat*

# Buzlu Arktika qaynar qazana dönür

## *Avropanın yeni təhlükəsizlik arxitekturası*




**Almaniyanın Hamburq şəhərində Şimal dənizi hövzəsi ölkələrinin dövlət və hökumət başçılarının 3-cü Sammiti keçirilib. Avropanın 9 ölkəsinin - Belçika, Danimarka, Fransa, İrlandiya, İslandiya, Lüksemburq, Niderland, Norveç və Böyük Britaniyanın təmsil olunduğu sammitə Avropa Komissiyası, NATO və 140-dan çox şirkət, birlik və qeyri-hökumət təşkilatının nümayəndələri də qatılıb. Görüşdə 2 əsas məsələ - dənizdə yeni külək enerjisi qurğularının inşasının sürətləndirilməsi və Şimal dənizi regionunda təhlükəsizlik məsələləri gündəmdə olub.**

Sammit zahirən enerji əməkdaşlığına həsr olunsa da, mahiyyət etibarilə Avropanın dəyişən geosiyasi reallıqlara verdiyi strateji cavab kimi dəyərləndirilə bilər. Rusiya–Ukrayna müharibəsindən sonra Avropa üçün enerji məsələsi sırf iqtisadi sahədən çıxaraq milli və kollektiv təhlükəsizliyin ayrılmaz hissəsinə çevrilib. Məhz bu kontekstdə Şimal dənizi regionu yeni Avropa təhlükəsizlik və enerji arxitekturasının əsas dayaqlarından biri kimi ön plana çıxır.

Sammitdə külək enerjisi ilə yanaşı, regional təhlükəsizlik məsələlərinin paralel müzakirə olunması təsadüfi deyil. Dənizdə külək parkları və elektrik ötürücü şəbəkələr artıq yalnız enerji istehsalı infrastrukturu yox, eyni zamanda strateji obyektlər kimi qəbul edilir. Bu obyektlərin qorunması isə avtomatik olaraq NATO və Avropa İttifaqının təhlükəsizlik gündəliyinə daxil olur. Beləliklə, yaşıl enerji ilə hərbi-siyasi planlaşdırma arasında yeni və davamlı bağ formalaşır.

Almaniya kansleri Fridrix Mertsin Danimarka və xüsusilə Qrenlandiya ilə bağlı vurğuları Berlinin xarici və təhlükəsizlik siyasətində baş verən transformasiyanı nümayiş etdirir. Almaniya uzun müddət iqtisadi gücə söykənən, lakin təhlükəsizlik məsələlərində ehtiyatlı mövqe tutan aktor kimi çıxış edirdi. İndi isə Arktika və Şimal regionu Almaniyanın birbaşa strateji maraqları sırasına daxil edilir. Qrenlandiya bu baxımdan təkcə Danimarkanın muxtar ərazisi deyil, Arktikada böyük güclərin rəqabətinin kəsişdiyi nöqtə kimi qəbul olunur.

Danimarkanın Baş naziri Mette Frederiksenin Qrenlandiyada NATO kontingentinin yerləşdirilməsinin əhəmiyyəti ilə bağlı açıqlaması Arktikanın tədricən hərbiləşdirildiyini açıq şəkildə göstərir. Bu proses yalnız Rusiyanın regiondakı hərbi aktivliyi ilə bağlı deyil, həm də ABŞ, Çin və Avropa arasında formalaşan uzunmüddətli geosiyasi rəqabətin nəticəsidir. Şimal dənizi və Arktika artıq Avroatlantik təhlükəsizlik sisteminin ayrılmaz hissəsinə çevrilir.

Sammitdə qəbul olunan qərarlar külək enerjisi sahəsində əməkdaşlığın arxasında ciddi geoiqtisadi məqsədlərin dayandığını göstərir. Şimal dənizi ölkələrinin 100 qiqavata qədər istehsal gücünü transsərhəd şəkildə birləşdirmək niyyəti Avropanın enerji suverenliyini gücləndirməyə yönəlib. Bu, Rusiyadan fosil yanacaq asılılığının azaldılması ilə yanaşı, Çin texnologiyalarına alternativlərin formalaşdırılması və ABŞ-dan maye qaz idxalına həddindən artıq bağlılığın balanslaşdırılması anlamına gəlir. Prosesdə 140-dan çox şirkət və qurumun iştirakı onu göstərir ki, Avropa enerji təhlükəsizliyini dövlət–korporativ ittifaq modeli üzərindən qurmağa çalışır.

Rusiya faktoru sammitdə birbaşa vurğulanmasa da, bütün təşəbbüslərin fonunda əsas təsiredici amil olaraq qalır. Şimal dənizi əməkdaşlığı Avropanın Moskvaya qarşı sanksiyalarla məhdudlaşmayan, daha dərin və struktur cavabıdır. Burada məqsəd qarşıdurma deyil, alternativ sistem qurmaqdır. Enerji marşrutları, istehsal və təhlükəsizlik mexanizmləri Rusiyadan asılı olmayan şəkildə yenidən dizayn edilir.

Politoloqların sözlərinə görə, qısamüddətli perspektivdə Şimal dənizində enerji infrastrukturu kritik obyekt statusu alacaq və onun mühafizəsi üçün NATO-nun dəniz və hava nəzarəti gücləndiriləcək. Orta müddətdə region Avropanın əsas enerji mərkəzinə çevriləcək, Arktika mövzusu isə Aİ-nin rəsmi təhlükəsizlik sənədlərində daha açıq şəkildə yer alacaq. Proqnozlara görə, uzunmüddətli baxışda isə Şimal dənizi modeli Baltik və Aralıq dənizi kimi digər hövzələr üçün nümunə rolunu oynaya bilər.

Beləliklə, Hamburq Sammiti göstərdi ki, Avropa artıq enerji və təhlükəsizlik məsələlərini ayrı-ayrılıqda deyil, vahid geosiyasi çərçivədə düşünür. Şimal dənizi bu yeni yanaşmanın sınaq meydanına çevrilərək Avropanın gələcək strateji xəttinin konturlarını formalaşdırır.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Səudiyyə Ərəbistanında “mineral ovu”

**Son vaxtlar mineral resurslar yenidən beynəlxalq siyasətin əsas mövzularından birinə çevrilməkdədir. Artıq Səudiyyə Ərəbistanı da 2,5 trilyon dollar dəyərində mineral ehtiyatlara malik olduğunu açıqlayıb və nadir torpaq elementləri uğrunda gedən qlobal rəqabətdə mühüm oyunçuya çevrilmək iddiasını ortaya qoyub.**




Məlum olduğu kimi, ABŞ Prezidenti Donald Tramp ötən çərşənbə günü Qrenlandiya ilə mümkün razılaşma əldə edildiyini bildirib. Bu razılaşmanın nadir torpaq minerallarına çıxış hüquqlarını da əhatə edəcəyi qeyd olunur. Kritik və nadir torpaq mineralları təmiz enerjiyə keçid, süni intellekt və müasir hərbi texnologiyalar üçün əsas xammaldır. Hazırda bu sahədə istehsal və emal proseslərinə əsasən Çin nəzarət edir. Beynəlxalq Enerji Agentliyinin məlumatına görə, Çin dünyada emal edilmiş nadir torpaq elementlərinin 90 faizindən çoxunu, hasilatın isə 60 faizdən artıq hissəsini təmin edir.

SAFE qeyri-hökumət təşkilatının Mineral Resurslar Mərkəzinin icraçı direktoru Ebiqeyl Hanter CNN-ə müsahibəsində bildirib ki, Çin bu sahədə ABŞ-dan işıq illəri qədər irəlidədir. Onun sözlərinə görə, bu üstünlük uzun illər ərzində həyata keçirilən dövlət strategiyaları, iri investisiyalar, özəl sektorla sıx əməkdaşlıq və xarici layihələr hesabına formalaşıb. Bu fonda Səudiyyə Ərəbistanı mineral sektorunu fəal şəkildə inkişaf etdirməyə başlayıb. Məqsəd neftdən iqtisadi asılılığı azaltmaq və eyni zamanda, ölkənin geosiyasi çəkisini artırmaqdır. Krallığın məlumatına görə, mövcud mineral ehtiyatların ümumi dəyəri 2,5 trilyon dollara çatır. Buraya qızıl, sink, mis, litium və nadir torpaq elementləri – disprosium, terbium, neodim və prazeodim daxildir. Bu minerallar elektromobillər, külək turbinləri və yüksək sürətli hesablama sistemləri kimi sahələrdə istifadə olunur.

S&P Global-ın məlumatına əsasən, 2021–2025-ci illər arasında Səudiyyə Ərəbistanının mineral kəşfiyyatı üçün ayırdığı vəsait 149 milyon dollar olub. Bununla belə, Kanada və Avstraliya kimi qabaqcıl dağ-mədən ölkələri ilə müqayisədə bu rəqəm hələ aşağı sayılır. Eyni zamanda, ölkə daxilində və xaricdən olan şirkətlər üçün yeni yataqların lisenziyalaşdırılması prosesi sürətləndirilib. Lakin mütəxəssislər vurğulayırlar ki, kəşfiyyatla real istehsal arasında ciddi zaman fərqi var. Ebiqeyl Hanter bildirir ki, faydalı qazıntıların hasilatı uzun illər tələb edir. Emal zavodunun tikintisi adətən üç-beş il çəkir, bəzi ölkələrdə isə bu proses on illərlə davam edə bilər. Bu səbəbdən Səudiyyə Ərəbistanı bürokratik maneələri azaltmağa, vergi güzəştləri tətbiq etməyə və sektora irihəcmli dövlət investisiyaları yönəltməyə çalışır.

Hazırda ölkənin mineral ehtiyatlarının dəyəri neftlə müqayisədə xeyli aşağıdır. Səudiyyə Ərəbistanı dünyada ikinci ən böyük təsdiqlənmiş neft ehtiyatlarına malikdir. Buna baxmayaraq, mədən sektoruna maraq təkcə iqtisadi səbəblərlə izah olunmur. “Vision 2030” strategiyası ölkə iqtisadiyyatının şaxələndirilməsini əsas hədəf kimi müəyyən edir. Dağ-mədən sənayesi bu strategiyanın əsas dayaqlarından biri sayılır. Plan təkcə xammal hasilatını deyil, həm də daxili sənaye üçün tam təchizat zəncirinin qurulmasını nəzərdə tutur. Xüsusilə elektromobil istehsalı sahəsində iddialı məqsədlər ön plana çıxır.

Ekspertlərin fikrincə, Səudiyyə Ərəbistanında inkişaf edən infrastruktur ölkəni digər regionlardan çıxarılan kritik minerallar üçün emal mərkəzinə çevirə bilər. Hanter bildirir ki, Afrika və Qlobal Cənub ölkələri ilə əməkdaşlıq fonunda logistik baxımdan mineralların Səudiyyə Ərəbistanında emalı daha səmərəli görünür. Bu strategiya ABŞ-ın da diqqətini çəkib. Əvvəllər ABŞ-da çıxarılan ağır nadir torpaq elementləri emal üçün Çinə göndərilirdi. Lakin son dövrlərdə Çin bu mineralların, xüsusilə hərbi təyinatlı olanların ixracına ciddi məhdudiyyətlər tətbiq edib.

2025-ci ilin noyabrında Səudiyyə Ərəbistanı ABŞ iqtisadiyyatına infrastruktur, texnologiya və sənaye sahələrində 1 trilyon dollara qədər investisiya yatırmaq niyyətini açıqlayıb. Bu razılaşmaya minerallar sahəsində əməkdaşlıq da daxildir. ABŞ Müdafiə Nazirliyinin dəstəklədiyi “MP Materials” şirkəti Maaden və Pentaqonla birlikdə Səudiyyə Ərəbistanında yeni emal zavodu tikməyi planlaşdırır. Zavodun 49 faizi “MP Materials” və ABŞ Müdafiə Nazirliyinə məxsus olacaq.

“Critical Minerals Institute”un həmsədri Melissa Sandersonun fikrincə, Səudiyyə Ərəbistanının əsas üstünlüklərindən biri stabil və ucuz enerji resurslarıdır. O hesab edir ki, “Aramco”nun təcrübəsi daha səmərəli emal texnologiyalarının yaradılmasına imkan verə və gələcəkdə Çini bu sahədə sıxışdıra bilər. Bununla yanaşı, ekspertlər bildirirlər ki, Səudiyyə Ərəbistanının regional dağ-mədən mərkəzinə çevrilməsi asan proses olmayacaq. Yaxın Şərqdəki geosiyasi qeyri-sabitlik, eləcə də mineral ehtiyatlara malik Afrika ölkələri ilə münasibətlərdəki mürəkkəblik bu planlar üçün əsas risklər olaraq qalır.

***Paşa ƏMİRCANOV***
***XQ***

*Epidemioloji durum*

# Virus infeksiyası fəallaşır

## *Yoluxma 15-20 gün davam edir*

**Hazırda yalnız ölkəmizdə deyil, digər dövlətlərdə də virus infeksiyasına yoluxmada kəskin artım müşahidə olunur. Yayılan məlumatlarda xəstəliyin müalicəyə tez tabe olmadığı barədə də xəbərlər dolaşır. Ölkəmizdə yalnız paytaxtda deyil, həm də bölgələrdə virus infeksiyasına yoluxmaların sürətli gedişatı insanlarda haqlı olaraq ciddi narahatlıq doğurur.**

Bəzi əcnəbi mütəxəssislər bu infeksiyanın “Tridemiya” etiologiyalı olduğunu iddia edir. Yəni yoluxmaya səbəb, insanın, eyni zamanda, 3 fərqli virusun – koronavirus, qrip və kəskin respirator virus infeksiyasının birgə hücumuna məruz qalmasıdır. **Səhiyyə eksperti, tibb elmləri doktoru Musa Qəniyev yayılan xəbərlərə münasibət bildirir:**

– Əslində, bu, tamamilə yanlış fikir və səhv yanaşmadır. Çünki viruslar obliqat parazitdir. “Sahibin hüceyrəsindən kənar” virusda canlılıq əlaməti yoxdur və özünü biopolimer kimi aparır. Virus yalnız düşdüyü canlı hüceyrənin daxilində artıb çoxala bilir. Bu səbəbdən də, patogen viruslara kəskin antaqonistlik xasdır. Yəni virus yoluxdurub sahibləndiyi hüceyrəyə digər patogen virusu heç bir halda buraxmır. Odur ki, konkret şəraitdə yoluxmanı yalnız ən fəal və güclü virus ştammı törədir. Bu səbəbdən, hazırkı infeksiya “Tridemiya” etiologiyalı ola bilməz. Bu aksiomadır.

Yoluxmada kəskin artım bütün yaş qruplarında müşahidə olunsa da, söylənilənlərə görə kütləvilik daha çox məktəbəqədər yaş qrupundan olan uşaqlar və



sarılıq adenovirus mənşəlidir.

Bir faktı xüsusilə qeyd etmək lazımdır ki, məlum yaş qrupunda olan uşaqlar kök, portağal, xurma və sair kimi karotin tərkibli meyvələri çox yedikdə, onların dərisi sarı-çəhrayi rəng ala bilər. Çox vaxt bunu hepatit A ilə qarışdırırlar. Buna “Karotin sarılığı” deyilir. Xəstəlik xüsusi müalicə tələb etmir, həmin meyvələrin qəbulu azaldılan kimi aradan qalxır.

**– Professor, hazırda insanları ən çox narahat edən klinik əlamətlərin 1 həftə deyil, 15–20 günə qədər davam etməsidir.**



məktəblilər arasındadır. Bu yaş qrupunda xəstəliyə səbəb, kəskin respirator virus infeksiyasıdır (KRVİ adenovirus da daxil olmaqla, 200-dən artıq virusu əhatə edir). Hazırda müşahidə edilən yoluxmalarda dominantlıq edən adenovirusdır.

**– Yoluxmanın məktəbəqədər yaş qrupunda yüksək olmasının səbəbi nədir?**

– Anadan olduqdan sonra, ilk 6 ayda uşaqlar passiv (anadan alınmış) immunitetə sahib olduğundan adenovirus infeksiyasına yoluxmur. Anadangəlmə immunitet itəndən sonra, uşaqlar 7 yaşa kimi adenovirusun demək olar ki, bütün aktiv serotiplərinə dövrü olaraq yoluxaraq immunitet qazanırlar. Odur ki, məktəbəqədər yaş qrupunda olan uşaqlar ildə 3–4 dəfə virusa yoluxurlar. Əgər həmin uşaqlar körpələr evi–uşaq bağçasına və ya hazırlıq qruplarına gedirlərsə, bu mənzərə daha ciddi şəkil alır, yoluxmaların sayı daha çox olur, il ərzində 10–12 dəfə virus infeksiyasına tutula bilirlər. Yəni bu yaş qrupundan olan uşaqlar arasında virus infeksiyasının daha çox yayılması tamamilə qanunauyğundur.

**– Hazırda yoluxmalarda adenovirusun hansı növü daha çox müşahidə edilir?**

– Yoluxmaya səbəb olan adenovirusun tipinə gəlincə, öncə onu qeyd etməliyik ki, bu virusun insanda xəstəlik törədə bilən 7 tipi və 88 serotipi vardır. Klinik əlamətlərin izlənməsi infeksiyanın daha çox hallarda mədə-bağırsaq pozulması ilə müşahidə olunduğu, bəzən sarılıq (hepatit) kimi nozoloji vahiq olaraq fərqli yanaşma tələb etdiyini də subut edir. Elə buna görədir ki, son vaxtlar həm də sarılıq xəstəliyinin artması ilə bağlı valideyinlər arasında xüsusi narahatlıq və qorxu yaşanır.

– Bunun səbəbi odur ki, mutatik spesifikliyə görə, orqanizm bu virusları daha gec tanıdığından, özünümüdafiə reaksiyaları ləngiyir. Eyni zamanda, uzun müddət davam edən pandemiyaya görə “immun sisteminin yorğun olmasıdır”. Bundan başqa, yuxarı tənəffüs yollarında davamlı iltihabi proses səbəbindən virus orqanizmdən tam xaric olduğu halda belə, ödem, iltihablı proses və öskürəyin qalması, yüksək bədən temperaturunun neyromediator ehtiyatını tükəndirməsi, eləcə də 2–4 həftə müddətinə davam edən “virus sonu asteniya”dır.

Odur ki, hazırkı virus infeksiyası zamanı yüksək bədən temperaturunun 7 günə qədər, əzginlik və öskürəyin 14–21 gün, hətta daha uzun müddət davam etməsi, tamamilə normal haldır və narahatlıq yaratsa da, heç bir xüsusi təhlükə olmasına əsas vermir. Yoluxma baş verərsə, yalnız bədən temperaturu və su itkisi nəzarətdə saxlanılmaqla, simptomatik müalicə tədbirləri görülməlidir.

Fəsli infeksiyaların kütləvi yayılma tarixi, sivil insan cəmiyyətinin yaranma tarixi qədərdir. Yəni qrip, qızılca və haqqında danışdığımız infeksiyalar həmişə olub və olacaq. Buna görə qorxmaq lazım deyildir. Sadəcə, uşaqlar arasında “Peyvənd təqviminə” uyğun, ardıcıl olaraq vaksinasiya aparılmalıdır. Son olaraq bir daha bildirim ki, hazırda körpə balaların həyatı üçün xüsusi narahatlıq doğuran heç bir təhlükə yoxdur və gözlənilmir.

Hazırda 2026-cı il yanvar ayının ikinci yarısından başlayaraq, xüsusi fəallıq göstərən ştammlar A(H3N2) qrip ailəsinin “superqrip” adlandırılan 3C.2a-1b.2a.2a.3a.1 xətti, eləcə də koronavirusun rekombinant NB.1.8.1 ştammı və adenovi-



Əvvəla, onu deyək ki, yüngül hepatit əlamətləri, uşaqlarda müxtəlif virus infeksiyalarından sonra, geniş yayılmış adi bir haldır və qorxulu deyildir. Qarında ağrı, qusma, diareya kimi əlamətlər, o cümlədən nadir hallarda da olsa, hətta kəskin hepatit törətmə, yalnız Ad 41 adenovirus serotipinə xasdır. Odur ki, hazırda adenoviruslar ailəsinin Ad 41 serotipin fəallığının yüksək olduğu öz təsdiqini tapır. Müşahidə olunan rusdur. Bunlar fəsli mutasiyaya məruz qalan məlum ştammlardır. Yəni nə yeni, nə də təhlükəli ştammlar deyildir. Bu o demək deyil ki, 1 nəfər bu virusların 3-nə də eyni vaxtda yoluxa bilər. Kim hansı virusa qarşı peyvənd olunubsa, hətta yoluxma baş versə belə, onda xəstəlik yüngül keçir və sağalma tez baş verir.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 17 (30986) 29 yanvar 2026-cı il, cümə axşamı

*Yeni texnologiyalar*

# Polietilenin "yaşıl" qardaşı

## *İşlənmiş bitki yağları necə plastikləşir?*

**Alimlər işlənmiş bitki yağını ənənəvi polietilenin xüsusiyyətlərini təqlid edən plastik materiala çevirməyə imkan verən yeni texnologiya hazırlayıblar. Ənənəvi olaraq plastik məmulatlar neftin emalı yolu ilə istehsal olunur ki, bu proses böyük həcmdə tullantıların yaranması ilə müşayiət olunur. Beynəlxalq tədqiqatçılar qrupu isə plastik istehsalı üçün alternativ xammal mənbəyi kimi işlənmiş bitki yağından istifadə etməyin mümkün olduğunu göstərib.**



Son illər müxtəlif ölkələrdə alimlər polietileni əvəz edə biləcək materiallar yaratmağa çalışsalar da, bu nümunələr istismar xüsusiyyətlərinə və istehsal xərclərinə görə ona uduzub. Eyni zamanda, polietilen ətraf mühit üçün təhlükəli çirkləndirici hesab olunur: ondan hazırlanan paketlər, qida qabları və su boruları təbiətdə parçalanmır, çətin utilizasiya olunur və çox vaxt tullantı poliqonlarında yığılır.

Tədqiqatçılar işlənmiş bitki yağını poliesterlərin sintezi üçün əsas xammala çevirməyə nail olublar. Bu poliesterlər geniş istifadə olunan polietilenə alternativ ola biləcək plastik materialın istehsalına imkan verir. Aparılan eksperimentlərin nəticələri "Journal of the American Chemical Society" elmi jurnalında dərc olunub.

Araşdırma zamanı işlənmiş bitki yağının tərkibindəki doymamış yağ turşuları əvvəlcə uzun zəncirli C19 diesterə, daha sonra isə bərpa prosesi vasitəsilə diola çevrilib. Məhz bu mərhələ polietilenə xas olan xətti strukturun formalaşmasını təmin edib. Yüksək məhsuldarlıq əldə olunmasında palladium katalizatorunun tətbiqi həlledici rol oynayıb.

Bitki yağının digər komponenti olan qliserin isə şaxələnmiş diollara çevrilib. Sonradan bu birləşmələr polimerləşdirilərək elastiklik və möhkəmlik baxımından polietilenə yaxın xüsusiyyətlərə malik poliesterlər əldə edilib. Alimlərin sözlərinə görə, yeni materiallar kimyəvi yolla parçalana və yenidən emal oluna bilir.

Yeni texnologiya işlənmiş bitki yağının səmərəli utilizasiyası üçün geniş imkanlar açır. Tədqiqat müəlliflərinin məlumatına əsasən, dünyada hər il təxminən 3,7 milyard qallon işlənmiş bitki yağı yaranır və bunun böyük hissəsi təkrar istifadə olunmadan kanalizasiya sistemlərinə və ya tullantı axınlarına düşür.

***S.ELAY***
***XQ***

## İDMAN

# Bakıda ciu-citsu zalı açılıb



**Bakıda "JGBJJ Academy Azerbaijan" ciu-citsu zalının açılış mərasimi keçirilib. Açılışda gənclər və idman naziri Fərid Qayıbov, idmanın bu növü ilə məşğul olan mütəxəssislər, idmançılar və məşqçilər iştirak ediblər. Nazir yeni zalın açılışı münasibətilə idmançıları təbrik edib. O, məşq zalı ilə tanışlıqdan sonra burada yaradılan şərait barədə məlumatlandırılıb, idmançıların nümunəvi çıxışlarına baxıb.**

Yeni istifadəyə verilən zal eyni vaxtda üç qrupun məşq keçməsi üçün nəzərdə tutulub. Ümumi sahəsi 480 kvadratmetr olan zalda məşq üçün müasir tələblərə uyğun şərait yaradılıb.

# Güləş Federasiyasının yeni layihələri



**Azərbaycan Güləş Federasiyası (AGF) müxtəlif sahələrin inkişaf etdirilməsi üçün yeni layihələrin həyata keçirilməsini planlaşdırır. Bu istiqamətdə atılacaq müxtəlif layihələrlə bağlı AGF-nin ofisində Milli Olimpiya Komitəsinin (MOK) rəsmiləri ilə görüş keçirilib.**

MOK-un Beynəlxalq Proqramlar İdarəsinin müdiri Ceyhun Rəhmanovla keçirilən görüş zamanı bir sıra strateji əhəmiyyətli məsələlər müzakirə olunub. Məşqçilər üçün beynəlxalq təlim və sertifikasiya proqramlarında iştirak imkanları, müxtəlif ölkələrin təcrübəsinə əsaslanan milli idman sistemlərinin təkmilləşdirilməsi modelləri, eləcə də gənc atletlərin inkişafına yönəlmiş beynəlxalq layihə və proqramlara qoşulma perspektivləri barədə fikir mübadiləsi aparılıb.

# Daşkənddə antidopinq müzakirələri




**Özbəkistanın paytaxtı Daşkənddə Ümumdünya Antidopinq Agentliyi (WADA) tərəfindən "Qlobal antidopinq idarəçiliyinin gücləndirilməsi: Uyğunlaşdırma, ardıcıllıq və regional əməkdaşlıq" mövzusunda beynəlxalq forum təşkil olunub.**

Mərasimdə ölkəmizi Azərbaycan Milli Antidopinq Agentliyinin İcraçı direktoru Təhminə Tağı-zadə təmsil edib.

Açılış mərasimində WADA-nın prezidenti Vitold Banka, Özbəkistan Respublikasının idman naziri Adham İkromov və milli antidopinq agentliyinin direktoru Abduşukur Sodikov çıxış ediblər.

Forumda qarşıdakı illərdə həyata keçiriləcək prioritet vəzifələr müəyyən edilib. Xüsusilə, WADA Məcəlləsinin tələblərinə tam uyğunluq, idmançıların sağlamlığının və hüquqlarının qorunması məsələlərinə xüsusi diqqət yetirilərək müzakirələr aparılıb.

Beynəlxalq forum çərçivəsində hər bir ölkənin nümayəndələri öz təcrübələri, nailiyyətləri və mövcud problemləri barədə məlumat verib, dopinqə qarşı mübarizədə əməkdaşlıq üçün effektiv yollar və imkanları təhlil ediblər.

Mərasimdə 200-dək hökumət rəsmisi, milli antidopinq təşkilatının rəhbəri, yüksəkixtisaslı mütəxəssis və beynəlxalq ekspert iştirak edib.

***Qabil YUSİFOĞLU***
***XQ***

*Pəhriz və biz*

# Təbii və faydalı qida sağlamlığın əsasıdır



**Müasir dövrdə ürək-damar xəstəlikləri bütün dünyada ölümün əsas səbəblərindən biri olaraq qalır. Bu xəstəliklərin yaranmasında "pis" xolesterin kimi tanınan aşağı sıxlıqlı lipoproteinlərin (ASLP) yüksək səviyyəsi xüsusi rol oynayır. Elmi araşdırmalar isə göstərir ki, bəzən sağlamlığa gedən yol bahalı dərmanlardan deyil, sadə və əlçatan qidalardan keçir.**

Almaniyanın Bonn Universitetinin alimlərinin apardığı son tədqiqat bu baxımdan diqqətçəkən nəticələr ortaya qoyub. "Nature Communications" elmi jurnalında dərc olunan araşdırmaya əsasən, yulaf əsaslı qısamüddətli pəhriz orqanizmdə "pis" xolesterinin səviyyəsini nəzərəçarpacaq dərəcədə azalda bilir.

Tədqiqatda 68 könüllü iştirak edib. Onların bir qismi iki gün ərzində demək olar ki, yalnız suda bişirilmiş yulaf sıyığı ilə qidalanıb. Pəhrizə əlavə olaraq az miqdarda meyvə və tərəvəz də daxil edilib. İştirakçılar gün ərzində, təxminən, 300 qram yulaf qəbul ediblər və bu müddətdə adi qidalanma ilə müqayisədə, təxminən, iki dəfə az kalori alıblar. Nəzarət qrupunda olanlar da aşağı kalorili pəhrizə əməl ediblər, lakin onların qidasında yulaf olmayıb.

Analizlər göstərib ki, məhz iki günlük yulaf pəhrizi ən güclü təsiri yaradıb. Eksperimental qrupda olan iştirakçıların LPSL xolesterinin səviyyəsi orta hesabla 10 faiz azalıb. Bundan əlavə, onlar təxminən iki kiloqram çəki itiriblər, arterial təzyiqdə isə cüzi enmə müşahidə olunub. Bu metabolik dəyişikliklər altı həftəyədək davam edib, nəzarət qrupunda isə oxşar dəyişikliklər xeyli zəif ifadə olunub.

Alimlər əlavə bir eksperiment də aparıblar: altı həftə ərzində iştirakçılar kalori məhdudiyyəti olmadan hər gün 80 qram yulaf qəbul ediblər. Lakin bu rejim xolesterin səviyyəsinə yalnız zəif təsir göstərib. Tədqiqat müəlliflərinin sözlərinə görə, yulafın təsir mexanizmi əsasən bağırsaq mikrobiomu ilə bağlıdır. Pəhriz yulafın tərkib hissələrini parçalaya bilən və xolesterin mübadiləsinə təsir edən fenol birləşmələri sintez edən faydalı bakteriyaların artımını stimullaşdırıb.

Eyni zamanda, insulin həssaslığını zəiflədən metabolik proseslərlə əlaqəli mikroorqanizmlərin aktivliyi azalıb. Alimlər vurğulayırlar ki, qısa müddətli, lakin intensiv yulaf pəhrizi xolesterinin azaldılması üçün əlavə, dərmansız üsul kimi istifadə oluna bilər. Bununla belə, bu yanaşma dərman müalicəsini əvəz etmir və daha geniş tədqiqatlara ehtiyac var.

Maraqlıdır ki, yulafın xolesterini azaltmaq xüsusiyyəti əsasən onun tərkibindəki beta-qlükan adlı həll olunan liflə əlaqələndirilir. Bu maddə bağırsaqlarda öd turşularını bağlayaraq xolesterinin sorulmasını azaldır. Mütəxəssislərin fikrincə, gündə təxminən 3 qram beta-qlükan qəbulu belə xolesterin səviyyəsinin azalmasına kömək edə bilər.

Tarixən Avropada yulaf daha çox "kasıbların qidası" kimi tanınıb, lakin müasir elmi tədqiqatlar onu ürək-damar sağlamlığı üçün ən faydalı dənli bitkilərdən biri kimi dəyərləndirir. Bundan əlavə, yulaf qan şəkərinin daha stabil saxlanmasına və uzunmüddətli toxluq hissinin yaranmasına da müsbət təsir göstərir.

Beləliklə, elm bir daha sübut edir ki, sağlamlıq bəzən mürəkkəb reseptlərdə deyil, gündəlik süfrəmizdə tapılan sadə qidalardadır. Yulaf kimi xeyirli bir məhsul düzgün istifadə edildikdə ürəyimizin qoruyucusuna çevrilə bilər.

Əsas məsələ isə balanslı qidalanma, elmi yanaşma və sağlamlığa məsuliyyətli münasibətdir. Sağlam gələcək də məhz bu seçimlərdən başlayır.

***A.NURƏNGİZ***
***XQ***

# Şair-tərcüməçinin "Söz bayramı"



**Tanınmış şərqşünas, şair-tərcüməçi Hafiz Rüstəmin 75 illik yubileyi "Söz bayramı" adlı ədəbi mərasimdə qeyd edilib. Qanun Nəşrlər Evində keçirilən məclisdə müəllifin "Nə çoxmuş qaranlıq, nə azmış işıq" adlı lirik şeirlər toplusu, "Bad-i saba" (XX əsr fars poeziyası antologiyası) və "Hafiz Şirazinin qəzəlləri" ("Klassiklər" seriyasından bədii tərcümələr) kitabları oxuculara təqdim olunub.**

Yubiley mərasimini giriş sözü ilə açan Qanun Nəşrlər Evinin rəhbəri Şahbaz Xuduoğlu yubilyarın klassik Şərq poeziyasının Azərbaycan oxucusuna çatdırılmasında mühüm rol oynadığını vurğulayıb.

Milli Məclisin deputatı Fəzail İbrahimli, BSU-nun professoru Telman Vəlixanlı, filologiya elmləri doktoru Vaqif Yusifli, ədəbiyyatşünas Əkrəm Bağırov, şərqşünas Zəki Bayram, qocaman pedaqoq Aydın Əbilov, AYB poeziya bölməsinin rəhbəri İbrahim İlyaslı, şair Ağacəfər Həsənli və başqaları çıxış edərək yubilyarın yaradıcılığı və tərcümə fəaliyyətinə dair fikirlərini bölüşüblər.

Çıxışlarda Hafiz Rüstəmin poeziyasında zaman və insan mövzularının aparıcı xətt təşkil etdiyi, onun tərcümələrinin isə klassik Şərq poeziyasının ruhunu qorumaq baxımından xüsusi seçildiyi bildirilib. Təqdim edilən nəşrlərin Hafiz Rüstəmin həm orijinal poeziyada, həm də klassik Şərq ədəbiyyatının Azərbaycan dilinə çevrilməsində istedad və zəhmətini əks etdirdiyi diqqətə çatdırılıb.

Sonda Hafiz Rüstəm yeni nəşr olunmuş kitablarını və digər əsərlərini tədbir iştirakçıları üçün imzalayıb.

***Ə.DOSTƏLİ***
***XQ***

## HAVA

# Gündüz yağıntılar ötüb keçəcək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Səhər bəzi şəhərətrafı ərazilərdə intensivləşəcəyi ehtimalı var. Gündüz tədricən kəsiləcək. Cənub-şərq küləyi axşam şimal-qərb küləyi ilə əvəzlənəcək.**

Havanın temperaturu gecə 2-5, gündüz 6-10 dərəcə isti olacaq. Atmosfer təzyiqi 760 millimetr civə sütununu, nisbi rütubət 80-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə qısamüddətli intensivləşəcəyi ehtimalı var. Gündüz yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Mülayim qərb küləyi əsəcək.



Havanın temperaturu gecə 0-5, gündüz 6-11 dərəcə isti, dağlarda gecə 3-8, gündüz 0-3 dərəcə şaxta olacaq.

Gecə bəzi dağlıq rayonlarda yolların buz bağlayacağı ehtimalı var.

***Q.ƏLİYEV***
***XQ***

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Texniki Universitetinin rektorluğu, kollektivi və Həmkarlar İttifaqı Komitəsi Mingəçevir Dövlət Universitetinin tədris şöbəsinin müdiri Şahin Maşayevə anası

**ÇİMNAZ MAŞAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

***✓ Abşeron Rayonunun Görədil bələdiyyəsinin 3100125401 nömrəli VÖEN-nin şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.***

***✓ "BİNƏQƏDİ-38" MMMC-yə məxsus nizamnamə, şəhadətnamə və dövlət reyestrindən çıxarış itdiyi üçün etibarsız sayılır.***

**DİREKTOR – BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
**Qəbul şöbəsi: 493-24-75**
**Məsul katib: 493-61-02**
**Texniki şöbə: 493-59-64**
**Mühasibatlıq: 498-85-29**
**Email: xalqqazeti@gmail.com**
**info@xalqqazeti.az**
**+994 (51) 280-16-44**

**"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.**

**ÜNVANIMIZ:**
**AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.**
**Şəhadətnamə 022273**

**İNDEKS 0282**
**TİRAJ 2917**
**SİFARİŞ 154**
**QİYMƏTİ 60 qəpik**

**Növbətçi redaktor**
**Nurlan ABDALOV**
**Çapa imzalanmışdır 00:00**